AZƏRBAYCAN BAROMETRİ №6 (10)

İyul / 2020

# Pandemiya ilə mübarizədə dövlətin anti-böhran siyasəti ictimai rəydə

## ANALİTİK HESABAT




SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

## Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
Onuncu buraxılış

İyul 2020

# PANDEMİYA İLƏ MÜBARİZƏDƏ DÖVLƏTİN ANTİBÖHRAN SİYASƏTİ İCTİMAİ RƏYDƏ

**ANALİTİK HESABAT**


**Müəlliflər:**
Seymur Əliyev
*Sosial-iqtisadi təhlil departamentinin rəhbəri*
Elnur Çıraqov
*Sosial-iqtisadi təhlil departamentinin aparıcı məsləhətçisi*

**Tədqiqat qrupu:**
Sosial-iqtisadi təhlil departamenti
İctimai rəyin öyrənilməsi departamenti


Bakı - 2020

Sorğu çərçivəsində sahə işinin təşkili və tədqiqatın müxtəlif mərhələlərində verdiyi tövsiyələrə görə İctimai rəyin öyrənilməsi departamentinin rəhbəri **Ayşəm Balayeva**ya, statistik təhlil mərhələsində göstərdiyi dəstəyə və sorğu suallarının adaptasiyasındakı roluna görə İctimai rəyin öyrənilməsi departamentinin aparıcı məsləhətçisi **Zaur Əfəndiyev**ə, tədqiqatın müxtəlif mərhələlərində verdiyi töhfələrə görə Sosial-iqtisadi təhlil departamentinin baş məsləhətçisi **Humay Axundzadə**yə təşəkkürümüzü bildiririk.

"Azərbaycan barometri" jurnalı 06 avqust 2019-cu il tarixində
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində 4247 nömrəsi
ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Redaktor:**
Aqşin Məmmədov,
filologiya üzrə fəlsəfə doktoru

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb: 06.08.2020
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

ŞƏRQ-QƏRB

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunub.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84

# MÜNDƏRİCAT

**İCMAL**......6

**GİRİŞ**......9

**TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ**......11

**1. BÖLMƏ: BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ**......12
1.1. Pandemiya tarixinə retrospektiv baxış......13
1.2. COVID-19: epidemiyadan pandemiyaya......20
1.3. Pandemiyaya hazırlıq üzrə qlobal reytinq......23
1.4. Pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq təcrübə......25
1.4.1. Pandemiya dövründə təhsil prosesinin tənzimlənməsi......26
1.4.2. Pandemiya dövründə iş prosesinin tənzimlənməsi......27
1.4.3. Pandemiya dövründə ictimai tədbirlərin tənzimlənməsi......28
1.4.4. Pandemiya dövründə şəxslərin qrup halında cəmləşməsinin məhdudlaşdırılması......29
1.4.5. Pandemiya dövründə “evdə qal” kampaniyasının aparılması......30
1.4.6. Pandemiya dövründə ictimai nəqliyyatın tənzimlənməsi......31
1.4.7. Pandemiya dövründə daxili hərəkətin tənzimlənməsi......32
1.4.8. Pandemiya dövründə xarici hərəkətin tənzimlənməsi......33
1.4.9. Pandemiya dövründə maliyyə yardımının tətbiq olunması......34
1.4.10. Pandemiya dövründə hökumətin reaksiya sərtliyi indeksi......35

**2. BÖLMƏ: MİLLİ ANTİBÖHRAN SİYASƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**......37
2.1. COVID-19: Azərbaycanda cari vəziyyətin təhlili......38
2.2. Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı tədbirlər......39
2.2.1. Dövlət sərhədlərinin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlanması......41
2.2.2. “8103” SMS icazə xidməti və “icaze.e-gov.az” portalının istifadəyə verilməsi......44
2.2.3. Karantin qaydalarının pozulmasına görə tətbiq olunan cərimələr......46
2.2.4. Xüsusi karantin dövründə hərəkətin tənzimlənməsi......48
2.2.5. Xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi......53
2.2.6. Xüsusi karantin dövründə təhsil prosesinin tənzimlənməsi......57
2.3. Xüsusi karantin rejiminin əhalinin gündəlik həyatına və gəlirlərinə təsiri......62
2.4. Pandemiya ilə mübarizə çərçivəsində sosial dəstək tədbirləri......66
2.4.1. Pandemiya ilə mübarizə çərçivəsində sosial dəstək tədbirlərinə işini itirənlərin münasibəti......71
2.5. Xüsusi karantin dövründə məhsul və xidmətlərin təminatı ilə bağlı tədbirlər......75
2.6. Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən maliyyə tədbirləri......78
2.7. Xüsusi karantin rejimindən çıxışla bağlı tədbirlər......81
2.8. Pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq əməkdaşlıq......84
2.9. Pandemiya ilə mübarizə çərçivəsində aidiyyəti şəxs və qurumların fəaliyyətinin qiymətləndirilməsi......86

**NƏTİCƏ VƏ TƏKLİFLƏR**......90

**İSTİNADLAR**......92

**ƏLAVƏLƏR**......93

# İCMAL

| | Antiböhran siyasəti çərçivəsində həyata keçirilən tədbirlər | Müsbət | Mənfi | ÇÇ/ Məlumatım yoxdur | Səhifə |
|---|---|---|---|---|---|
| **1.** | Dövlət sərhədlərinin müvəqqəti rejim əsasında bağlı saxlanılması tədbirini necə qiymətləndirirsiniz? | 66.7% | 26.1% | 7.2% | 41-43 |
| **2.** | Xaricdə yaşayan vətəndaşların ölkəyə gətirilməsi tədbirini necə qiymətləndirirsiniz? | 79.0% | 16.4% | 4.1% | 41-43 |
| **3.** | SMS icazə sisteminin tətbiqinin ləğv olunmasını necə qiymətləndirirsiniz? | 74.4% | 20.5% | 5.1% | 44-45 |
| **4.** | SMS icazə sisteminin yenidən tətbiqi tədbirini necə qiymətləndirirsiniz? | 81.9% | 16.4% | 1.7% | 44-45 |
| **5.** | Karantin qaydalarını pozan şəxslərə tətbiq olunan cərimə miqdarını necə qiymətləndirirsiniz? | 55.9% | 37.4% | 6.7% | 46-47 |
| **6.** | Karantin qaydalarını pozan şəxslərə tətbiq olunan cərimə miqdarlarının artırılmasını necə qiymətləndirirsiniz? | 67.0% | 29.2% | 3.1% | 46-47 |
| **7.** | Şəxslərin hərəkətinin yumşaldılması ilə bağlı tədbirləri necə qiymətləndirirsiniz? | 84.8% | 11.6% | 3.6% | 48-52 |
| **8.** | Metronun fəaliyyətinin təkrar dayandırılması tədbirini necə qiymətləndirirsiniz? | 70.5% | 14.6% | 14.9% | 48-52 |
| **9.** | İri şəhərlərə giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılması tədbirini necə qiymətləndirirsiniz? | 57.7% | 35.1% | 7.2% | 48-52 |
| **10.** | Bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyətin götürülməsini necə qiymətləndirirsiniz? | 56.9% | 25.1% | 17.9% | 48-52 |
| **11.** | Bəzi şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyatın hərəkətinin məhdudlaşdırılması tədbirlərini necə qiymətləndirirsiniz? | 73.7% | 22.9% | 3.4% | 48-52 |
| **12.** | İş rejimi məhdudiyyətlərinin yumşaldılması ilə bağlı tədbirləri necə qiymətləndirirsiniz? | 94.1% | 4.1% | 1.8% | 53-56 |
| **13.** | İş rejiminin təkrar məhdudlaşdırılması ilə bağlı tədbirləri necə qiymətləndirirsiniz? | 75.9% | 20.3% | 3.8% | 53-56 |
| **14.** | Restoran, ictimai iaşə və xidmət obyektlərinin fəaliyyətinin bərpa olunmasını necə qiymətləndirirsiniz? | 65.7% | 27.2% | 7.1% | 53-56 |
| **15.** | “Mall” və iri ticarət obyektlərinin fəaliyyətinin bərpa olunmasını necə qiymətləndirirsiniz? | 62.5% | 19.6% | 17.9% | 53-56 |
| **16.** | Dövlət və özəl sektorda fəaliyyətin təkrar məhdudlaşdırılmasını necə qiymətləndirirsiniz? | 73.4% | 17.5% | 9.1% | 53-56 |
| **17.** | Təhsil müəssisələrinin fəaliyyətinin müvəqqəti dayandırılmasının uzadılması ilə bağlı tədbirləri necə qiymətləndirirsiniz? | 58.2% | 37.9% | 3.8% | 57-58 |
| **19.** | Yeni modul tipli xəstəxana və tibb müəssisəsinin istifadəyə verilməsini necə qiymətləndirirsiniz? | 96.3% | 1.4% | 2.3% | 75-77 |
| **20.** | Zəruri tibbi avadanlıq və digər tibbi vasitələrin tədarükü ilə bağlı tədbirləri necə qiymətləndirirsiniz? | 96.6% | 0.7% | 2.9% | 75-77 |
| **21.** | Tibbi maska və digər qoruyucu vasitələrin yerli istehsalını necə qiymətləndirirsiniz? | 97.2% | 1.5% | 1.3% | 75-77 |
| **22.** | Karantin rejiminin uzadılmasını necə qiymətləndirirsiniz? | 68.4% | 29.2% | 2.3% | 81-83 |

| | | | | | |
|---|---|---|---|---|---|
| **23.** | Həftə sonu tam izolyasiya tədbirlərini necə qiymətləndirirsiniz? | 60.0% | 33.1% | 6.9% | 81-83 |
| **24.** | Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində ÜST-ə maliyyə yardımı etməsi təşəbbüsünü necə qiymətləndirirsiniz? | 68.2% | 5.0% | 26.8% | 84-85 |
| **25.** | Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində Türk Şurası ölkələri ilə görüş təşəbbüsünü necə qiymətləndirirsiniz? | 53.6% | 1.2% | 45.2% | 84-85 |
| **26.** | Azərbaycanın pandemiya ilə mübarizə çərçivəsində müxtəlif dövlətlərə humanitar yardım təşəbbüsünü necə qiymətləndirirsiniz? | 76.7% | 17.0% | 6.3% | 84-85 |
| **27.** | Azərbaycanın Qoşulmama Hərəkatının pandemiya ilə mübarizə çərçivəsində görüş təşəbbüsünü necə qiymətləndirirsiniz? | 60.9% | 2.6% | 36.5% | 84-85 |
| **28.** | Azərbaycanın Şərq Tərəfdaşlığı ölkələrinin pandemiya ilə mübarizə çərçivəsində görüş təşəbbüsünü necə qiymətləndirirsiniz? | 59.4% | 2.3% | 38.4% | 84-85 |
| **29.** | Ümumilikdə Azərbaycan hökumətinin pandemiya ilə mübarizə siyasətini necə qiymətləndirirsiniz? | 88.4% | 7.9% | 3.8% | 86-89 |

| | **Xüsusi karantin rejiminin əhalinin gündəlik həyatına və gəlirlərinə təsirləri** | **Müsbət** | **Mənfi** | **Təsir etmədi** | **Aid deyil** | **Səhifə** |
|---|---|---|---|---|---|---|
| **30.** | Xüsusi karantin rejimi özünüzün və ailə üzvlərinizin gəlirlərinə necə təsir göstərdi? | 1.8% | 60.2% | 36.9% | 1.1% | 62-65 |
| **31.** | Xüsusi karantin rejimi ailədaxili münasibətlərinizə necə təsir göstərdi? | 13.5% | 25.1% | 59.7% | 1.7% | 62-65 |
| **32.** | Xüsusi karantin rejimi sizin psixoloji vəziyyətinizə necə təsir göstərdi? | 9.3% | 40.7% | 50.0% | - | 62-65 |
| **33.** | Xüsusi karantin rejimi sizin sosial fəaliyyətinizə necə təsir göstərdi? | 8.5% | 38.4% | 44.1% | 9.1% | 62-65 |
| **34.** | Xüsusi karantin rejimi özünüzün və ya övladınızın təhsilinə necə təsir göstərdi? | 7.6% | 44.1% | 22.2% | 26.1% | 62-65 |

| | **Antiböhran siyasəti çərçivəsində aidiyyatı şəxs və qurumların fəaliyyətinə münasibət** | **Müsbət** | **Mənfi** | **ÇÇ** | **Səhifə** |
|---|---|---|---|---|---|
| **35.** | Prezidentin fəaliyyətini necə qiymətləndirirsiniz? | 96.3% | 2.3% | 1.4% | 86-89 |
| **36.** | Operativ Qərargahın fəaliyyətini necə qiymətləndirirsiniz? | 60.5% | 28.4% | 11.1%% | 86-89 |
| **37.** | TƏBİB-in fəaliyyətini necə qiymətləndirirsiniz? | 52.2% | 31.5% | 16.3% | 86-89 |
| **38.** | Səhiyyə Nazirliyinin fəaliyyətini necə qiymətləndirirsiniz?? | 53.2% | 38.4% | 8.3% | 86-89 |
| **39.** | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyətini necə qiymətləndirirsiniz? | 57.4% | 24.7% | 17.9% | 86-89 |
| **40.** | Hüquq-mühafizə orqanlarının fəaliyyətini necə qiymətləndirirsiniz? | 83.6% | 13.1% | 3.4% | 86-89 |
| **41.** | DOST mərkəzlərinin fəaliyyətini necə qiymətləndirirsiniz? | 51.6% | 8.2% | 40.2% | 86-89 |

| | Xüsusi karantin rejimindən çıxış strategiyasına münasibətin öyrənilməsi | Mərhələli | Birdəfəlik | ÇÇ | Səhifə |
|---|---|---|---|---|---|
| 42. | Xüsusi karantin rejimindən çıxışı hansı formada məqbul hesab edirsiniz? | 66.6% | 27.4% | 6.0% | 81-83 |

| | Pandemiya ilə mübarizə çərçivəsində informasiya və kommunikasiya tədbirlərinin qiymətləndirilməsi | Etibar edirəm | Etibar etmirəm | ÇÇ | Səhifə |
|---|---|---|---|---|---|
| 43. | Pandemiya ilə mübarizə çərçivəsində müvafiq dövlət qurumlarının fəaliyyətinə nə dərəcədə etibar edirsiniz? | 82.9%% | 12.5% | 4.6% | 86-89 |

| 44. | Pandemiya ilə mübarizə çərçivəsində görülmüş tədbirlərlə bağlı əsas məlumat mənbələri | Radio-televiziya | Sosial media | Rəsmi məlumatlar | Ailə və yaxınlar | Səhifə |
|---|---|---|---|---|---|---|
| 45. | Pandemiya ilə mübarizə çərçivəsində görülmüş tədbirlərlə bağlı əsas məlumat mənbələriniz hansılardır? | 67.6% | 25.5% | 4.9% | 2.1% | 86-89 |

| | Pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərinə münasibətin qiymətləndirilməsi | Bəli | Xeyr | ÇÇ | Məlumatım yoxdur | Səhifə |
|---|---|---|---|---|---|---|
| 46. | Pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərini yetərli hesab edirsinizmi? | 56.6% | 24.0% | 20. 4% | - | 79-80 |
| 47. | Koronavirusla Mübarizəyə Dəstək Fonduna ayrılan vəsaitlərin təyinatı üzrə xərclənəcəyinə inanırsınızmı? | 44.1% | 10.1% | 17. 4% | 28.2% | 79-80 |
| 48. | Özünüz Fonda ianə vermisinizmi? | 7.8% | 92.2% | - | - | 79-80 |
| 49. | Yaxınlarınız Fonda ianə veribmi? | 14.1% | 85.9% | - | - | 79-80 |

| | Xüsusi karantin rejiminin məşğulluq göstəricilərinə təsiri | Bəli | Xeyr | İşləmirdim | Səhifə |
|---|---|---|---|---|---|
| 50. | Karantin dövründə özünüz işinizi itirdinizmi? | 11.0% | 36.7% | 52.3% | 71-74 |
| 51. | Karantin dövründə ailə üzvünüz işini itirdimi? | 21.5% | 56.6% | 21.9% | 71-74 |

| | | İnanıram | İnanmıram | ÇÇ | Səhifə |
|---|---|---|---|---|---|
| 52. | COVID-19 virusunun mövcudluğuna inamınız necə dəyişib? | 90.7% | 9.3% | - | 62-65 |
| | | Qorxuram | Qorxmuram | ÇÇ | Səhifə |
| 53 | COVID-19 virusuna yoluxmaqdan nə dərəcədə qorxursunuz? | 69.6% | 30.0% | 0.4% | 62-65 |

# GİRİŞ

Təsirlərinin miqyası və dərinliyi baxımından Böyük böhran (1929-cu il) dövrü ilə müqayisə edilən, qloballaşma fenomeninin və dünya iqtisadiyyatındakı qarşılıqlı asılılığın dərinləşməsi səbəbindən domino effekti yaradan koronavirus (COVID-19) pandemiyası dövlətləri spesifik antiböhran idarəçiliyi ilə üz-üzə qoyur. İnfeksiyanın yayılma dinamikası sürətləndikcə qısamüddətli dövr üçün insan sağlamlığı, orta və uzunmüddətli perspektivdə isə sosial, iqtisadi və siyasi böhranlar üçün zəmin formalaşır. Məhz bu səbəbdən beynəlxalq analitiklər tarix boyu presedenti görülməyən bir böhranla qarşı-qarşıya qalındığını bəyan edirlər.

Pandemiyanı "nəzarət altında" saxlamaq üçün bir çox dövlətlər indiyə qədər misli görülməmiş səviyyədə qabaqlayıcı tədbirlər həyata keçirməkdədir. Bu tədbirlər antiböhran idarəçiliyinin mərkəzi xəttini təşkil etməklə, dövlətləri fərqli kombinasiyalarda maliyyə və sosial-iqtisadi strategiyalar tətbiq etməyə sövq edir. Ümumiyyətlə, nəzəri baxımdan təbii fəlakətlərdən qaynaqlanan böhranlarla mübarizə strategiyaları çərçivəsində verilmiş qərarlar iki mərhələ üçün hesablanır. Birinci mərhələ qısamüddətli dövr üçün nəzərdə tutulmuş və böhranın yaratdığı günlük təsirləri qarşılamaq kontekstində reaktiv böhran idarəçiliyinin elementlərinə əsaslansa da, ikinci mərhələdə orta və uzunmüddətli dövrə fokuslanan tədbirlər böhran yaradan faktorların təhlili əsasında səbəblərin aradan qaldırılması və təkrarlanmaması məqsədilə həyata keçirilən proaktiv strategiyalardan ibarətdir.

Cari vəziyyətin kompleks dəyərləndirilməsi bizə onu deməyə əsas verir ki, yeni növ koronavirusun dünya miqyasında sürətli yayılmasının davamlılığı fonunda istər milli, istərsə də qlobal iqtisadiyyatda həm təklif yönümlü (istehsal zəncirlərinin axsaması), həm də tələb yönümlü (istehlak və investisiya xərclərindəki azalma) şoklar dərinləşir, bu da iqtisadi durğunluğu sürətləndirir. Beynəlxalq Valyuta Fondunun (BVF) 2021-ci il üçün proqnozlarına əsasən qlobal iqtisadi artımda 5.3%-lik böyümə gözlənilsə də, bu, əhəmiyyətli dərəcədə pandemiyanın inkişaf trayektoriyasından asılı olacaqdır. Bununla yanaşı, qeyd edilən iqtisadi artım şəraitində belə, qlobal iqtisadiyyatda 2020-ci il ilə 2021-ci il arasında 9 trilyon dollar həcmində (dünya məcmu gəlirinin təqribən 15%-ə qədəri) itki qaçılmazdır.

Başqa sözlə, pandemiyanın yol açdığı böhran tələb, təklif və maliyyə şoklarını eyni zamanda əhatə etdiyinə görə çoxistiqamətli sistematik bir böhran olaraq qəbul edilməkdədir. Məhz bu baxımdan antiböhran tədbirlərinin milli həmrəylik, dövlətin mobil siyasət və ciddi sinxronlaşdırılmış təşəbbüslərinə əsaslanmasına ehtiyac var.

Bu tədqiqatda Azərbaycan dövlətinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizə çərçivəsində formalaşdırdığı antiböhran strategiyası, müvafiq dövlət siyasətləri ictimai rəy əsasında qiymətləndirilir. Bir-birini tamamlayan strateji qərar və tövsiyələrə əsaslanan antiböhran siyasəti ilə bağlı vətəndaş rəyinin öyrənilməsi bu istiqamətdə hesabatlılığın təmin edilməsi və gələcək qərarlar üçün istinad məqsədi daşıyır.

Analitik hesabatda dövlətin yaxın dövrdə pandemiyanın makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması məqsədilə həyata keçirdiyi təxirəsalınmaz sosial dəstək tədbirlərindən məmnuniyyət göstəriciləri ictimai rəy əsasında qiymətləndirilir.

Tədqiqat çərçivəsində müvafiq istiqamətdəki beynəlxalq təcrübə, Azərbaycanda həyata keçirilən tədbirlərin icmalı, eləcə də antiböhran strategiyasının potensial imkanları əsas konturları üzrə əhatə olunur.

Yuxarıda qeyd olunan məqsədlərə çatmaq üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən Operativ Qərargahın müxtəlif tarixlərdə qəbul edib həyata keçirdiyi antiböhran tədbirlərinə ictimai rəyi öyrənmək məqsədilə aşağıdakı ümumölkə miqyaslı sorğular keçirilib, fokus qrup müzakirələri aparılıb və onların nəticələri tədqiqat qrupu tərəfindən təhlil edilib.

- Birinci mərhələ (24-30 aprel 2020-ci il)

Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı və sosial rifahın gücləndirilməsi istiqamətində siyasətə ictimai münasibətin öyrənilməsi (1212 respondentlə keçirilmiş sosioloji sorğu);

- İkinci mərhələ (08-11 may 2020-ci il)

Dövlətin sosial dəstək tədbirlərindən yararlananların məmnuniyyətinin ölçülməsi məqsədilə ictimai rəyin öyrənilməsi (1212 respondentlə keçirilmiş sosioloji sorğu);

- Üçüncü mərhələ (22-23 may 2020-ci il)

Dövlətin sosial dəstək tədbirlərinə xüsusi qrup kimi karantin dövründə işini itirənlərin münasibətinin öyrənilməsi (365 respondentdən 124-ü ilə sosioloji sorğu);

- Dördüncü mərhələ (09-10 iyun 2020-ci il)

Pandemiya ilə mübarizə çərçivəsində tətbiq edilən karantin rejiminin sərtləşdirilməsinə ictimai münasibətin öyrənilməsi (384 respondent ilə keçirilmiş sosioloji sorğu);

- Beşinci mərhələ (03-07 iyul 2020-ci il)

Pandemiya ilə mübarizə çərçivəsində bəzi şəhər və rayonlarda tətbiq olunan tədbirlərə və sərtləşdirilmiş karantin rejiminə ictimai münasibətin öyrənilməsi (1212 respondentlə keçirilmiş sosioloji sorğu).

Analitik sənəddə təqdim edilən təhlil və tövsiyələr Azərbaycan Respublikası Prezidentinin 19 mart 2020-ci il tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planında nəzərdə tutulan prioritet istiqamətlər nəzərə alınmaqla hazırlanıb. Sözügedən strateji sənəd "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq

məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər"in sistemli və effektiv reallaşdırılmasını nəzərdə tutur.

Analitik hesabatda Azərbaycan dövləti tərəfindən tədqiqat aparılması tələb olunan sahələr prioritet təşkil edir ki, bu sahələrə aşağıdakılar aiddir:

● Məşğulluq və sosial rifaha dəstək tədbirlərinin əsaslandırılması;

● Dövlət və qeyri-dövlət sektoru üzrə işçi və eləcə də muzdlu işçilərin işsizlik riskindən qorunması və sosial müdafiəsi istiqamətində həyata keçirilmiş tədbirlərin nəticələrinin ictimai rəy əsasında qiymətləndirilməsi;

● İşsiz və işdən azad olunmuş şəxslərin məşğulluğu və əhalinin xüsusi həssas təbəqəsindən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi, dövlət institutlarının rolunun və vəzifələrinin ictimai rəy əsasında qiymətləndirilməsi.

Təhlillər bir sıra beynəlxalq standart və təcrübələrə, həmçinin beynəlxalq təşkilat və beyin mərkəzlərinin ən son tədqiqat nümunələrinə əsaslanır. Region, İƏİT-ın üzv ölkələr və digər aparıcı dövlətlərin pandemiya ilə mübarizə çərçivəsində reallaşdırdığı uğurlu antiböhran təcrübələri ümumiləşdirilir və Azərbaycan dövlətinin tətbiq etdiyi təcrübələrlə müqayisə edilir.

Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı tədbirlər, xüsusi karantin rejiminin tətbiqinin və stimullarının təkmilləşdirilməsi və mahiyyət etibarilə daha yaxşı siyasət nəticələrinə nail olunmasında Azərbaycan hökumətinə (Operativ Qərargaha) informasiya ilə təmin olunma sahəsində dəstək göstərilməsi analitik hesabatın əsas məqsədlərindən biri kimi müəyyənləşib.

Bu məqsədlə tədqiqat çərçivəsində aşağıdakı işlər görülüb:

● Azərbaycan hökumətinin həyata keçirdiyi antiböhran strategiyasının idarəetmə çərçivəsinin və təcrübələrinin təhlili, optimal standartlardan əsas kənarlaşmaların müəyyən edilməsi;

● Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən dövlət tədbirlərinin səmərəliliyinin artırılması məqsədilə bir sıra siyasət tövsiyələrinin hazırlanması.

Bu sənəd Sosial Tədqiqatlar Mərkəzi ilə Nazirlər Kabineti yanında Operativ Qərargah arasında informasiya mübadiləsi ilə bağlı strateji müzakirələrin həyata keçirilməsi üçün əsas təşkil edə bilər.

# TƏDQİQATIN METODOLOJİ PRİNSİPLƏRİ

**1.1.Tədqiqat əraziləri**

Sorğu Bakı şəhəri, Abşeron, Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Qarabağ, Aran və Dağlıq Şirvan iqtisadi-coğrafi rayonlarını əhatə etməklə 5 (beş) mərhələ üzrə ümumilikdə 4144 respondentin rəyi öyrənilib. Naxçıvan Muxtar Respublikası və işğal altında olan regionlar sorğuda əhatə olunmayıb.

**1.2. Respondentlərin seçimi**

Tədqiqat çərçivəsində respondentlərin seçiminin ilk mərhələsində hər iqtisadi rayon üzrə sorğuda iştirak edəcək respondent sayı müəyyənləşdirilib. Sorğu stasionar telefon nömrələri vasitəsilə həyata keçirilib. Hər iqtisadi rayon üzrə sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda stasionar telefon nomrəsi müvafiq bazalardan təsadüfi qaydada seçilib. Bundan sonra nəzərdə tutulmuş respondent sayının sorğuda iştirakını təmin edənə kimi seçilmiş nömrələrə zəng olunub.

Sorğuda əhatə edilmiş respondent sayına əsasən, nəticələrin xəta əmsalı birinci və ikinci sorğu mərhələləri üzrə 95% əminlik intervalında 2.8% təşkil edir. Üçüncü mərhələdə sorğu xüsusi respondent qrupu (karantin dövründə işini itirənlər) ilə keçirildiyindən nəticələrin xəta əmsalı digərləri ilə müqayisədə yüksək olmaqla 95% əminlik intervalında 8.8% təşkil edir. Dördüncü mərhələ üzrə respondent sayına əsasən bu göstərici 95% əminlik intervalında 5%, nəhayət, beşinci sorğu mərhələsi üzrə xəta əmsalı 95% əminlik intervalında 2.8% təşkil edir.

**1.3. Tədqiqat metodu**

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyasından, analitik təhlildə isə müşahidə və müqayisəli təhlil metodlarından istifadə edilib.

**1.4. Sorğu anketi**

Sorğu sualları tədqiqat mərhələlərinə uyğun olaraq birinci mərhələdə 7 sosial-demoqrafik və 54 əsas sual, ikinci mərhələdə 7 sosial-demoqrafik və 6 əsas sual, üçüncü mərhələdə 6 sosial-demoqrafik və 30 əsas sual, dördüncü mərhələdə 7 sosial-demoqrafik və 16 əsas sual, nəhayət, sonuncu, beşinci mərhələdə 7 sosial-demoqrafik və 32 əsas sualdan ibarət olub.

Genişmiqyaslı tədqiqatdan öncə 22-23 aprel, 06-07 may, 20-12 may və 07-08 iyun 2020-ci il tarixlərində 25 respondentdən az olmamaq şərtilə telefon vasitəsilə sınaq sorğuları keçirilib. Bu zaman bütün yaş kateqoriyalarından kişi və qadın respondenlər iştirak edib.

Sınaq tədqiqatının nəticələrinə uyğun olaraq anketdə lazımi düzəlişlər edilib.

**1.5. Sahə işi**

Sahə işi tədqiqatın müxtəlif mərhələlərinə uyğun olaraq 24-30 aprel, 08-11 may, 22-23 may, 09-10 iyun və nəhayət, 03-07 iyul 2020-ci il tarixlərində aparılıb. Respondentlərlə saat 10:00-21:00 arasında əlaqə saxlanılıb. Sorğunun orta keçirilmə müddəti birinci mərhələ üzrə 10 dəqiqə 43 saniyə (standart sapma 4 dəqiqə 35 saniyə), ikinci mərhələ üzrə 3 dəqiqə 12 saniyə (standart sapma 2 dəqiqə 10 saniyə), üçüncü mərhələ üzrə 8 dəqiqə 11 saniyə (standart sapma 2 dəqiqə 44 saniyə), dördüncü mərhələ üzrə 5 dəqiqə 18 saniyə (standart sapma 3 dəqiqə 40 saniyə) və nəhayət beşinci mərhələ üzrə 8 dəqiqə 52 saniyə (standart sapma 4 dəqiqə 9 saniyə) təşkil edib.

**1.6. Sorğunun aparılması üsulu**

Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığının qorunmasını nəzərə alaraq, sorğunun aparılmasında telefon müsahibə üsulundan istifadə edilib. Sorğuların keçirilməsində müasir texnologiyalar tətbiq olunub. Belə ki, müasir sorğu proqramı SurveyToGo proqramından istifadə edilib.

**1.7. Etik prinsiplər**

Sorğunun keçirildiyi müddətdə tədqiqatın etik qaydalarına əməl olunub. Respondentlərin hər birinə sorğunu keçirən qurum, sorğunun məqsədi və qaydaları haqqında tam məlumat verilib. Həmçinin, respondentə sorğuda iştirakın könüllü olması, istənilən anda sorğunu dayandırmaq və hər hansı suala istəmədiyi halda fikir bildirməmək, zəng olunan vaxt uyğun deyilsə daha sonra danışmaq hüququnun olması barədə ətraflı məlumat verilib.

Müsahibələrin məxfiliyi ciddi şəkildə qorunub. Bütün müsahibələrdə anonimlik təmin edilib. Respondentlər əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığını təmin edib.

**1.8. Təlimat**

Mərkəzin əməkdaşları tərəfindən intervüyerlər üçün təlimat qaydaları hazırlanıb. İntervüyerlər işə başlamamışdan əvvəl onlar üçün təlimlər təşkil edilib .

Təlim zamanı intervüyerlər anket və təlimatlarla tanış olaraq, sorğunun keçirilməsi üçün tam hazır olublar. Sorğu anketindəki hər bir sual üzrə geniş izahatlar verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

**1.9. Məlumatların işlənməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə bazaya toplanan məlumatlar xüsusi proqram SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib.

Dəyişənlər arasında statistik əhəmiyyətli əlaqənin tapılması və müxtəlif sosial-demoqrafik qruplar arasında dəyişənlərin müqayisəsi, digər asılılıqların öyrənilməsi üçün $X^2$, T testi, ANOVA testi, Pirson korrelyasiyası və Eksplorator faktor analizindən istifadə edilib.

**Qeyd:** Yuvarlaqlaşdırma səbəbindən diaqramlarda faizlərin cəmi 100%-dən cüzi fərqlənə bilər.

1

# Beynəlxalq təcrübənin öyrənilməsi

**1.1.** Pandemiya tarixinə retrospektiv baxış
**1.2.** COVID-19: epidemiyadan pandemiyaya
**1.3.** Pandemiyaya hazırlıq üzrə qlobal reytinq
**1.4.** Pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq təcrübə

## BEYNƏLXALQ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

### 1.1. Pandemiya tarixinə retrospektiv baxış

Pandemiya (yunanca *pan* (bütün) + *demos* (insanlar) mənasına gəlir) bəlli bir zaman kəsiyində dünya üzrə birdən çox ölkə, yaxud arealda yayılan və genişmiqyaslı təsir gücünə malik olan epidemik xəstəliklərə verilən ümumi ad olmaqla tibbi kateqoriyadır. Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) görə, hər hansı epidemiyanın pandemiyaya çevrilməsi üçün prosesin üç mühüm kriteriyaya cavab verməsi vacibdir: yeni bir virusun yaranması və ya mutasiyaya məruz qalması, insanları asanlıqla yoluxdurması və bütün ölkələr üçün təhdid yaratması. Cari vəziyyətdə koronavirus (COVID-19) epidemiyası yayılma sürəti və insan sağlamlığına mənfi təsiri nəzərə alınmaqla, həmçinin geniş miqyasda qabaqlayıcı və ya qorunma tədbirlərinin artırılmasını təmin etmək məqsədilə pandemiya elan edilib.

Son yüz il ərzində səhiyyə sahəsində əldə olunan əhəmiyyətli irəliləyişlərə baxmayaraq, infeksion xəstəliklər hələ də cəmiyyət üçün ciddi təhlükə olaraq qalmaqdadır. Bəzi infeksion xəstəliklər konkret coğrafi region üçün endemik olsa da digərləri yayılan, epidemiya və pandemiyaya səbəb ola bilən növdür. Hələ 2019-cu ildə ÜST və Dünya Bankının  həmin il üzrə birgə hesabatında tez yayılan, ölümcül təhlükəli pandemiyaya səbəb olan respirator patogenin meydana çıxması real təhlükə kimi proqnozlaşdırılıb. Bu patogenin 50-80 milyon insanın həyatını məhv edə və dünya iqtisadiyyatına 5%-ə yaxın ziyan vura biləcəyi bildirilib.

COVID-19 pandemiyası cəmiyyətə və iqtisadiyyata misli görünməmiş təsiri, artan qlobal resessiya və kütləvi işsizlik nəticələri ilə dünya birliyini çıxılmaz vəziyyətə salıb. ÜST və Dünya Bankının  sözügedən hesabatında qeyd olunur ki, son bir neçə onillikdə infeksion xəstəliklərin baş qaldırması artır, səhiyyə sahəsində qlobal fövqəladə vəziyyət isə getdikcə daha da ciddiləşir. Təkcə 2011-2018-ci illər




- Yeni patogenlər
- Yenidən canlanan patogenlər
- Süni yaradılan patogenlər

[1] *A World at Risk. Annual report on global preparedness for health emergencies. Global Preparedness Monitoring Board. Geneva: World Health Organization 2019. https://apps.who.int/gpmb/assets/annual_report/ GPMB_annualreport_2019.pdf*

**Qeyd:** Yoluxma göstəriciləri Con Hopkins Universitetinin hesablamalarına əsaslanır.

***Mənbə:*** *²CDC, WHO, BBC, Encyclopedia Britannica https://www.visualcapitalist.com/history-of-pandemics-deadliest/*

ərzində ÜST 172 ölkədə 1483 epidemiya hadisəsini qeydə alıb.

Tibbi kontekstdən problemə yanaşdıqda qeyd etməliyik ki, yoluxmaya qarşı qorunma və nəzarət tədbirləri üç səviyyədə həyata keçirilə bilər: mənbəyə yönəlik tədbirlər, yoluxma kanallarına yönəlik tədbirlər və yoluxmamış insanlara yönəlik tədbirlər.

- Mənbəyə yönəlik tədbirlər: mənbənin aşkarlanması, xəstəliyin simptomlarının müəyyənləşdirilməsi, xəstələrin müalicəsi, izolyasiya və xəstəlik daşıyıcılarının təsbit olunmasıdır.
- Yoluxma kanallarına yönəlik tədbirlər: ətraf mühit şərtlərinin optimallaşdırılması (dezinfeksiya), qida məhsullarına nəzarət, fərdi gigiyenaya nəzarət və əhalinin hərəkətinin məhdudlaşdırılmasıdır.
- Yoluxmamış insanlara yönəlik tədbirlər: peyvəndin vurulması, karantin qaydalarına əməl etmək və sağlam qidalanmaqdır.



Mahiyyət etibarilə hər hansı bir epidemiyanın pandemiyaya çevrilməsinin qarşısının alınması epidemiyanın baş verdiyi coğrafiyada ən qısa zamanda və etibarlı şəkildə lokallaşdırılması ilə xarakterizə edilə bilər.

Cəmiyyətlərin inkişaf tarixinə nəzər saldıqda bu günə qədər müşahidə edilən, təsir coğrafiyası və dağıdıcı gücü baxımından ön plana çıxmış pandemiyalar kimi taun, vəba, çiçək xəstəliyi, ispan qripi və s.-ni göstərmək olar[2].

Ən yaxın tarixdə müşahidə edilən SARS 2003, İnfluenza A H1N5 (quş qripi), İnfluenza A H1N1 (donuz qripi), MERS 2012, İnfluenza A H7N9 2013, Ebola 2014, Zika 2015 və bu kimi pandemiyaları epidemiya riskinin aktuallığının bariz nümunələri kimi qiymətləndirilə bilər.

Faktiki olaraq koronavirus (COVID-19) pandemiyası “İspan qripi”ndən sonra dünyanın üzləşdiyi ən böyük yayılma arealına malik epidemiya kimi qiymətləndirilir. Hal-hazırda bütövlükdə dünyanı iflic vəziyyət salmış (istər siyasi, istərsə də sosial-iqtisadi kontekstdə) koronavirus ailəsinə mənsub olan COVID-19 virusu ilə mübarizə lokal və qlobal miqyasda bir nömrəli problem kimi prioritetləşib. Tarixi perspektivdən baxdıqda ilk dəfə 1965-ci ildə Böyük Britaniyada Dr. Devid Tirrelin rəhbərlik etdiyi işçi qrupu koronavirus ailəsinə mənsub olan virusların insanlara yoluxma faktını təsbit edib.

Harvard Tibb fakültəsinin üzvü Dr. Kennet Makintoş öz tədqiqat qrupu ilə birlikdə 1968-ci ildə “OC43” kodu ilə günümüzdə tənəffüs yolu infeksiyasına yol açan koronavirusu kəşf edib. Virusa elektron mikroskop altında baxıldıqda taca oxşadığı və günəşin xarici qatına bənzədiyi üçün bu virus ailəsi “Koronaviruslar” olaraq adlandırılıb.

Digər tərəfdən Dr. Makintoş akademik dünyanın SARS virusunun ortaya çıxmasına qədər koronavirusları araşdırmağa fokuslanmadığını da qeyd edib. Heç də təsadüfi deyildir ki, Çində təsbit edilən SARS-Koronavirus epidemiyası 29 ölkəyə yayıldıqdan sonra sözügedən virus ailəsi yenidən akademik aktuallıq qazanıb. Ancaq bütün bunlara baxmayaraq, koronavirus ailəsinə aid olan, həmçinin COVID-19 pandemiyasının mənbəyi kimi qiymətləndirilən 3 üzvün (SARS-CoV-1, MERS-CoV və SARS-CoV-2 virusları) yaranma və yayılma səbəbləri hələ də dəqiqləşdirilməyib.

2015-ci ilin dekabrında ÜST tərəfindən təcili diqqət tələb edən prioritet epidemioloji xəstəliklərin siyahısı dərc edilib. Bu siyahı o vaxtdan bəri iki dəfə, son olaraq isə 2018-ci ilin fevral ayında yenilənib[3].

**Yaxın tarixdə müşahidə edilən epidemiyalar**

| Ölkələr | Virus | Yayılma | Yoluxma | Ölüm |
|---|---|---|---|---|
| Çin | SARS-CoV (2002-2003) | 33 ölkə | 8.422 | 916 |
| Meksika | H1N1 (2009 grip epidemiyası) | 191 ölkə | 1.632.710 | 18.449 |
| İordaniya | MERS-COV | 27 ölkə | 2.229 | 791 |
| Qvineya | Qərbi Afrika Ebola epidemiyası | 10 ölkə | 27.609 | 11.325 |

*[3] Prioritizing diseases for research and development in emergency contexts. https://www.who.int/activities/prioritizing-diseases-for-researchand-development-in-emergency-contexts*



## Tədqiqatlar üçün prioritet olan epidemioloji xəstəliklərin siyahısı

| Xəstəlik | Təsviri | Qabaqlayıcı tədbirlər |
|---|---|---|
| **Gənələr vasitəsilə ötürülən virusun törətdiyi krım-konqo hemorragik hərarəti** | Xəstəlik birdən başlayır, simptomları – baş və oynaq ağrısı, hərarət, qarın ağrısı, qusmadır. İnsandan insana ötürülməsi mümkündür. Ölüm faizi 40%-dir | Vaksin yoxdur. Ribavirin bir qədər təsir göstərir. |
| **Ebola** | Virus vəhşi heyvan və insandan orqanizmin mayeləri vasitəsilə ötürülür. Ölüm faizi 90%-dir. | Eksperimental vaksin icad olunmuşdur. |
| **Marburq virusu** | Bioloji mayelər vasitəsilə insandan insana ötürülən hemorragik hərarət. Ölüm faizi 88%-dir. | Vaksini yoxdur. |
| **Lass hərarəti** | Gəmiricilərin bioloji mayeləri vasitəsilə, insandan isə hava-damcı yolu ilə ötürülən hemorragik hərarət. Ölüm faizi 15%-dir. | Vaksini yoxdur.Vaksin axtarışı epidemiyalara hazırlığın təmin olunması üzrə innovasiyalar koalisiyası tərəfindən həyata keçirilir |
| **Yaxın Şərq respirator sindrom koronavirusu (MERS-CoV)** | Dəvə və insanlardan ötürülən koronavirusun törətdiyi respirator xəstəlik. Ölüm faizi 35%-dir | Vaksini yoxdur. Vaksin axtarışı epidemiyalara hazırlığın təmin olunması üzrə innovasiyalar koalisiyası tərəfindən həyata keçirilir. |
| **Ağır, kəskin respirator sindrom** | İnsandan insana, həmçinin ehtimal ki, heyvandan (yarasalardan) ötürülən virusun törətdiyi xəstəlik. Ölüm faizi 10%-dir. | Vaksini yoxdur. |
| **Nipah virusu** | Yırtıcı quşlar, donuz və insandan insana ötürülən xəstəlikdir. Beyin iltihabı (ensefalit) və respirator xəstəlik xasdır. | Vaksin axtarışı epidemiyalara hazırlığın təmin olunması üzrə innovasiyalar koalisiyası tərəfindən həyata keçirilir. |
| **Rift vadisi hərarəti** | Xəstəlik xəstə heyvan toxumaları və qanı ilə təmas, habelə ağcaqanad sancması vasitəsilə ötürülür. İnsandan insana ötürülməsi qeydə alınmayıb. Ölüm faizi 50%-dir. | Eksperimental vaksin mövcuddur. |
| **Zika virusu** | Ağcaqanad sancması nəticəsində ötürülür. Yeni doğulmuşlarda hidrosefaliya, həmçinin Hiyen-Barre sindromunu yaradır. İnsandan insana ötürülməsi mümkündür. | Vaksini yoxdur. |

## Pandemiyaların iqtisadi və demoqrafik nəticələri

Qeyd olunduğu kimi, epidemiya və pandemiyalar iqtisadiyyata dağıdıcı təsir göstərir. Ötən illərin epidemiyalarının smeta hesabları aşağıdakı kimi olub:

- Atipik pnevmoniya nəticəsində əmək məhsuldarlığının azalması 40 milyard ABŞ dollarından çox ziyana gətirib çıxardı[4];
- 2014-2016-cı illərdə Qərbi Afrikada Ebolanın yayılması iqtisadi və sosial sferada 53 milyard ABŞ dolları məbləğində ziyana səbəb oldu[5];
- 2009-cu ildə H1N1 “donuz qripi” pandemiyası 45-55 milyard ABŞ dolları ziyana səbəb oldu;
- 2003-2005-ci illərdə H5N1 “quş qripi” virusu quşlar arasında tarixdə qeydə alınmış ən ciddi qripə səbəb oldu. Yalnız Cənub-Şərqi Asiya ölkələrində onun vurduğu ziyan 40 milyard ABŞ dolları oldu.

Dünya Bankının hesablamalarına görə, miqyası 1918-1919-cu illərdəki “İspan qripi” ilə müqayisə olunan hazırkı koronavirus (COVID-19) pandemiyası müasir iqtisadiyyata 3 trilyon ABŞ dolları, ya da ÜDM-in 4,9%-i dəyərində ziyan vuracaq, hətta orta səviyyəli virulentliyə malik qripin belə vura biləcəyi ziyan  ÜDM-in 2,2% həc-

*[4] Lee J.-W., McKibbin W.J. Estimating the global economic costs of SARS. In: Knobler S, Mahmoud A, Lemon S, Mack A, Sivitz L, Oberholtzer K, editors. Learning from SARS: preparing for the next disease outbreak: workshop summary. Washington (DC) https://www.ncbi.nlm.nih.gov/books/NBK92473/*

*[5] Fan V.Y., Jamison D.T., Summers L.H. Pandemic risk: how large are the expected losses? Bull. World Health Organ. 2018, 96(2), pp. 129–134.*

mində olacaq. Proqnozlara görə, qrip pandemiyası ilə illik mübarizə xərcləri Cənubi Asiyanın ÜDM-nin 2%-i (53 mlrd. ABŞ dolları), Afrika və Saxaradan cənuba doğru olan ölkələrin isə ÜDM-nin 1,7%-i (28 mlrd. ABŞ dolları) miqdarında azalmaya səbəb olacaqdır. Bu da bütövlükdə bu ölkələrin illik iqtisadi artımına bərabər göstəricilərdir[6,7].

Bu itkilərin müşayiət olunan illik milli gəlirin tərkibindəki təxmini payı ölkə gəlirlərinin səviyyəsindən asılı olaraq dəyişir. Yüksək gəlirli ölkələrlə müqayisədə (0,3%) orta gəlirli ölkələr daha ciddi (1.6%) təsirə məruz qalırlar. 2015-ci il qrip pandemiyası nəticəsində ölüm və iqtisadi itkilər aşağıdakı cədvəldə verilib.

**Qrip pandemiyası nəticəsində ölüm və iqtisadi itkilər, 2015-ci il**

| Dəyişən* | Ölkələrin gəliri | | | | Dünya |
|---|---|---|---|---|---|
| | Aşağı | Orta səviyyədən aşağı | Orta səviyyədən yüksək | Yüksək | |
| Gözlənilən ölüm sayı (ildə min ölüm) | 120 | 390 | 180 | 28 | 720 |
| Gözlənilən illik iqtisadi itkilər (illik ÜMG %-i)** | 1,1 | 1,6 | 1,0 | 0,3 | 0,6 |

*Göstəricilər 2015-ci ildə orta və ağır pandemiya risklərinin modelləşdirilməsinə əsaslanır.

**Həm milli gəlir, həm də yüksək ölüm göstəriciləri ilə əlaqədar daxili itkilər.

Fan V.Y., Jamison D.T., Summers L.H. Pandemic risk: how large are the expected losses? Bull. World Health Organ. 2018, 96(2), pp. 129–134.

Hazırda xəstəliklərin səhiyyə sektorundan kənara çıxan sosial nəticələrinin də miqyası vurğulanmaqdadır[8]. Bu məqsədlə ÜST tərəfindən xəstəliklərin iqtisadi nəticələrinə dair bələdçi hazırlanıb və bioloji təhlükələrin iqtisadi təsirinin təhlil strukturu işlənib. Buraya xəstəlik dövründə insan davranışı, davamlılıq sürəti, irrasional davranışa səbəb ola biləcək “qorxu faktoru”nun dinamikası daxil edilib[9].

Dünya Bankı tərəfindən insan, heyvan və ətraf mühitin qarşılıqlı təsirindən irəli gələn və “vahid səhiyyə” yanaşması tələb edən xəstəliklərin ciddi ziyanları barədə məlumat verilib. “Vahid səhiyyə” yanaşması veterinar və səhiyyə potensialının möhkəmləndirilməsi vasitəsilə xəstəliklərin profilaktikasını və yüksək qlobal investisiyaları nəzərdə tutur[10]. Beləliklə, xəstəlik risklərinin azaldılması üzrə çoxsektorlu yanaşmaların tətbiqi müxtəlif sektorlarda mümkün iqtisadi nəticələr (müsbət və ya mənfi) haqqında məlumat əldə etməyə imkan verir[11].

Qeyd etmək lazımdır ki, epidemiya və pandemiyalar birmənalı olaraq iqtisadiyyata mənfi təsir göstərir, onun bəzi sektorları isə daha çox zərər çəkir. Epidemiya zamanı səhiyyə (istər dövlət, istərsə də özəl) iqtisadiyyatın ən çətin vəziyyətdə olan sektorlarından biri olur. Xəstəxanalara yerləşdirilən pasiyent sayının kəskin artması inzibati və əməliyyat xərclərinin yüksəlməsinə gətirib çıxır. Məsələn, İngiltərədə H1N1 “donuz qripi”nin iki dalğası (2009-cu ilin iyunundan 2011-ci ilin martına qədər) səhiyyə sisteminə 45,3 milyon funt sterlinq həcmində zərər vurub[12].

Vurğulamaq lazımdır ki, “donuz qripi” kimi uzunmüddətli müalicə tələb etməyən xəstəliklərlə yanaşı, uzun müddət müalicə tələb edən, bəzi hallarda isə pasiyentin qalan ömrü boyu müalicəsi davam edən (məsələn, QİÇS) epidemik xəstəliklər vardır. 2010-cu ildə ABŞ-ın xəstəliklərə nəzarət və profilaktika üzrə mərkəzləri bir QİÇS pasiyentinin illik müalicə xərclərinin 23000 ABŞ dolları, ömürlük müalicə xərclərinin isə təqribən 380.000 ABŞ dolları olduğunu hesablayıb[13].

Planetimizdə 1,67 milyon naməlum virus mövcuddur ki, onlardan 631 mindən 827 minə qədəri insan üçün potensial təhlükə mənbəyi hesab olunur[14]. ÜST tərəfindən 2018-ci ildə ciddi qlobal təhlükəyə, pandemiyaya səbəb olmağa qadir naməlum patogen, sirli “X Xəstə-

*[6] International Working Group on Financing Preparedness. From panic and neglect to investing in health security: financing pandemic preparedness at a national level. Washington (DC): World Bank Group, 2017 http://documents.worldbank.org/curated/en/979591495652724770*

*[7] World Bank Group. “Pandemic Preparedness Financing-STATUS UPDATE, June 2019”. Commissioned paper by the GPMB*

*[8] Sanders G.D., Neumann P.J., Basu A., Brock D.W., Feeny D., Krahn M. Recommendations for conduct, methodological practices, and reporting of cost-effectiveness analyses second panel on cost-effectiveness in health and medicine, JAMA. 316, 2016, pp. 1093–1103.*

*[9] Rose A.Z., et al. A framework for analyzing and estimating the total economic impacts of a terrorist attack and national disaster, J. Homel. Secur. Emerg. Manag. 2009, №. 6 (1) https://www.researchgate.net/publication/250147134_A_Framework_for_Analyzing_the_Total_Economic_Impacts_of_Terrorist_Attacks_and_Natural_Disasters*

*[10] World Bank, People, Pathogens and our Planet: The Economics of One Health. Washington DC, 2012 https://openknowledge.worldbank.org/handle/10986/11892*

*[11] Machalaba C., Smith K.M., Awada L., Berry K., Berthe F., Bouley T.A., et al. One health, economics to confront disease threats, Trans. R. Soc. Trop. Med. Hyg. 2017, №.111 (6). pp. 235–237 [Electronic resource]. https://www.ncbi.nlm.nih.gov/pubmed/29044367*

*[12] Lau K., Hauck K., Miraldo M. Excess influenza hospital admissions and costs due to the 2009 H1N1 pandemic in England. Health Econ. 2019, № 28(2) https://www.ncbi.nlm.nih.gov/pubmed/30338588*

*[13] HIV Cost-effectiveness https://www.cdc.gov/hiv/*

liyi” prioritet tədqiqatlar siyahısına əlavə edilib.

Həmçinin, 2000-ci illərdən başlayaraq mümkün pandemiyalara həsr olunan illik məruzələr dərc edilib. Həmin sənədlərdə müasir səhiyyənin inkişafına, epidemiya əleyhinə tədbirlərin təşkilinə baxmayaraq, dünya ölkələrinin çoxunun qlobal epidemiyalara hazır olmadığı qeyd olunub. Əhalinin artan mobilliyi, ticarət və turizmin inkişafı epidemiyaların yayılmasına zəmin yaradan amillər kimi göstərilib.

Hazırda misli görünməmiş karantin tədbirləri mövcud böhranın qeyri-standart olduğunu, hətta ən uğurlu şirkətlərin karantin tədbirlərinə görə istehsalatı dayandırdığını göstərir. Təminat zəncirində tələb-təklif balansının pozulması iqtisadiyyatın bütün sahələrinin, xüsusilə turizm, elektronika və pərakəndə satış sektorlarının risk altında olduğunu deməyə əsas verir.

Buna baxmayaraq, qeyd etməliyik ki, pandemiya vəziyyətində yaşayan indiki bəşəriyyət bir çox məsələlərdə əvvəlki dövrlərlə müqayisədə daha çox resurslara malik və hazırlıqlıdır. Ötən əsrlərdə, pandemiyaların tüğyan etdiyi vaxtlarda insanlar xəstəliyin səbəbi haqqında olduqca az məlumata malik idilər. Hətta XX əsrin ən ciddi pandemiyası olaraq “İspan qripi”nin nümunəsi göstərir ki, viruslar haqqında ümumilikdə biliklərin mövcud olmasına baxmayaraq, səhiyyə işçiləri belə xəstəliyin virus mənşəli olduğunu güman etmirdilər. O cümlədən, vəba xəstəliyinin daşıyıcısı olan bakteriyaların əsasən istifadə olunan su vasitəsilə yayılması bilik olaraq, yalnız onilliklər boyu bütün dünyada dəfələrlə təkrarlanan vəba epidemiyalarından sonra əldə edilib. Bu mənada müasir dövrdə xəstəlik daşıyıcısının aşkar olunmasının pandemiyanın elanından əvvəl baş verməsi bəşəriyyətə bu çağırışın öhdəsindən gəlməyə böyük şanslar verir.

İndiki şəraitdə tibb sahəsində ən son texnologiyaları tətbiq edən peşəkar laboratoriyaların imkanları, onların bir-birilə əməkdaşlıqda daha effektiv işləməsi müasir pandemiyanın tarixdə heç zaman olmayan tezliklə qarşısının alınmasına səbəb olacağını güman etməyə əsas verir. Lakin istənilən halda bəşəriyyətin əvvəlki pandemiya təcrübələri öz məhdudiyyət və nöqsanları ilə birlikdə, onların indiki şəraitdə qarşısının alınmasında önəm daşıyır, bu sahədə milli səfərbərlik və beynəlxalq əməkdaşlığın balanslaşdırılmasının vacibliyini göstərir.

*[14] Robert Kessler Disease X: The Next Pandemic. https://www.ecohealthalliance.org/2018/03/disease-x*


200 mln.
175 mln.
150 mln.
125 mln.
100 mln.
75 mln.
50 mln.
25 mln.
0
200 mln. (1347-1351)
56 mln. (1520)
40-52 mln. (1918-1919)
30-50 mln. (541-542)
25-35 mln. (1981-davam edir)
12 mln. (1855)
5 mln. (165-180)
3 mln. (1600)
1.1 mln. (1957-1958)
1 mln. (1889-1890)
1 mln. (1968-1970)
1 mln. (1817-1923)
1 mln. (735-737)
600 min (1700)
558 min (2019-davam edir)
200 min (2009-2010)
100-150 min (1800)
113 min (2004-2016)
850 (2012-davam edir)
770 (2002-2003)
Qara ölüm (Qara taun)
Çiçək xəstəliyi
İspan qripi
Yustinyan taunu
HIV/QİÇS
III taun
Antonin taunu
XVII əsr Böyük taunları
Asiya qripi
Rus qripi
Honk-Konq qripi
VI Kolora pandemiyası
Yapon çiçək xəstəliyi epidemiyası
XVIII əsr Böyük taunları
COVID-19
Donuz qripi
Sarı qızdırma xəstəliyi
Ebola
MERS
SARS
Qara taun siçovullarda əmələ gəlmiş və yoluxmuş birələr vasitəsilə insanlara yayılmışdır. Bu yoluxma Avropa əhalisinin 30-50%-nin ölümünə səbəb oldu. Qitə əhalisinin bərpası üçün 200 ildən çox vaxt tələb olundu.
Çiçək xəstəliyi yerli amerikalıların təxminən 90%-nin ölümünə səbəb oldu. 1800-cü illərdə Avropada ildə 400 min insanın bu xəstəlikdən həyatını itirdiyi ehtimal edilir. Məhz bu xəstəliyin önlənilməsi üçün ilk vaksin yaradıldı.
Yustinyan taunu qurbanlarının sayı müzakirə mövzusu olaraq qalır. Çünki yeni faktlar ortalığa çıxır. Hətta bu vəba Roma imperiyasının çöküşünü sürətləndirən səbəblərdən biri kimi qiymətləndirilir.
Kolora pandemiyası seriyalı olaraq bütün dünyanı bürümüş və 1800-cü illərdə milyonlarla insanların ölümünə səbəb olub.
COVID-19:
Azərbaycanda vəziyyət:
Virusa yoluxan: 30.858
Aktiv koronavirus xəstəsi: 6.555
Sağalan: 23.873
Ölüm halı: 430
Dünyada vəziyyət:
Virusa yoluxan: 16.879.756
Sağalan: 10.438.220
Ölüm halı: 662.387




## 1.2. COVID-19: epidemiyadan pandemiyaya

Koronavirus xəstəliyi ilk dəfə ötən il, dekabr ayının 12-də Çinin Hubey əyalətində qeydə alındı. Həmin ayın sonunda Çin Milli Səhiyyə Komissiyası tərəfindən Vuhan dəniz məhsulları bazarı ilə təması olan 27 nəfərdə xəstəliyin müəyyən olunduğu bildirildi. İlin sonunda ÜST Çinin Vuhan şəhərində səbəbi bilinməyən pnevmoniya faktlarının qeydə alındığını elan etdi, 5 yanvar tarixində əvvəllər rastlanılmamış bir koronavirus növü aşkar olundu.

Müalicə və peyvəndlərə cavab verməyən pnevmoniya halı kimi görülən xəstəlik sürətlə yayılaraq epidemiya halına yol açdı. Başlanğıcda “2019-nCoV” kimi adlandırılan xəstəlik Çində yarandıqdan üç aya qədər qısa bir müddətdən sonra bütün dünyanı təsiri altına aldı. Çinli elm adamları tərəfindən yanvar ayının 9-da müşahidə olunan mövcud xəstəlik “yeni tip koronavirus” olaraq adlandırıldı[15].

Yanvar ayının 11-də epidemiya halına yol açan virusdan ilk ölüm faktı qeydə alındı. İki gün sonra Çindən kənarda (Tailand) ilk yoluxma halı təsbit edildi. Sonrakı günlərdə Yaponiyada ilk yoluxma halı qeydə alınarkən, Çinin Vuhan şəhərində yoluxma faktı 59-a, ölüm faktı 3-ə yüksəldi. Yanvar ayının 19-da Vuhan şəhərində yoluxanların sayı 136-a yüksələrkən, paytaxt Pekində ilk yoluxma faktı aşkarlandı[16].

ÜST tərəfindən virusun insandan insana keçməsi/yoluxması elan edildiyi yanvar ayının 20-də Çində yoluxmaların sayı 300 nəfəri ötdü, Cənubi Koreyada və bir gün sonra ABŞ-da ilk yoluxma faktları qeydə alındı. Çin daxilində sürətli yayılmanın qarşısının alınması məqsədilə Vuhan şəhəri karantinə alındı, şəhərə giriş və çıxışlar qadağan olundu. Virusun həm ölkə daxilində, həm də ölkə xaricinə sürətlə yayılmasına baxmayaraq, ÜST-ün direktoru Tedros Qebreisus tərəfindən “2019-nCoV” epidemiyasının qlobal təhlükə yaradan bir xəstəlik olmadığı bildirildi. Halbuki həmin günlərdə Çində yoluxma sayı 830-a, ölüm sayı 26-ya çatdı, Yaponiya, ABŞ, Avstraliya növbəti yoluxma faktlarını açıqladı. Həmçinin yanvar ayının 25-də Fransa, Malayziya və Kanadada ilk yoluxma faktları qeydə alındı, sonrakı bir gün içində Çin 769 yeni yoluxma rekordunu açıqladı. Beləliklə, yanvar ayının 26-da dünya miqyasında 2801 yoluxma statistikası iki gün sonra 6000 nəfəri ötdü. Yanvar ayının sonlarına doğ-

[15] *WHO, Coronavirus disease 2019 (COVID-19) Situation Report - 52, 12 march 2020*

[16] *Recep Aydın, Tarihten günümüze epidemiler, pandemiler ve covid-19, Göller Bölgesi Aylık Ekonomi ve Kültür Dergisi Ayrıntı, Cilt 8, Sayı 85, Nisan 2020/35*



ru virusun Finlandiya, BƏƏ, Filippin, Hindistan, Braziliya kimi yeni ölkələrə yayılması, Antarktikadan başqa bütün qitələrdə görünməsi ilə ÜST tərəfindən “səhiyyədə qlobal fövqəladə hal” elan olundu. Qlobal təhlükə qarşısında qalan ölkələr tərəfindən sərhədlər bağlandı, xaricdəki, xüsusən də Çindəki vətəndaşların təxliyəsinə başlandı. Fevral ayının əvvəllərində Rusiya, İsveç, İngiltərə, İspaniya virusun qeydə alındığı ölkələr sırasına daxil oldu və dünyada virusa yoluxaraq ölənlərin sayı 2002-2003-cü illərdə “SARS” virusundan ölənlərin sayını (773) ötərək 800 nəfərə çatdı. Fevral ayının 11-də yeni növ koronavirus infeksiyasının adı “COVID-19” olaraq dəyişdirildi. Avropada ilk ölüm faktının qeydə alındığı 15 fevral tarixindən etibarən artıq 13 ölkədə infeksiyanın daxili yoluxma halları ilə artdığı təsbit edildi.

ÜST fevral ayının 21-də 18 yoluxma və 4 ölüm faktının mövcud olduğu İranda virusun sürətlə yayılacağı xəbərdarlığını etdi. Həmin gün İsraildə ilk yoluxma, İtaliyada ilk ölüm faktı qeydə alındı. Eyni zamanda İtaliya Asiya qitəsindən kənarda virusun ən sürətlə yayıldığı ölkə oldu. Fevral ayının sonlarında ÜST qlobal risk səviyyəsini “yüksək” dərəcədən “çox yüksək” dərəcəyə qaldırdı. Həmin günlərdə koronavirusa yoluxma halının Çin xaricində Azərbaycanın da daxil olduğu 54 ölkədə görüldüyü bildirildi.

Mart ayının 7-də dünya üzrə yoluxma sayının 100 min nəfəri ötməsi ilə ÜST tərəfindən 11 mart tarixində koronavirus "qlobal epidemiya" (pandemiya) elan olundu. Həmçinin 13 mart tarixində ÜST Avropanın koronavirus epidemiyasının episentri halına gəldiyini bildirdi.

Ümumiyyətlə, məlumat üçün qeyd edək ki, yeni və fərqli virus növü ilə başlayan və insandan insana asanlıqla keçə bilən epidemiya halı qlobal bir təhlükə kimi ÜST-ün gündəliyinə daxil edilir, bu epidemiyanın pandemiya olub-olmadığı ÜST qərar verir. ÜST vəziyyətin pandemiya olub-olmamasını üç əsas kriteriya üzrə qərarlaşdırır: daha əvvəl müşahidə edilməmiş bir epidemiya halının yaranması, infeksiyanın insandan insana yoluxması və təhlükəli bir xəstəliyə yol açması, infeksiyanın sürətlə yayılması.









Bu mənada yeni növ koronavirus infeksiyası qeyd olunan kriteriyalara cavab verir. Belə ki, tədqiqatlar hava-damcı və təmas yolu ilə yayılan virusun normal şərtlərdə 10 saniyəyə ötürüldüyünü göstərdi. Bu müddət səthlərdən biri nəmli olduğu halda 5 saniyəyə, hər iki səth nəmli olduğu halda 3 saniyəyə qədər azalmaqdadır. Həmçinin virusun plastik və metal səthlər üzərində bir müddət qala bilməsi də yoluxdurma ehtimalını artıran səbəblər arasında qeyd olunurdu.

Mart ayının 15-də Afrikanın 26 ölkəsində virusun yayılması ilə birlikdə epidemiyanın başlanğıcından həmin günədək ilk dəfə Çin xaricindəki yoluxma sayı Çindəki yoluxma statistikasını ötdü. Mart ayının 17-dən etibarən bir çox ölkədə dövlət və özəl sektorun iş rejimi məsafədən həyata keçirilməyə başlandı. Pandemiyanın elan olunduğu 11 mart tarixindən etibarən təqribən bir həftə sonra yoluxma sayı artıq iki qatına (200 min nəfər) yüksəldi. 22 mart tarixində isə dünyada artıq 300 min yoluxma faktı mövcud idi.

Mart ayının 23-dən etibarən pandemiyanın episentri Avropadan ABŞ-a keçdi. Belə ki, ABŞ mart ayının 26-da yoluxma sayına görə Çini ötərək yoluxmaların sayının ən çox olduğu ölkə halına gəldi. Həmçinin, ABŞ ölüm statistikasına görə ilk sırada qərarlaşdı. Aprel ayının 2-də dünya üzrə yoluxmaların sayı artıq 1 milyon nəfəri keçdi. Bununla belə, virusun ortaya çıxdığı regionda, yəni Çinin Vuhan şəhərində tətbiq olunan karantin rejimi ləğv olundu və dünya miqyasındakı 42 mindən çox ölüm statistikasına baxmayaraq, sözügedən şəhərdə ölüm faktına rastlanmadı. Aprel ayının 10-da dünya üzrə virusdan ölüm statistikası 100 min nəfəri ötdü.

ABŞ və İtaliyada ölüm statistikasının artmasına baxmayaraq, İranda karantin rejiminin yumşaldılması istiqamətində addımlar atılmağa başlandı və İspaniyada günlük ölüm dinamikası azalan istiqamət üzrə davam etdi.

Aprel ayının 13-dən etibarən ÜST-ün direktoru tərəfindən karantin rejimindən mərhələli çıxış xəbərdarlığı edildi. İki gün sonra Avropa Birliyi Komissiyası tərəfindən karantin rejimindən mərhələli olaraq və müəyyən şərtlər daxilində çıxış üçün yol xəritəsi hazırlandı. Beləliklə, bir sıra ölkələrdə mart ayından başlayan karantin rejiminin yoluxma dinamikasındakı azalma ilə paralel yumşaldılmasına başlanıldı.

Avstriya, Almaniya, Danimarka və Niderland kimi bir sıra Avropa ölkəsində müxtəlif iş və xidmət sektorlarının fəaliyyəti bərpa olunmağa başladı. İtaliya hökuməti aprel ayının sonunda karantin rejimindən mərhələli çıxış planını açıqlayacağını, Fransa və Almaniya hökuməti kütləvi ibadət yerlərinin fəaliyyətinin təmin olunacağını bildirdi. İspaniya hökuməti epidemiyanın ən şiddətli mərhələsinin artıq geridə qaldığını, Yeni Zelandiya isə COVID-19-a qarşı döyüşü qazandıqlarını bildirdi. Çin, Avstraliya, Yunanıstan, Cənubi Koreya və karantin rejiminin tətbiq olunduğu digər bir sıra ölkələrdə müxtəlif sektorların fəaliyyətinin mərhələli olaraq bərpasına başlanıldı.

Yumşaldılma tədbirlərinə baxmayaraq, may ayının 8-də ÜST tərəfindən təqribən 44 milyon insanın infeksiyaya yoluxacağı proqnozu verildi. Aparılan preventiv tədbirlər müəyyən regionlarda müsbət nəticə versə də, may ayının 12-də 4 milyondan artıq yoluxma, 280 mindən artıq ölüm dinamikası artan tendensiya üzrə davam edərək, bir ay sonra, yəni iyunun 12-də 7.2 milyona, ölüm sayı isə 413 minə yüksəldi. Pandemiyanın davam etdiyi hazırkı dövrdə isə bütövlükdə 13 milyondan artıq yoluxma, 600 minə çatan ölüm faktı qeydə alınıb.

## 1.3. Pandemiyaya hazırlıq üzrə qlobal reytinq

Qlobal səhiyyə təhlükəsizliyi indeksinə nəzər yetirdikdə, pandemiya ilə mübarizə çərçivəsində istər lokal (bəzi ölkələr istisna olmaqla), istərsə də qlobal hazırlığın yetərincə olmadığı faktını görmüş oluruq. Səhiyyə sistemlərinin pandemiya ilə mübarizə gücünün “qeyri-kafi” qiymətləndirildiyi aşağı gəlirli ölkələrlə yanaşı, yüksək gəlirli ölkələr də mövcuddur. Səhiyyə təhlükəsizliyi üzrə qlobal reytinq 195 ölkəni əhatə etməklə, metodoloji olaraq ümumi indeksdə orta bal 100 üzərindən 40,2-yə bərabər qəbul edilib.

Ən yüksək bal toplayan ölkələr effektiv idarəetmə və xidmət sisteminin mövcudluğunun müşahidə olunduğu və ilk 3 yerdə qərarlaşan ABŞ, Birləşmiş Krallıq və Niderlanddır (uyğun olaraq 83.5, 77.9 və 77.6 bal). Ən aşağı mövqedə qərarlaşmış ölkələr isə Şimali Koreya, Somali və Ekvatorial Qvineyadır (uyğun olaraq 17.5, 16.6 və 16.2 bal).

Azərbaycan bu reytinq üzrə orta göstəricidən qismən aşağıda, 34.2 balla “daha hazırlıqlı” ölkələr qrupunda qərarlaşıb. İndikator toruna nəzər yetirdikdə görə bilərik ki, risk mühiti, qlobal normalara uyğunlaşma və təyinatlılıq baxımından daha güclü hesab olunan səhiyyənin mühafizəsi üçün səhiyyə sistemi və sürətli cavab tədbirlərinin görülməsi tövsiyə olunur. Regiondakı digər ölkələrlə müqayisə etdikdə Türkiyə (QST=52.4), Gürcüstan (QST=52.0) və Rusiya (QST=44.3) ümumi ortalamadan yuxarı nəticə əldə edib və yalnız İran (QST=37.7) ortalamadan aşağı mövqedə qərarlaşıb.

Reytinqdəki 195 ölkənin hər biri üçün 6 indikator əsas götürülərək dəyərləndirmələr aparılıb və ümumi göstərici (bal) formalaşıb.

### İndeks üzrə əsas indikatorlar

- Qabaqlayıcı - Patogenlərin ortaya çıxmasının və ya sərbəst buraxılmasının qarşısının alınması;
- Təsbit və hesabatlılıq - Potensial beynəlxalq narahatlığa səbəb olacaq epidemiyaların erkən təsbit olunması və hesabatlılıq;
- Sürətli reaksiya (cavab tədbirlərinin görülməsi) - Potensial epidemiyanın yayılmasının qarşısının alınması istiqamətində çevik reaksiya verilməsi və təsirlərinin mümkün qədər azaldılması potensialı;
- Səhiyyə sistemi – Yoluxanların müalicəsi və səhiyyə işçilərinin (tibb işçilərinin) qorunması üçün adekvat sistem;
- Qlobal normalara uyğunluq – Milli potensialın gücləndirilməsi, effektiv maliyyə planlaşdırılması və qlobal öhdəliklərə adekvatlıq;
- Risk mühiti – Ümumi risk mühiti və ölkənin bioloji təhdidlərə qarşı həssaslığı.

**Azərbaycanın səhiyyə indikatorları üzrə beynəlxalq reytinqi**

1. Səhiyyə xidmətinin imkanları
***Score:*** *21.5* ***Rank:*** *91/195*

2. Qabaqlayıcı tədbirlər və kadr hazırlığı
***Score:*** *0.0* ***Rank:*** *101/195*

3. Səhiyyə xidmətinə əlçatanlıq
***Score:*** *26.6* ***Rank:*** *169/195*

4. İnfeksiyaya nəzarət və avadanlıqların mövcudluğu
***Score:*** *0.0* ***Rank:*** *77/195*

5. Yeni tibbi tədbirləri test etmək imkanları
***Score:*** *75.0* ***Rank:*** *14/195*

6. Epidemiologiya sahəsi üzrə işçi qüvvəsi
***Score:*** *50.0* ***Rank:*** *36/195*

7. Laboratoriya sistemləri
***Score:*** *16.7* ***Rank:*** *161/195*

***Mənbə:*** *Global Health Security (www.ghsindex.org)*


















*https://www.visualcapitalist.com/global-pandemic-preparedness-ranked/*

## 1.4 Pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq təcrübə

Bəşəriyyət daha əvvəlki dövrlərdə iki mühüm epidemik xəstəliyin qarşısının alınmasına müvəffəq olub. Bunlar arasında qlobal peyvənd kampaniyaları nəticəsində həllini tapan "çiçək xəstəliyi" bəşəriyyətin ən böyük uğur hekayələrindən biri kimi qəbul oluna bilər. Belə ki, sözügedən xəstəliyin peyvəndinin tapılması nəticəsində 100 milyondan artıq insanın həyatı xilas oldu. Lakin hazırda dünya ölkələri yayılma miqyası baxımından misli görülməmiş bir xəstəliklə qarşı-qarşıya qalıb. Çindən bütün dünyaya yayılaraq pandemiya halına yol açan yeni tip koronavirus ölkələri hazırlıqsız yaxalayaraq ciddi sosial-iqtisadi böhranlara yol açdı. Hazırda xəstəliyin müalicəsi istiqamətində hər hansı tibbi həll yolunun mövcud olmaması bəşəriyyətin bu təhlükə ilə hələ bir müddət üz-üzə qalacağını göstərir. Bu isə öz növbəsində müxtəlif ölkələrin səhiyyə göstəriciləri ilə bağlı vəziyyəti aktuallaşdırır. Belə ki, pandemiya nəinki zəif inkişaf göstəricilərinə malik ölkələrin, eləcə də dünyanın kifayət qədər inkişaf etmiş ölkələrinin səhiyyə sistemindəki boşluqları və zəif antiböhran idarəçiliyini üzə çıxardı. Bu mənada xüsusilə müxtəlif ölkələrin "inkişaf mifləri" öz sehrini itirdi. Pandemiyanın yol açdığı böhranlı vəziyyət Avropa ölkələrinin iri şəhərlərində, xüsusən İtaliyanın şimal regionlarında, həmçinin Madrid və ABŞ-ın Nyu York kimi meqapolislərində zəruri tibbi ehtiyacın səhiyyə sisteminin imkanlarından daha geniş olduğunu göstərdi.

Bəzi dünya ölkələri pandemiya və onun yol açdığı sosial-iqtisadi böhran vəziyyəti ilə mübarizədə uğurlu strategiyalar tətbiq edərkən, bir sıra ölkələr ciddi uğursuzluğa düçar oldu. Belə ki, müsbət nəticələr əldə edən bir sıra ölkələr pandemiyanın yol aça biləcəyi yüksək ölüm dinamikası və sosial-iqtisadi təsirlər arasında müəyyən balans əldə etməkdən çəkindilər. Bu sahədə uğurlu strategiya tətbiq edən Yeni Zelandiya infeksiyanın qarşısının alınmasına və ölkənin beynəlxalq arenaya açılmasına nail ola bildi. Həmçinin bir sıra digər ada dövlətləri də pandemiyanın qarşısını almağa müvəffəq oldu. Bununla belə, pandemiyanın qarşısının alınması məhz ölkənin coğrafi mövqeyi ilə deyil, effektiv qabaqlayıcı tədbirlərin həyata keçirilməsi ilə bağlıdır. Bu baxımdan Norveç, Uruqvay, İsveçrə, Cənubi Koreya və Almaniya kimi ölkələr virusun yayılma dinamikasının qarşısını alınmasına, yoluxma xəttinin bükülməsinə nail ola bildi.

Aşağıdakı yarımbaşlıqlar üzrə qeyd olunan qrafiklər ümumilikdə 207 ölkənin pandemiya ilə mübarizə çərçivəsində həyata keçirdikləri tədbirləri əhatə edir. Ümumilikdə qeyd etmək mümkündür ki, pandemiyanın qarşısının alınmasında qeyri-effektiv siyasət tədbirlərinin tətbiq olunduğu bir sıra ölkələrdə ölüm dinamikası yüksələn xətt üzrə davam etdi. Almaniya, İtaliya kimi bir sıra Avropa ölkələrində virusun geniş yayılma diapazonu və artan ölüm dinamikası müşahidə olunsa da, sonradan bu vəziyyətin qarşısını almağa nail ola bildilər.

Yoluxma faktının erkən qeydə alınması məqsədilə Avstraliya, Cənubi Koreya, Sloveniya kimi ölkələrdə yüksək miqyasda testləşdirmə tətbiq olundu. Buna baxmayaraq, Meksika, Nigeriya, Banqladeş kimi ölkələrdə test yoxlanışlarından keçənlərin sayı minimum hədlərdə oldu. Ölkədaxili yoluxmaların qarşısının alınması məqsədilə 160-dan artıq ölkədə təhsil müəssisələrinin fəaliyyəti dayandırıldı, iş və xidmət sektorunda yeni üsulların tətbiqinə başlanıldı. Həmçinin dünya ölkələrinin ümumi iş saatlarında ciddi azalma qeydə alındı. Əksər ölkələrdə kütləvi tədbirlər ləğv olundu, açıq və qapalı ictimai məkanlarda sosial izolyasiya tədbirləri görüldü. Sərtləşdirilmiş karantin rejiminin tətbiq olunduğu şəhərlərdə evdən kənarda keçirilən müddətin azalması tendensiyası izlənərkən, evdə keçirilən vaxtın 8%-dən 55%-dək artdığı müəyyən olundu. 200-dən çox ölkədə xarici hərəkət məhdudiyyəti tətbiq olundu, həmçinin əksər ölkələrdə daxili hərəkət məhdudlaşdırıldı.

## 1.4.1. PANDEMİYA DÖVRÜNDƏ TƏHSİL PROSESİNİN TƏNZİMLƏNMƏSİ




Koronavirus (COVID-19) pandemiyası səbəbindən dünya ölkələrinin mütləq əksəriyyətində xəstəliyin nəzarət altına alınması məqsədilə təhsil müəssisələrinin fəaliyyəti müvəqqəti olaraq dayandırıldı, tədris prosesi teledərslər və məsafədən (distant) üsullarla həyata keçirilməyə başlandı. Virusun yayılma arealının genişlənməsi ilə təhsil sisteminin qarşı-qarşıya qaldığı yeni böhran mart ayının 24-dən etibarən dünyanın 160-dan artıq ölkəsində təhsilin müəyyən səviyyələri üzrə fəaliyyətin dayandırılmasına yol açdı, ən az 1.5 milyard şagird və tələbə bu prosesdən təsirləndi[17]. Beləliklə, mart ayında bu prosesdən təsirlənənlərin miqyası maksimum həddə - 91.3%-ə çatdı.

Hazırkı dövrdə isə təhsil müəssisələrinin bağlanması dünya üzrə tələbələrin 60%-dən çoxuna təsir göstərir[18]. İyul ayının 7-nə olan məlumata əsasən, dünyanın ümumilikdə 128 ölkəsində təhsil müəssisələri tamamilə, 4 ölkədə isə müəyyən təhsil səviyyələri üzrə bağlı saxlanılıb. Karantin rejiminin yumşaldılması tədbirləri ilə əlaqədar 56 ölkədə təhsilin müəyyən səviyyələri üzrə tədris, 6 ölkədə isə təhsil müəssisələrinin fəaliyyəti tam bərpa olunub. Digər ölkələrlə bağlı məlumat əldə olunmayıb. İyul ayının 17-nə olan məlumata əsasən, dünyada 107 ölkə üzrə 1 milyard tələbə və şagird təhsil müəssisələrinin fəaliyyətinin müvəqqəti dayandırılmasından təsirlənməkdədir.

Təhsil xidmətlərinə əlçatanlılıqda müəyyən ləngimələrə səbəb olan pandemiya bu istiqamətdə alternativ həll variantlarını aktuallaşdırsa da, gələcək dövrdə dünya miqyasında məktəbdən yayınma hallarında artımın müşahidə olunacağı mümkün ehtimallar arasında dəyərləndirilir. Belə ki, təhsil müəssisələrinin fəaliyyətinin dayandırılması və bu müddətin sonradan uzadılması sadəcə qısadövrlü təhsil itkisi kimi deyil, eyni zamanda uzun dövrdə insan kapitalının və iqtisadi imkanların itirilməsi kimi xarakterizə olunur.

*[17] World Bank Education and COVID-19 https://www.worldbank.org/en/data/interactive/2020/03/24/world-bank-education-and-covid-19*
*[18] Education: From disruption to recovery https://en.unesco.org/covid19/educationresponse*

## 1.4.2. PANDEMİYA DÖVRÜNDƏ İŞ PROSESİNİN TƏNZİMLƏNMƏSİ




Pandemiya, şübhəsiz ki dünya ölkələri arasında iş həyatına da təsirsiz ötüşmədi. Belə ki, müxtəlif xidmət sahələrinin fəaliyyətinin məhdudlaşdırılması və iş yerlərinin bağlanması iş dünyası üzərində əhəmiyyətli dəyişikliklərə yol açdı. Mövcud vəziyyət ilk növbədə dövlətin və cəmiyyətin yeni - məsafədən iş rejiminə adaptasiyasını zəruri etdi. Məsafədən (distant) iş üsulları yeni fenomen olmasa da, koronavirus (COVID-19) pandemiyası bu üsulları daha da genişləndirdi. Belə ki, ölkələrin pandemiyaya cavab reaksiyalarından biri ev şəraitindən icra olunan işlərin sayında artım dinamikası oldu. Ümumiyyətlə, bu istiqamətdə "məsafədən iş", "tele-iş", "evdən iş" kimi konsepsiyalar yayıldı[19].

İş rejimi ilə yanaşı pandemiya iş saatlarında kəskin azalmalara yol açdı. Beynəlxalq Əmək Təşkilatının araşdırmaları göstərir ki, xüsusən İEOÖ-də cari ilin birinci rübündə dünya üzrə iş saatlarının miqdarı ötən ilin son rübü ilə müqayisədə 5.4%, ikinci rübündə isə 14% azalıb. Həmçinin Təşkilatın proqnozlarına görə, cari ilin ikinci yarısında mövcud vəziyyət davam edəcəyi təqdirdə bu fərq 4.9%, ikinci pandemiya dalğası halında isə 11.9% təşkil edəcək. İş saatlarında azalma isə qeyri-rəsmi məşğul əhalinin, yəni qlobal əmək ehtiyatlarının yarısını təşkil edən 1.6 milyard işçinin gəlir mənbələrinin itirilməsi təhlükəsinə yol açmaqdadır. Belə ki, pandemiyanın ilk aylarında qeyd olunan qrupun 60%-nin bu itkilərlə üzləşdiyi təxmin edilir.

Sözügedən Təşkilatın 15 iyun tarixinə olan hesablamalarına görə, dünya üzrə işçi qüvvəsinin 32%-i iş yeri məhdudiyyətlərinin tam tətbiq olunduğu, 42%-i məhdudiyyətlərin konkret sahələr üzrə tətbiq olunduğu, 19%-i isə məhdudiyyətlərin tövsiyə olunduğu ölkələrdə yaşayır. Mart ayında başlayan məhdudiyyətlərin sonrakı aylarda azalan dinamika üzrə davam etdiyi müşahidə edilib. Belə ki, tam fəaliyyət məhdudiyyəti ilə üzləşən işçilərin miqyası mart ayının sonlarında 70% təşkil edərkən, iyun ayının ortalarında 32%-ə düşüb. Hazırda işçilər və iş yerləri üzərində ən sərt məhdudiyyətlərin tətbiq olunduğu ölkələr arasında ilk sırada ABŞ gəlir[20].

*[19] International Labor Organisation (ILO), COVID-19: Guidance for labour statistics data collection, Geneva, 5 june 2020 https://ilo.org/wcmsp5/groups/public/---dgreports/---stat/documents/publication/wcms_747075.pdf*

*[20] ILO Monitor: COVID-19 and world work, International Labour Organisation (ILO), Geneva, 30 june 2020 https://www.ilo.org/wcmsp5/groups/public/@dgreports/@dcomm/documents/briefingnote/wcms_749399.pdf*

# 1.4.3. PANDEMİYA DÖVRÜNDƏ İCTİMAİ TƏDBİRLƏRİN TƏNZİMLƏNMƏSİ




Virusa ölkədaxili yoluxmaların qarşısını almaq məqsədilə müxtəlif ölkələrdə ictimai tədbirlərin təxirə salınması nəzərdə tutulub. Virusdan qorunmaq məqsədilə Xəstəliyə Nəzarət və Qorunma Mərkəzləri (Centers for Disease Control and Prevention - CDC) tərəfindən hazırlanan təlimatda da ictimai tədbirlərlə də bağlı məhdudiyyətlərə yer verilib. Burada ictimai tədbir kimi açıq və ya qapalı məkanlarda keçirilən konfranslar, iclaslar, konsertlər, mərasimlər və s. nəzərdə tutulur. Belə ki, Mərkəz ictimai tədbirləri virusun yayılması baxımından ən yüksək risk dərəcəsində qiymətləndirib. Buna görə də ölkələrə sosial məsafənin qorunması, virtual tədbirlərə və görüşlərə üstünlük verilməsi tövsiyə olunub[21]. Müxtəlif ölkələrin təcrübəsinə nəzər yetirsək, ictimai tədbirlərlə bağlı məhdudiyyətlər Niderlandda mart ayının 12-dən, Türkiyədə mart ayının 16-dan, Danimarkada mart ayının 17-dən, Avstraliyada mart ayının 20-dən, İngiltərədə mart ayının 21-dən, Almaniyada mart ayının 22-dən, Sinqapurda mart ayının 24-dən tətbiq olunmağa başlayıb.

İngiltərədə də ictimai tədbirlər və digər məhdudiyyətlərlə bağlı tələblərə əməl olunmasını təmin etmək məqsədilə təlimat hazırlanıb, konfrans və sərgilərin fəaliyyətinə ancaq ilin sonunda icazə veriləcəyi bildirilib. BƏƏ-də isə iyun ayının 24-dən etibarən müxtəlif muzey və sərgi salonları, turizm bölgələri qonaqlara açıq elan edilib. İsveçrə bu istiqamətdəki məhdudiyyətləri digər ölkələrdən daha erkən, 11 may tarixində götürüb. Həmçinin 14 mart tarixindən bəri sərt karantin tədbirləri tətbiq edilən İspaniyada may ayının 4-dən etibarən mərhələli şəkildə ictimai tədbirlərin təşkili ilə bağlı yumşaldılmaya gedilib. İtaliyada 3 iyun tarixindən başlayan yumşaldılma tədbirlərinə baxmayaraq, ictimai tədbirlərlə bağlı məhdudiyyət hələ də qüvvədə saxlanılıb[22].

Çexiyada qapalı və ya açıq şəraitdə olmasından asılı olmayaraq, bütün ictimai tədbirlər qadağan olunub, aprel ayında karantin rejiminin yumşaldılması ilə əlaqədar ictimai tədbirlərə maksimum 50 nəfər iştirakçı ilə icazə verilib. May ayından etibarən icazə verilən ictimai tədbirlərin miqyası artırılıb, limit iyun ayının əvvəlində 500

*[21] https://www.cdc.gov/coronavirus/2019-ncov/community/large-events/considerations-for-events-gatherings.html*
*[22] https://www.northstarmeetingsgroup.com/coronavirus-countries-cities-reopening-COVID-19-new-cases*
*[23] https://www.osu.eu/24712/the-latest-covid-19-related-news/*

## 1.4.4. PANDEMİYA DÖVRÜNDƏ ŞƏXSLƏRİN QRUP HALINDA CƏMLƏŞMƏSİNİN MƏHDUDLAŞDIRILMASI




nəfərə, axırında 5000 nəfərə çatdırılıb[23]. Yeni Zelandiyada isə məhdudlaşdırılan ictimai tədbirlər sonradan maksimum 100 iştirakçı ilə bərpa olunub.

Pandemiyadan daha az yoluxma ilə çıxmış Niderlandda da qapalı məkanlardakı tədbirlərin maksimum 100 iştirakçı ilə həyata keçirilməsinə icazə verilib. Fransada ictimai tədbirlərin 10 nəfər şəxsdən çox iştirakçı olmamaq şərti ilə tətbiqinə başlanılıb, Almaniyada ibadət məkanları kimi ictimai yerlərin fəaliyyəti bərpa olunsa da, konsert və festivallar kimi ictimai tədbirlərlə bağlı məhdudiyyətlər oktyabr ayına qədər qüvvədə saxlanılıb.

Yoluxma hallarının qarşısının alınması məqsədilə ictimai tədbirlərin ləğvi ilə yanaşı, dünya ölkələrinin mütləq əksəriyyətində insanların küçələrdə, parklarda, ümumi istifadədə olan digər məkanlarda qrup şəklində cəmləşməsi də məhdudlaşdırılıb. Həmçinin virusun insandan insana yoluxmasının qarşısını almaq məqsədilə sosial məsafə tətbiq olunub. Xəstəliyə Nəzarət və Qorunma Mərkəzləri şəxslərin 2 metrdən yaxın təmasını virusun yoluxması baxımından "yüksək riskli" kimi elan etməsinə baxmayaraq, bu istiqamətdə ölkələrin təcrübəsində müəyyən fərqliliklər özünü göstərib. Belə ki, İngiltərədə ictimai məkanlarda 6 nəfərdən çox olmamaq şərti ilə toplaşmağa icazə verilib, şəxslər arasında 1 metrlik sosial məsafə tətbiq olunub. Norveçdə ən az 3 metr sosial məsafənin olması şərti ilə şəxslərin maksimum 20 nəfərlik qruplar şəklində cəmləşməsinə icazə verilib. Niderlandda açıq və qapalı ictimai məkanlarda 1.5 metr sosial məsafə tətbiq olunarkən, Avstraliyada 4 metr sosial məsafə tələbi qoyulub, ictimai məkanlarda 10 nəfərdən çox qruplar şəklində cəmləşmək qadağan edilib.

## 1.4.5. PANDEMİYA DÖVRÜNDƏ "EVDƏ QAL" KAMPANİYASININ APARILMASI




Dünya ölkələrinin əksəriyyətində insanların evdə qalması ilə bağlı müxtəlif çağırışlar edilib, dövlət və özəl sektor tərəfindən, həmçinin ayrı-ayrı fərdi təşəbbüslər formasında kampaniyalar aparılıb. Bununla belə, insanların evdə qalmasını təmin etmək məqsədilə evdən kənarda hərəkəti tənzimləyən xüsusi icazə sistemləri tətbiq olunub. Məsələn, BƏƏ-də sadəcə zəruri qida və tibbi ehtiyaclar üçün evdən çıxmağa icazə verən onlayn sistem yaradılıb. Fransada zəruri ərzaq, iş, tibbi ehtiyaclar və asudə vaxt üçün evdən 1 saat müddətinə 1 km məsafədə kənarlaşmağa icazə verilib.

"Google" şirkəti tərəfindən 130 ölkə üzrə fevral-may aylarını əhatə edən, insanların evdə və evdən kənarda keçirdiyi vaxtın müqayisəli təhlilini aparan araşdırma maraqlı nəticələr üzə çıxarıb. Belə ki, ölkələrin ümumi göstəricilərinə əsasən əyləncə və istirahətlə bağlı vaxt dinamikasında 21%-dən 95%-dək, ərzaq və tibbi ehtiyaclarla bağlı hərəkət dinamikasında 8%-dən 98%-dək, parklar üzrə 12%-dən 95%-dək, nəqliyyat dayanacaqları üzrə 27%-dən 100%-dək, iş yerləri üzrə 14%-dən 92%-dək azalma müşahidə olunarkən, evdə keçirilən vaxtın 8%-dən 55%-dək artdığı müəyyən olunub[24]. Bununla belə, qeyd olunan ölkələrdə may ayından etibarən məhdudiyyətlərin yumşaldılması ilə əlaqədar evdə keçirilən vaxtın azalan, evdən kənarda keçirilən vaxtın isə artan dinamika üzrə olduğu müşahidə olunub.

Müxtəlif araşdırmaların nəticələri eyni zamanda evdə keçirilən vaxt ilə koronavirusa yoluxma dinamikası arasında tərs mütənasib asılılığın mövcud olduğunu ortaya çıxarıb. Bunu təsdiqləyən digər bir araşdırma Dreksel Universiteti tərəfindən aparılıb. Belə ki, aparılan araşdırmada evdə keçirilən vaxtın virusun yayılma dinamikası ilə əlaqəsi öyrənilib, "evdə qal" çağırışlarının ABŞ-da təqribən 232 mindən çox insanı ölümdən, 2.1 milyon insanı virusa yoluxmaqdan qoruduğu aşkar edilib[25].

*[24] COVID-19 Community Mobility Report https://www.google.com/covid19/mobility/*
*[25] https://drexel.edu/uhc/about/News/2020/May/How%20Many%20Lives%20Have%20Stay-At-Home%20Orders%20Saved/*

# 1.4.6. PANDEMİYA DÖVRÜNDƏ İCTİMAİ NƏQLİYYATIN TƏNZİMLƏNMƏSİ




Dünya ölkələrində koronavirusla bağlı məhdudiyyətlər ictimai nəqliyyatın fəaliyyətinə də təsirsiz ötüşməyib. Belə ki, tətbiq olunan 2 metr sosial məsafə şərtinə baxmayaraq, tədqiqatlar ictimai nəqliyyatda "təhlükəsiz məsafə"nin 4.5 metr olmalı olduğunu aşkar edib[26]. Həmçinin, İngiltərədə Qlobal Səhiyyə İnstitutu (Institute of Global Health) tərəfindən aparılan tədqiqatlar yeraltı nəqliyyat vasitələrindən istifadə ilə hava-damcı yolu ilə yoluxma arasındakı əlaqəni ortaya çıxarıb[27]. Bu baxımdan müxtəlif ölkələrdə ictimai nəqliyyatın fəaliyyətinin məhdudlaşdırılması və nəqliyyatın sayının azaldılması ilə yanaşı, nəqliyyat daxilində sərnişin sıxlığı ilə bağlı tənzimləyici qərarlar verilib. Eləcə də, ictimai nəqliyyatla bağlı məhdudiyyətlər ilk yoluxma faktının qeydə alındığı Çinin Vuhan şəhərində metronun fəaliyyətinin dayandırılması ilə başlayıb.

Avropa Xəstəlikdən Qorunma və Nəzarət Mərkəzinin (European Center For Desease Prevention and Control) hesabatına əsasən, Belçikada ictimai nəqliyyatdan istifadə göstəricisi 75%, İrlandiyada 45-65% azalıb[28]. Portuqaliyada nəqliyyat vasitəsinin tutumunun 33%-i həcmində, Türkiyədə isə 50%-i həcmində sərnişin daşınmasına icazə verilib. İngiltərədə ictimai nəqliyyatdan istifadə 90%-dək, Fransanın bəzi şəhərlərində isə 92%-dək azalıb. ABŞ-ın Nyu-York şəhərində metrodan istifadə üzrə 93%, avtobusdan istifadə üzrə 60% azalma qeydə alınıb[29].

"Transit" tətbiqi tərəfindən Böyük Britaniya, Yeni Zelandiya, Fransa, Kanada, Avstraliya və ABŞ-da ictimai nəqliyyatdan istifadə ilə bağlı verilən hesabatda mart-aprel ayları ərzində ümumilikdə ictimai nəqliyyatdan istifadənin 75%-dək azaldığı, may ayından etibarən vəziyyətin tədricən normallaşdığı öz əksini tapıb[30]. Həmçinin bu istiqamətdə Beynəlxalq İctimai Nəqliyyat Assosiasiyasının (International Association of Public Transport) hesabatına əsasən, Honq Konqda şəhərdaxili bir sıra xətlər bağlanıb, Sloveniyada ictimai nəqliyyat dayandırılıb, Danimarkada əhaliyə ictimai nəqliyyatdan istifadə etmək yerinə piyada yerimək və fərdi nəqliyyat vasitələrindən istifadə etməklə bağlı çağırışları olunub[31].

*[26] https://www.scmp.com/news/china/science/article/3074351/coronavirus-can-travel-twice-far-official-safe-distance-and-stay*

*[27] https://ehjournal.biomedcentral.com/articles/10.1186/s12940-018-0427-5*

*[28] Considerations for infection prevention and control measures on public transport in the context of COVID-19, ECDC, 29 april 2020, https://www.ecdc.europa.eu/sites/default/files/documents/COVID-19-public-transport-29-April-2020.pdf*

*[29] https://www.usatoday.com/story/news/nation/2020/04/14/public-transportation-users-risk-coronavirus-spreads-across-us/2979779001/*

*[30] https://transitapp.com/coronavirus*

*[31] Public Transport Authorities and Covid-19, UITP, March, 2020, https://www.lek.com/sites/default/files/insights/pdf-attachments/Public-Transport-Authorities-COVID-19.pdf*

# 1.4.7. PANDEMİYA DÖVRÜNDƏ DAXİLİ HƏRƏKƏTİN TƏNZİMLƏNMƏSİ




Yeni tip koronavirusun Çində aşkarlandığı tarixdən təqribən iki həftə sonra digər ölkələrdə yoluxma faktlarının qeydə alınması, epidemiyanın sürətlə genişlənərək pandemiya halına çevrilməsi, qlobal təhlükə halına gəlməsi müxtəlif ölkələr tərəfindən daxili və xarici hərəkətlərdə məhdudiyyətlərin tətbiq olunmasına, ölkələrdə sərhədlərin müvəqqəti olaraq bağlanmasına yol açıb.

Mart ayının 11-də mövcud vəziyyətin ÜST tərəfindən pandemiya elan olunmasından qısa bir müddət sonra, yəni mart ayının əvvəllərində 80 ölkədə artıq hərəkət məhdudiyyəti tətbiq olunub. Belə ki, hava limanlarının fəaliyyəti müvəqqəti olaraq dayandırılıb, uçuşlar təxirə salınıb, həmçinin digər məhdudiyyətlər tətbiq olunub.

Dünyada 1.4 milyard insanın yaşadığı Çindən, yaxud eyni sayda insanın yaşadığı Hindistandan dünyanın kiçikmiqyaslı ölkələrinə qədər əksər ölkələr sərhədlərini öz vətəndaşları da daxil olmaqla bütün insanların üzünə bağlayıb, miqrantlara viza və iki həftəlik karantin tətbiq olunub.

Mart ayının 23-də ümumilikdə bu istiqamətdə qabaqlayıcı tədbirlərin həyata keçirildiyi ölkələrin sayı 174-ə yüksəlib. Bu ölkələrdən bəzilərinə nəzər yetirməli olsaq, Çexiyada mart ayının 12-də, Danimarka və Polşada mart ayının 13-də, Norveçdə mart ayının 14-də, Yunanıstanda, Qazaxıstanda və Argentinada mart ayının 15-də, Litvada mart ayının 16-da, Maldova və Cənubi Koreyada mart ayının 17-də, Kanadada mart ayının 18-də, Niderlandda mart ayının 19-da, Ruminiyada mart ayının 21-də Albaniyada mart ayının 22-də, Rusiyada mart ayının 30-da sərhədlər məhdudlaşdırıcı rejim əsasında bağlanıb.

Ölkədaxili hərəkətlərlə bağlı məhdudiyyətlər ilk dəfə Çində, xəstəliyin qeydə alındığı Vuhan şəhərində tətbiq olunub, həmçinin sərt karantin rejiminin tətbiq olunduğu bu və digər şəhərlərə giriş-çıxış müvəqqəti olaraq dayandırılıb. Virusun yayılma dinamikasının yüksək olduğu Çin, İran və bir çox digər ölkələrdə daxili hərəkətin məhdudlaşdırılması məqsədilə postlar qurulub, hava limanlarında və vağzallarda mütəmadi yoxlamalar aparılıb.

## 1.4.8. PANDEMİYA DÖVRÜNDƏ XARİCİ HƏRƏKƏTİN TƏNZİMLƏNMƏSİ




Ümumilikdə qeyd olunan 174 ölkənin 47%-ində fövqəladə vəziyyət elan edilib, həmçinin 78%-ində müxtəlif hərəkət məhdudiyyətləri tətbiq olunmağa başlanılıb. Tətbiq olunan hərəkət məhdudiyyəti ilə bağlı tədbirlərin ümumilikdə 64%-i ölkə xaricindən gələnlərin iki həftə müddətinə karantinə alınması, həmçinin 40%-i vizaların verilməsinin dayandırılması kimi xarakterizə oluna bilər.

"Pew" tədqiqat mərkəzinin aprel ayına olan hesabatına əsasən, dünya əhalisinin 91%-i hərəkət məhdudiyyətlərinin tətbiq olunduğu ölkələrdə yaşayırdı. Həmçinin dünya əhalisinin 39%-nin yaşadığı ölkələrdə dövlət sərhədləri tam olaraq bağlanmışdı[32]. Ölkələr tərəfindən sərhədlərin bağlanması və xarici hərəkət məhdudiyyətinin tətbiqi ilə əlaqədar Beynəlxalq Miqrasiya Təşkilatının müşahidələrinə əsasən ölkəsindən kənarda yaşayan əhəmiyyətli sayda insan öz ölkəsinə qayıdıb. Həmçinin ölkədaxili hərəkətlərdə şəhər mərkəzlərindən əyalətlərə doğru ciddi bir axın qeydə alınıb[33].

Pandemiya səbəbindən ölkələrarası hərəkətlərdə ciddi azalma müşahidə edilib. 16 iyul tarixində ümumilikdə 219 ölkə üzrə 72525 hərəkət məhdudiyyəti tətbiq olunub ki, bu da bir həftə əvvəl, yəni 9 iyul tarixi ilə (71589) müqayisədə 1%-lik artım deməkdir. Bu tarixlər arasında 17 ölkə 35 ölkə ilə olan hərəkət məhdudiyyətini götürüb, 12 ölkə isə 19 ölkəyə yeni hərəkət məhdudiyyəti tətbiq edib. Xarici səyahətlərdə tələb olunan yeni sənədlərin sayında 18%, tibbi məhdudiyyətlərdə isə 9% artım müşahidə olunub. Buna baxmayaraq, son dövrlər ərzində belə vizalara qoyulan məhdudiyyətlərdə 27%, risk baxımından xüsusi olaraq seçilən ərazilərdən gələn sərnişinlərə qoyulan məhdudiyyətlərdə isə 5% azalma qeydə alınıb[34].

*[32] More than nine-in-ten people worldwide live in countries with travel restrictions amid COVID-19 https://www.pewresearch.org/fact-tank/2020/04/01/more-than-nine-in-ten-people-worldwide-live-in-countries-with-travel-restrictions-amid-covid-19/*

*[33] Covid-19 Desease Response, IOM, 20-23 March 2020, https://www.iom.int/sites/default/files/situation_reports/file/iomsitrep_covid19response_no2final.pdf*

*[34] Covid-19 Desease Response, IOM, 11-17 July 2020, https://www.iom.int/sites/default/files/situation_reports/file/iom_covid-19_sitrep24_11-17july2020_final_0.pdf*

# 1.4.9. PANDEMİYA DÖVRÜNDƏ MALİYYƏ YARDIMININ TƏTBİQ OLUNMASI




Pandemiyanın mənfi sosial-iqtisadi nəticələrinin aradan qaldırılması, əhalinin gəlirlərinin qorunması məqsədilə ölkələr üzrə müxtəlif həcmlərdə maliyyə vəsaitləri ayrılıb. Belə ki, bu vəsait ABŞ-da ÜDM-in 10.3%-i, Almaniyada 22%-i, Fransada 5%-i, Kanadada 8.4%-i, Türkiyədə 2%-i, Rusiyada 3%-i həcmində olub. ABŞ-da pandemiya səbəbindən gəlirləri azalan milyonlarla ailəyə yardım məqsədilə 290 milyard dollar, İtaliyada işsizlikdən sığorta istiqamətində 10.3 milyard avro, Almaniyada fərdi əmək fəaliyyəti ilə məşğul olanlara 50 milyard avro həcmində vəsait ayrılıb.

Həmçinin əhalinin rifah halının yaxşılaşdırılması məqsədilə mart ayının 20-də cəmi 45 ölkədə tətbiq olunan sosial dəstək tədbirləri aprel ayının 10-da 126 ölkəyə, may ayının 8-də 171 ölkəyə qədər genişlənib.

Dünya Bankının hesabatına əsasən, 171 ölkədə 801 sosial dəstək tədbiri tətbiq olunub. Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən tədbirlərin isə ümumilikdə 60.7%-i (487) sosial dəstək tədbirlərindən ibarət olub. Sosial dəstək tədbirləri arasında nağd əsaslı ödənişlər (51%) üstünlük təşkil edib. Nağd ödənişlər üzrə dünya ölkələri arasında orta müddət 3 ay təşkil edib. Həmçinin hər vətəndaş üçün orta hesabla 44 dollar həcmində sosial dəstək tədbiri həyata keçirilib. Dəstək tədbirlərinin 28%-i işsizlərə birdəfəlik ödəmələrdən, 23%-i kommunal və maliyyə-kredit ödənişləri ilə bağlı güzəştlərdən, 23%-i xəstəliklə bağlı yardımlardan, 21%-i pensiyalardan, nəhayət, 5%-i tibbi sığorta xidmətindən ibarət olub.

Sosial dəstək tədbirlərindən ümumilikdə 1.46 milyarddan çox şəxsin faydalandığı təxmin edilir. Həmçinin, təqribi hesablamalara görə, dünya ölkələri üzrə sosial dəstək, sosial sığorta və əmək bazarı ödənişləri daxil olmaqla 567 milyard dollar həcmində vəsait ayrılıb ki, bu da qlobal ÜDM-in 0.6%-i deməkdir[35]. Bununla belə, BMT-nin proqnozları pandemiyanın yoxsulluq və gəlir bərabərsizliyini artıracağını, dünya iqtisadiyyatının yaxın iki il ərzində 8.5 trilyon dollar həcmində itki ilə üzləşəcəyini, 2020-ci il ərzində 34.3 milyon insanın yoxsulluq həddinin altına düşəcəyini göstərir[36].

*[35] Social Protection and Jobs Responses to COVID-19: A Real-Time Review of Country Measures, World Bank, May, 2020, http://documents1.worldbank.org/curated/en/448321588971503966/pdf/Social-Protection-and-Jobs-Responses-to-COVID-19-A-Real-Time-Review-of-Country-Measures-May-8-2020.pdf*

*[36] COVID-19 to slash global economic output by $8.5 trillion over next two years, 13 may 2020, https://www.un.org/development/desa/en/news/policy/wesp-mid-2020-report.html*

# 1.4.10. PANDEMİYA DÖVRÜNDƏ HÖKUMƏTİN REAKSİYA SƏRTLİYİ İNDEKSİ




Dövlətlərin pandemiya ilə mübarizədə həyata keçirdiyi tədbirlərin effektivlik dərəcəsinin müəyyən edilməsi mühüm əhəmiyyət daşıyır. Burada təqdim olunan məlumatlar birbaşa effektivliyi ölçməyə imkan verməsə də, pandemiyanın inkişafına təsir göstərən amilləri ortaya çıxarmaqda, beynəlxalq təcrübədəki müsbət nəticələri və boşluqları təhlil etməkdə, son olaraq hökumətlərin buna uyğun qərar və ya cavab tədbirləri görməsində vacib rol oynayır.

Ümumi olaraq nəzər salsaq,  hökumətlər tərəfindən cavab tədbirlərinin, xüsusən mart və aprel ayları ərzində gücləndirilmiş bir formada davam etdiyini görmək mümkündür. Lakin buna baxmayaraq ölkələr arasında Hökumətin Reaksiya İndeksi (HRİ) və sərtlilik/şiddətlilik indeksləri üzrə variasiya və ya dəyişkənliklər də müşahidə edilməkdədir.

Avropa Xəstəliklərə Nəzarət Mərkəzi tərəfindən toplanmış məlumatlara əsaslanaraq, təsdiqlənmiş ölüm sayı (qara xətt) ilə HRİ-dəki dəyişiklikləri (qırmızı xətt)  və nəticələri müqayisə etmək mümkündür.  Fransa, Cənubi Koreya kimi bəzi ölkələrin cavab reaksiyası təsdiqlənmiş ölüm saylarını qabaqladığı halda, ABŞ kimi ölkələrdə atılan addımlar ölüm statistikasından sonraya təsadüf edir.

Regional kontekstdə baxdıqda, Azərbaycanın Asiya qitəsi üzrə yüksək şiddətlilik indeksinə malik olduğu görünür. Bu da Azərbaycanda son dövrdə yoluxma sayının artımı ilə əlaqədar dövlətin bu sahədə atdığı ciddi addımlardan irəli gəlir. Təsdiqlənmiş ölüm sayları ilə HRI-ə regional müstəvidə baxdıqda Türkiyə və Rusiyada təsdiqlənmiş ölümlərin HRİ-ni üstələdiyi, beləliklə, hökumətin qeyd edilən indikatorlar üzrə daha yumşaq addımlar atdığı aydın olur.

Azərbaycan və Gürcüstanda isə HRİ-nin təsdiqlənmiş ölüm sayları ilə müqayisədə daha sərt olduğu müşahidə edilir. İranın bu istiqamətdə “yumşaq siyasəti” isə özünü həm indeks üzrə, həm də real statistikalarda göstərib.

**COVID-19 ölüm sayı və Hökumətin Reaksiya İndeksi**




***Mənbə:** Oxford COVID-19 Government Response Tracker*

- Xeyr
- Bəli
- Qismən
- — Məlumat yoxdur

| PANDEMİYADAN ƏN ÇOX TƏSİRLƏNƏN ÖLKƏLƏR | TÜRKİYƏ | ABŞ | İSPANİYA | İTALİYA | FRANSA | ALMANİYA | B.BRİTANİYA | ÇİN | İRAN | BELÇİKA | BRAZİLİYA | RUSİYA | KANADA | HOLLANDİYA | İSVEÇRƏ | PORTUQALİYA | AVSTRİYA | HİNDİSTAN | İRLANDİYA | İSRAİL |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dövlət sərhədləri bağlandı? | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Qismən | Xeyr | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli |
| Xarici uçuşlar dayandırıldı? | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Qismən | Xeyr | Qismən | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Qismən |
| Daxili uçuşlar təxirə salındı? | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Qismən | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | — | Xeyr | Bəli | Bəli | Bəli | Bəli | Qismən |
| Şəhərlərarası hərəkət məhdudiyyəti tətbiq olundu? | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Qismən |
| Küçəyə çıxma qadağası tətbiq olundu? | Bəli | Xeyr | Bəli | Bəli | Xeyr | Xeyr | Qismən | Qismən | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Qismən | Bəli | Qismən | Qismən |
| İşdən çıxarılmalar qadağan olundu? | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr |
| Pensiya alanlara əlavə ödənişlər olundu? | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Qismən | Xeyr | Xeyr |
| Koronavirus testləri ödənişsizdir? | Bəli | Bəli | Qismən | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Qismən | Xeyr | Bəli | Bəli | Qismən | Bəli | Bəli |
| Koronavirus müalicəsi ödənişsizdir? | Bəli | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Qismən | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Qismən | Bəli | Bəli |
| Ödənişsiz maska paylandı? | Bəli | Xeyr | Bəli | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr |
| Maska sayı kifayət qədərdi? | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | Bəli | Bəli | Xeyr | Xeyr | Bəli |
| Tibbi avadanlıq kifayət qədərdi? | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Xeyr |
| Küçədə maska taxmaq məcburidir? | Bəli | Xeyr | Qismən | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Bəli | Xeyr | Qismən | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Bəli |
| Tibb işçilərinə əlavə ödənişlər olundu? | Bəli | Xeyr | Xeyr | Qismən | Bəli | Qismən | Xeyr | Bəli | Bəli | Bəli | — | Bəli | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr | Xeyr |
| Xəstəxanalarda çarpayıların sayı kifayət qədərdir? | Bəli | Xeyr | Xeyr | Qismən | Bəli | Bəli | Xeyr | Xeyr | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Bəli |
| Xəstəxanalarda reanimasiya otaqlarının sayı kifayət qədərdir? | Bəli | Xeyr | Xeyr | Xeyr | Bəli | Bəli | Xeyr | Xeyr | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Bəli |
| Xəstəxanalarda dərman kifayət qədər var? | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Bəli |
| Test avadanlıqları kifayət qədər var? | Bəli | Bəli | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Bəli | Xeyr | Xeyr | Xeyr | Bəli | Xeyr | Xeyr | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Xeyr |
| Xarici ölkələrdən nə qədər vətəndaş təxliyə olundu? | 25 MİN | 63 MİN | 24 MİN | 60 MİN | 148 MİN | 240 MİN | 7,5 MİN | 1,46 MİN | — | 6 MİN | 13 MİN | 150 MİN | 5 MİN | 5 MİN | 2,7 MİN | 7,5 MİN | 7,5 MİN | 1,25 MİN | 250 | — |
| Neçə ölkəyə tibbi yardım göstərildi? | 30 | AZ SAYDA | — | 3 | Xeyr | 5 | 1 | 120 | Xeyr | Xeyr | Xeyr | 10 | Xeyr | 1 | 5 | — | 1 | 31 | Xeyr | 1 |
| Özəl sektorda vergi tətilləri tətbiq olundu? | Bəli | Bəli | Bəli | Qismən | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Xeyr | Bəli | Bəli | Bəli | Bəli | Xeyr |
| Dövlət bankları zərər çəkən firmalara kredit dəstəyi verdi? | Bəli | Xeyr | Bəli | Qismən | Bəli | Bəli | — | Bəli | Bəli | — | Xeyr | Bəli | Xeyr | Bəli | Bəli | Xeyr | Xeyr | Bəli | — | Xeyr |
| Aztəminatlı ailələrə maddi yardım verildi? | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Bəli | Xeyr | Xeyr | Bəli | Bəli | Bəli | Bəli | Bəli |

***Mənbə:*** *Anadolu Ajansı*

2

# Milli antiböhran siyasətinin qiymətləndirilməsi

**2.1.** COVID-19: Azərbaycanda cari vəziyyətin təhlili
**2.2.** Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı tədbirlər
**2.3.** Xüsusi karantin rejiminin əhalinin gündəlik həyatına və gəlirlərinə təsiri
**2.4.** Pandemiya  ilə mübarizə çərçivəsində sosial dəstək tədbirləri
**2.5.** Xüsusi karantin dövründə məhsul və xidmətlərin təminatı ilə bağlı tədbirlər
**2.6.** Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən maliyyə tədbirləri
**2.7.** Xüsusi karantin rejimindən çıxışla bağlı tədbirlər
**2.8.** Pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq əməkdaşlıq
**2.9.** Pandemiya ilə mübarizə çərçivəsində aidiyyəti şəxs və qurumların fəaliyyətinin qiymətləndirilməsi

## ANTİBÖHRAN SİYASƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

### 2.1. COVID-19: Azərbaycanda cari vəziyyətin təhlili

Yolxucu xəstəliklər ayrı-ayrı beynəlxalq təşkilatlar və beyin mərkəzləri tərəfindən yaşadığımız yüzilliyin əsas qlobal risklərindən biri kimi proqnozlaşdırılır. Heç də təsadüfi deyil ki, COVID-19 infeksiyasından bu gün bütövlükdə dünya ictimaiyyətinin əsas probleminə çevrilmişdir. Məhz bu perspektivdən çıxış edərək ölkəmizin COVİD-19 infeksiyasından qaynaqlanan potensial səhiyyə şokuna adekvat həyata keçirdiyi tədbirləri cari statistik göstəricilərin çərçivə xarakterli təhlilinin zəruriliyini nəzərə alaraq situasiya üzrə emprik təhlili diqqətinizə təqdim edirik.

Ümumiyyətlə pandemik xarakterli səhiyyə şoklarının təhlili zamanı bir çox indiqatorlar diqqət mərkəzində saxlanılmalıdır.

- İlkin olaraq qeyd etmək lazımdır ki, ölkəmizdə virusa yoluxanların gender aspektindən təhlili bizə onu deməyə əsas verir ki, ümumi yoluxanların 54.0%-I qadınlar, 46.0%-I isə kişilərdən ibarətdir.

- Yoluxanların yaş aralığı baxımından təhlilinə nəzər yetirdikdə yoluxma sayına görə sıralama aşağıdakı kimidir: 50-59 yaş aralığında olanlar ümumi yoluxanların 21.0%-ni, 30-39 yaş aralığında olanlar 18.0%, 60-69 yaş aralığında olanlar 16.0%, 40-49 yaş aralığında olanlar 15.0% və nəhayət 20-29 yaş intervalında olanlar 14.0%-lik bir göstərici ilə xarakterizə edilə bilər.

- Tədqiqat çərçivəsində 29 mart tarixindən bu günə qədər izlənilən dinamikaya əsaslanaraq qeyd edə bilərik ki yeni yoluxma halları ilə günlük ölüm sayının dinamikası arasında ciddi statistic korrelyasiya mövcuddur. Aşağıdakı qrafikdən də göründüyü kimi 21-25 iyun aralığı yoluxma sayındakı pik dövrü özündə əks etdirdiyi halda, həyatını itirənlərin pik dövrü iyul ayının ilk həftəsinə təsadüf edir.

Pandemiya ilə mübarizə çərçivəsində istifadə edilən əsas indiqatorlardan biri kimi artım əyrisi mühüm əhəmiyyət kəsb edir. Təqdim edilən qrafikdə seçilmiş region ölkələri üzrə artım əyrisi verilmişdir. Qeyd etmək lazımdır ki, sözügedən əyri hər bir ölkə üzrə 100 yoluxma faktı qeydə alındıqdan sonra bütün yoluxma dinamikasındakı artım başlanğıcına görə standartlaşdırılmışdır. Qrafikdən də göründüyü kimi Azərbaycan region ölkələri içində Gürcüstandan






Digər tərəfdən təsdiq edilən yoluxma sayındakı pik iyul ayının ilk həftəsinə təsadüf etmişdir. COVID-19 infeksiyasına yoluxma hallarının ən pik olduğu həftə üzrə göstərici 29 iyun- 5 iyul periodunda müşahidə edilməklə 3900 yeni yoluxma faktı kimi təsbit edilmişdir.

Digər önəmli bir indiqator kimi isə davam edən COVID-19 pandemiyası şəraitində ölüm nisbətidir. Müşahidələr göstərir ki, ölkəmizdə ölüm faktının digər indiqatorlara nisbətdə ən yüksək olduğu dövr 6-12 iyul tarixlərinə təsadüf edir. Daha detallı qeyd etsək məhz bu zaman intervalında yeni yoluxanlar 3717 nəfər, sağalanlar 3351 nəfər olduğu halda COVID-19 epidemiyasından həyatını itirənlər 65 nəfər olmuşdur. Sonrakı həftədə isə həyatını itirənlərin və eləcə də yeni yoluxanların dinamikasında azalma müşahidə edilmişdir. Region ölkələri ilə müqayisə etsək bu istiqamətdə ən kritik vəziyyət İran islam Respublikası və Türkiyə Cümhuriyyətində qeydə alınmışdır.







Əyri düzləşdirmə indeksinə gəldikdə isə hər bir ölkənin müxtəlif zaman intervalında pandemiya əyrisinin düzləşdirməsinə nail olması sözügedən ölkənin böhranla ilə mübarizə siyasətinin effektivliyinin göstəricisi kimi təzahür edir. Metodoloji olaraq qeyd etmək lazımdır ki, müsbət göstəricilər artım səviyyəsinin enişə keçdiyini göstərməkdədir. Aşağıdakı qrafikdə ölkəmiz və eləcə də region ölkələrinin bütün pandemiya dövründəki vəziyyətini əks etdirməkdədir.



Hazırda dünya birliyi bəşər tarixində vaxtaşırı baş verən qlobal pandemiya fəlakəti ilə üz-üzə qalıb. Təhlükənin ciddiliyi bütün məlum hədləri aşıb, pandemiya ilə mübarizə hər bir dövlətin ümummilli işinə çevrilib və onun görünən təhdidləri ilə yanaşı, görünməyən daha böyük təhlükələrinin labüdlüyü haqqında əsaslı gözləntilər formalaşıb.

Qloballaşmanın reallığa çevrildiyi hazırkı dövrdə koronavirus (COVID-19) pandemiyası geosiyasi, iqtisadi-maliyyə, sosial-mədəni, informasiya-psixoloji mühitə, irqi ayrı-seçkilik münasibətlərinə təsir göstərən, son illərdə siyasi-ideoloji populizm dalğasında pik həddinə çatan müxtəlif "fobiyalara" təkan verən gözlənilməz detonator rolunu oynamağa başlayıb. Koronavirusun "müharibə" anlayışı ilə qoşa işlədilməsi bu mənada təbii qarşılanmaqdadır. Dünya gündəmində vaxtaşırı insan qurbanlarının sayı, onların həyatı üçün savaşan həkimlərin vəziyyəti, yoluxma faktları, virus "hücumunun" yayılma dinamikası, milli səhiyyə sistemlərinin bu hücuma necə tab gətirə bilməsi, alimlərin vaksin uğrunda mücadiləsi, iqtisadi və siyasi "şoklar"a qarşı duruş gətirməsi həssaslıqla izlənilir. Bununla belə, beynəlxalq elmi camiə qarşıdakı yüz illik dövr ərzində bəşəriyyətin növbəti dörd mümkün pandemiya ilə üz-üzə qalacağını proqnozlaşdırır.

Hazırkı pandemiya ölkələrin xaosa sürüklənməməsi üçün dövlətlərin idarəçilik sisteminin, cəmiyyətin milli birlik və həmrəyliyinin səfərbər edildiyi, optimal antiböhran strategiyalarının sınaqdan çıxdığı əsl yarış meydanına çevrilib. Öz növbəsində, bütün bunları təmin etməyə qadir ola biləcək siyasi lider şəxsiyyətlərin verdiyi qərarların müqayisəsi hazırkı beynəlxalq gündəmin qaynar fokus nöqtələrini təşkil edir.

Pandemiya ilə mübarizə çərçivəsində geniş miqyasda tətbiq edilən antiböhran siyasətləri iki fundamental strategiyaya əsaslanır. Sərtləşdirmə (suppression) və yumşaltma (mitigation) strategiyaları kimi təqdim edilən bu yanaşmalar dövlətlərin antiböhran strategiyalarında əsas fərqyaradıcı amillər kimi qiymətləndirilsə də, operativ idarəçilik birindən digərinə keçidi şərtləndirir. Bu keçid olduqca önəmli olmaqla həssas yanaşma tələb edir. Nəzəri baxımdan tətbiq edilən hər iki strateji yanaşma qısa və uzunmüddətli dövrdə öz avantaj və dezavantajları ilə xarakterizə edilə bilər. Qeyd etmək lazımdır ki, milli strategiyalardakı fərqlər dövlətin ən çox hansı amili həyati vacib hesab etməsindən irəli gəlir və cari vəziyyətdə ölkələrin uyğun strategiya seçimində əhali sayı, səhiyyə sisteminin potensialı və iqtisadi imkanlar kimi fərqli determinantlar həlledici rol oynayır.

Qeyd olunan iki strategiya arasında sərtləşdirmə (suppression) virusa qarşı mərkəzləşdirilmiş və mümkün dərəcədə geniş məhdudlaşdırıcı tədbirləri reallaşdırmağa imkan verən proses kimi qiymətləndirilə bilər. ÜST başda olmaqla ayrı-ayrı beyin mərkəzlərinin müqayisəli təhlillərinə istinad edərək qeyd etmək olar ki, sözügedən strateji yanaşma pandemiya ilə mübarizə çərçivəsində daha uğurlu təsir bağışlamaqdadır. Bu çərçivədə əsas strateji addımlar kimi effektiv təsbit və təqib mexanizminin yaradılması, səhiyyə xidmətlərinə əlçatımlılığın təmini və nəticə əsaslı antiböhran idarəçiliyi diqqət mərkəzində saxlanılmalıdır[37].

Azərbaycanda pandemiya ilə mübarizə tədbirlərinə həsr edilmiş bu analitik hesabatda dövlətimizin pandemiya ilə üzləşdiyi ilk aylarda dünyada az ölkələrə nəsib olan düzgün milli strategiyanın müəyyən edilməsi və icrası istiqamətindəki müsbət addımları beynəlxalq müqayisəli təhlil və ictimai rəy sorğusu əsasında öz təsdiqini tapır. Pandemiya kimi tamamilə yeni çağırışlarla üz-üzə qalan Azərbaycan dövlətinin təcrübəsinin unikal xarakterli olduğunu, indi və gələcəkdə növbəti tədqiqatların mövzusunu təşkil edəcəyini deməyə əsas verir.



*"COVID-19 qlobal pandemiyası bütün dünya dövlətlərinə mənfi təsir göstərir. Heç bir ölkə bundan sığortalanmayıb. Qarşılıqlı dəstək, özünə qapanmama və yalnız birgə səylərlə COVID-19-a qalib gələ bilərik. Pandemiya dövründə bizim üçün prioritet məsələ insanların sağlamlığı və onların sosial müdafiəsinin təmin edilməsidir".*

**İlham Əliyev,**
***Azərbaycan Respublikasının Prezidenti***



*"COVID-19 pandemiyasının təsirinin və miqyasının məhdudlaşdırılması istiqamətində Azərbaycan Prezidentinin yürütdüyü siyasəti və atılan addımları təqdir edir, Azərbaycanda görülmüş işləri yüksək qiymətləndiririk".*

**Tedros Adhanom Qebreyesus,**
***Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru***

[37] "Best Strategies against Coronavirus: Track, Isolate, Communicate", Economic Times, 19 Mart 2020.

Pandemiyanın ölkə sərhədlərinə çatdığı son bir neçə ay ərzində atılan addımların və verilən strateji qərarların dünya ölkələri ilə müqayisəli təhlili deməyə əsas verir ki, Azərbaycan dövləti pandemiyanın və buradan irəli gələn böhranlı vəziyyətin ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması istiqamətində nümunəvi antiböhran strategiyası hazırlayıb. Dövlət başçısının “Biz birlikdə güclüyük!” şüarı ətrafında cəmiyyətin bütün təbəqələri və resursları böhranlı vəziyyətə qarşı səfərbər olunub və milli həmrəylik göstərib. Tarixin bütün dönəmlərində olduğu kimi, hazırkı qlobal fəlakətə qarşı mübarizədə də siyasi lider faktoru düzgün strategiyanı müəyyən edə bilən həlledici amil kimi çıxış edib.

2016-cı ildə Amerika Milli Tibb Akademiyasının Qlobal Səhiyyə Risk Sistemi tərəfindən hazırlanan hesabatda mümkün bir pandemiyaya hazırlıq baxımından ölkələrin təqribən illik 3-4 mlrd. dollar həcmində büdcə (bü ölkələrin miqyasına görə dəyişə bilər) ayırmaları və onun əsas xərc istiqamətləri kimi səhiyyə xidmətlərinin idarə edilməsi, laboratoriyalar və müayinə-təqib sistemlərinə yönəlik modernizasiyası xüsusi vurğulanıb[38]. Bu çərçivədə son bir neçə ildə baş verən çevik, operativ və səmərəli dövlət idarəçiliyinin formalaşdırılmasına hədəflənmiş inqilabi islahatlar kursu çərçivəsində ölkəmizin səhiyyə sistemində köklü struktur və kadr islahatları həyata keçirilib. Dövlət başçısının qeyd etdiyi kimi, bütün bu tədbirlər xalqın sağlamlığının təmin edilməsi ilə yanaşı, “hər hansısa bir fors-major vəziyyətdə dövlətin imkanlarının genişlənməsi kimi strateji məqsədə hesablanıb”.

Dövlət rəhbərliyi tərəfindən Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini və digər dövlətlərin təcrübələrini nəzərə alaraq, ölkə ərazisində koronavirus riskinin yayılması ilə əlaqədar dövlət sərhədləri məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlanıb, xaricdəki vətəndaşların ölkəyə qaytarılması istiqamətində tədbirlər görülüb. Xəstəliyin ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması və qabaqlayıcı tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşlarının təmsil olunduğu Operativ Qərargah yaradılıb. Eyni zamanda koronavirus infeksiyası ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək məqsədilə dövlət başçısının təşəbbüsü ilə dünya ölkələri arasında ilk dəfə ölkəmizdə xüsusi fond (Koronavirusla Mübarizəyə Dəstək Fondu) yaradılıb və bu müsbət təcrübəyə digər dünya ölkələr tərəfindən də müraciət olunub.

Xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar yaşayış yerinin tərk edilməsi və ölkədaxili hərəkətlə bağlı məhdudiyyətlər tətbiq olunub. Dövlət və qeyri-dövlət sektoru üzrə iş rejimi və fəaliyyət sahələri xüsusi şərtlər daxilində tənzimlənib, karantin qaydalarının pozulmasına qarşı qabaqlayıcı tədbirlər görülüb. İş və təhsil sahələri üzrə fəaliyyətin fasiləsizliyini təmin etmək məqsədilə distant üsullar tətbiq olunub.

Pandemiyanın və buradan irəli gələn böhranlı vəziyyətin makroiqtisadi sabitliyə, sosial rifaha təsirlərinin azaldılması istiqamətində dövlət başçısının müvafiq sərəncamı əsasında ilkin mərhələdə 1 mlrd. manat həcmində, sonrakı mərhələdə əlavə 2.5 mlrd. manat həcmində olmaqla, ümumilikdə 3.5 mlrd. manat həcmində müstəqillik tariximizin ən miqyaslı sosial-iqtisadi dəstək proqramı nəzərdə tutulub. Bu çərçivədə həyata keçirilən məşğulluğa və sosial rifaha dəstək tədbirləri bütövlükdə 4.8 milyon vətəndaşı əhatə edib. Əhalinin həssas və aztəminatlı təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi dəstək tədbirləri içərisində prioritet təşkil edib. Bu istiqamətdə ünvanlı sosial yardım və özünüməşğulluq proqramlarının əhatə dairəsi genişləndirilib, ictimai iş yerlərinin sayı artırılıb, işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmələr verilib, fiziki

**Ölkələr üzrə tətbiq edilən sərtləşdirilmiş karantin tədbirləri**

| Ölkələr | Tətbiq olunma tarixi | Həmin tarixə yoluxma sayı | Həmin tarixə 1 mln. nəfərə düşən yoluxma sayı |
|---|---|---|---|
| Karantin rejiminin tətbiqi, sosial izolyasiya ilə bağlı sərtləşdirilmiş tədbirlər *(evə qapadılma, kütləvi tədbir və toplantıların qadağan olunması, əhalinin sıx toplaşdığı yerlərin bağlanması)* | | | |
| ÇXR | 23.01 | 643 | 0.5 |
| İtaliya | 10.03 | 10.149 | 168.5 |
| İsrail | 10.03 | 83 | 9.1 |
| Latviya | 14.03 | 26 | 13.6 |
| Fransa | 16.03 | 6.633 | 99.0 |
| Kanada | 16.03 | 415 | 10.9 |
| İran | 26.03 | 29.406 | 322.0 |
| Sinqapur | 24.03 | 558 | 87.0 |
| Hindistan | 24.03 | 519 | 0.38 |
| Yaşlı əhalinin izolyasiyası *(tam və qismən evə qapadılma)* | | | |
| ABŞ | 16.03 | 4.373 | 13.3 |
| B. Briraniya | 16.03 | 1.543 | 22.8 |
| Türkiyə | 21.03 | 670 | 8.1 |
| Belçika | 18.03 | 1.486 | 129.5 |
| Rusiya | 24.03 | 495 | 3.4 |
| C. Koreya | 27.03 | 9.332 | 182 |
| Fövqəladə vəziyyətin tətbiqi *(sərtləşdirilmiş karantin tədbirləri, özəl sektorun müvəqqəti bağlanması, ictimai nəqliyyatın fəaliyyətinin məhdudlaşdırılması, hərbi qüvvələrin mobilləşdirilməsi)* | | | |
| İtaliya | 31.01 | 10.149 | 168 |
| İspaniya | 15.03 | 7.798 | 167 |
| Avstraliya | 18.03 | 568 | 24 |
| ABŞ | 13.03 | 2.247 | 7 |
| Fransa | 24.03 | 22.304 | 343 |
| Ukrayna | 26.03 | 196 | 2.6 |

*[38] The Neglected Dimension of Global Security: A Framework to Counter Infectious Disease Crisis, (The National Academies Press, Washington DC: 2016).*

şəxs olan istehlakçıların ƏDV-sinin bir hissəsi geri qaytarılıb, əhali üzrə elektrik enerjisinin güzəştli istehlak həcmi artırılıb, aztəminatlı ailələrə aid tələbələrin təhsil haqqı dövlət tərəfindən qarşılanıb, tənha yaşlılara və aztəminatlı ailələrə münasibətdə digər müxtəlif güzəşt və yardımlar tətbiq olunub. Yuxarıda qeyd olunanlarla yanaşı 1.7 milyon vətəndaşın əmək haqqı ödənilməklə iş yerlərinin qorunmasını nəzərdə tutan sosial dəstək tədbirləri 600 milyon manat, iqtisadi dəstək tədbirləri çərçivəsində müraciət etmiş 145740 vergi ödəyicisi və 265864 muzdlu işçiyə maliyyə dəstəyi isə bütövlükdə 215 milyon manat həcmində müəyyənləşdirilib.

Ölkə üzrə səhiyyə sisteminin dayanıqlılığının artırılması və infrastrukturunun gücləndirilməsi istiqamətində bu sahədə çalışan tibb və qeyri-tibb işçilərinə əmək haqqının bir neçə misli məbləğində müddətli ödənişlər edilib, infeksiyaya yoluxanların müalicəsi məqsədilə yeni tibb müəssisələri istifadəyə verilib, xəstəxanalar zəruri tibbi ləvazimatlar, avadanlıqlar, süni tənəffüs cihazları ilə tam təchiz olunub. Əhalinin əlçatımlılığını təmin etmək üçün qoruyucu tibbi vasitələr gömrük rüsumundan azad edilib və yerli istehsalına başlanılıb. Həmçinin virusun diaqnostikası məqsədilə 30 laboratoriya qurulub,  adambaşına keçirilən testlərin sayına görə (təqribən 700 min) ölkəmiz dünya miqyasında qabaqcıl yerlərdə qərarlaşıb.

Pandemiyaya qarşı qlobal həmrəylik və səfərbərliyin hələlik yalnız arzu olduğu mərhələdə dövlət başçısının təşəbbüsü əsasında videokonfrans formatında beynəlxalq səviyyəli müxtəlif görüş və tədbirlər keçirilib, pandemiya ilə mübarizə çərçivəsində dəstəkləyici ölkə mövqeyindən çıxış edərək, həmçinin beynəlxalq əməkdaşlıq çərçivəsində müxtəlif ölkələrə maliyyə və humanitar yardımlar edilib.

Yekun olaraq, Azərbaycanın pandemiyaya qarşı müəyyən etdiyi antiböhran siyasəti və sosial-iqtisadi paketləri: fövqəladə geniş əhatə dairəsi, maddi həcmi baxımından ÜDM-də sanballı, əhalinin virusdan zərər görmüş  bütün təbəqələrinin və iqtisadiyyatın bütün sahələrinin nəzərə alınması, milli birlik, vətəndaşa qayğı və sosial məsuliyyət  prinsiplərini rəhbər tutması,  region və dünya ölkələri ilə müqayisədə fərqli-müsbət məqamlarla fərqlənir. Qeyd olunan amillər dövlət başçısının rəhbərliyi ilə xalqımızın pandemiya sınağından ən az itki və səfərbərliklə çıxacağına dəlalət edir.




## 2.2. Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı tədbirlər

Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini və digər dövlətlərin təcrübələrini nəzərə alaraq, ölkə ərazisində koronavirus riskinin yayılması ilə əlaqədar fevral ayının 29-dan etibarən İran İslam Respublikası ilə dövlət sərhədlərinin iki həftə müddətinə məhdudlaşdırıcı rejim əsasında bağlanması barədə qərar qəbul edilib. Martın 25-də məhdudlaşdırıcı rejimin müddəti aprel ayının 20-dək uzadılıb. Həmçinin İranda olan Azərbaycan vətəndaşlarının ölkəyə qayıtmasını təmin etmək məqsədilə mart ayının 4-dən etibarən xüsusi dəhliz yaradılıb. Eləcə də Gürcüstan Respublikası ilə qarşılıqlı razılıq əsasında hər iki ölkə vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi məqsədilə martın 14-də on günlük müddətə dövlət sərhədinin bütün nəqliyyat vasitələri üçün müvəqqəti bağlanması barədə qərar qəbul edilib, martın 23-də bu müddət aprel ayının 20-dək uzadılıb. Rusiya Federasiyası Hökuməti ilə də razılaşma əsasında qarşılıqlı səfərlərin mart ayının 18-dən etibarən müvəqqəti dayandırılması barədə qərar qəbul edilib. Ölkələrlə qarşılıqlı yük daşımalarının həyata keçirilməsi istiqamətində tranzit dəhlizin fəaliyyəti xüsusi qaydada təmin edilib.

Bunlarla yanaşı, xəstəliyin geniş yayılmasının qarşısının alınması məqsədilə aprel ayının 5-dən 20-dək ölkəyə yerüstü və hava nəqliyyatı yolu ilə giriş-çıxış, o cümlədən yerli hava uçuşları dayandırılıb. İran, Türkiyə, Rusiya, İtaliya, Macarıstan və digər ölkələrdə olan soydaşlarımızın ölkəyə qayıtmasını təmin etmək məqsədilə təxliyə reysləri həyata keçirilib. Karantin rejiminin uzadılması ilə əlaqədar ölkələrlə sərhədlərin bağlanması və giriş-çıxışın məhdudlaşdırılması aprel ayının 18-dən may ayının 4-dək, 1 may tarixində verilən qərarla may ayının 31-dək, 29 may tarixində verilən qərara əsasən isə ölkə ərazisinə yerüstü və hava yolu ilə giriş-çıxışa tətbiq olunan məhdudiyyət iyun ayının 15-dək, 9 iyun tarixində verilən qərarla 1 iyuladək uzadılıb. Sonrakı dövrlərdə karantin rejiminin müddətinin uzadılması ilə əlaqədar sərhədlərin bağlı saxlanılması qüvvədə qalıb.

COVID-19 epidemiyası Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edildikdən sonra milli səviyyələrdə əsas tən-

*Beynəlxalq Hava Nəqliyyatı Birliyi (IATA) ilkin proqnozlarında pandemiya səbəbindən hava yolu şirkətlərinin 84.3 milyard dollar zərər çəkəcəyini bildirib.*

- *Mərkəzi Kanadanın Monreal şəhərində yerləşən IATA yeni tip koronavirusun aviasiya sahəsinə təsirini öyrənmək məqsədilə aralarında ABŞ, İngiltərə, Almaniya və Fransanın da olduğu 11 ölkədə araşdırmalar aparıb.*
- *Hava yolu şirkətlərinin gəlirlərinin cari il ərzində ötən illə müqayisədə 50% azalacağı, ilin sonuna kimi 419 milyard dollar zərər edəcəyi təxmin edilib.*
- *Sözügedən Təşkilatın hesabatında pandemiya səbəbindən 2020-ci il "hava nəqliyyatı tarixinin ən pis ili" elan olunb. Qeyd olunan zərərin həcminin gələn il 15.8 milyard dollar azalacağı təxmin edilib.*
- *Təşkilat pandemiyanın nəzarət altına alınması məqsədilə dünya miqyasında sərnişinlərin 47%-nin 1-2 ay, 28%-nin 6 ay, 8%-nin 1 il gözləməli olacağını bildirib.*

***Mənbə:*** *https://www.iatatravelcentre.com/international-travel-document-news/1580226297.htm*

zimləyici tədbir kimi dövlət sərhədlərinin spesifik şərtlər əsasında bağlanılması təşəbbüsləri reallaşdırılıb. Müşahidə əsaslı təhlillər göstərir ki, bu tədbir milli təhlükəsizlik baxımından ilkin mərhələdə olduqca strateji əhəmiyyət kəsb edib. Ölkəmizdə bu istiqamətdəki tədbirlərlə bağlı aprel ayında keçirilən ictimai rəy sorğusu müsbət göstəricilərlə xarakterizə olunur. Belə ki, respondentlərin 91.7%-i dövlət sərhədlərinin müvəqqəti olaraq bağlanmasını müsbət dəyərləndirib. Rəyi öyrənilənlərin sadəcə 5.2%-i bu tədbirə əks münasibət sərgiləyib. Operativ Qərargah tərəfindən müxtəlif şərtlər nəzərə alınmaqla mərhələli yumşalma tədbirlərinin həyata keçirilməsinə baxmayaraq məhz bu istiqamətdə yumşalmaya gedilməyib.

- Dövlət sərhədlərinin bağlanması tədbirini müsbət qiymətləndirən 91.7% respondentin 89.8%-i şəxslərin hərəkətinin məhdudlaşdırılması ilə bağlı karantin rejiminin ilkin mərhələsində tətbiq edilən tənzimləmələri müsbət dəyərləndirib ($X^2(1)=172.705$, $p<0.01$).
- Karantin rejimindən mərhələli qaydada çıxış strategiyasını məqbul hesab edən 75.7% respondentin 96.3%-i dövlət sərhədlərinin bağlı saxlanılması təşəbbüsünü müsbət qiymətləndirib.
- Tədqiqatın birinci mərhələsində respondentlərin rəyləri əsasında onu qeyd edə bilərik ki, dövlət sərhədlərinin bağlanması tədbiri ilə şəxslərin hərəkətinin tənzimlənməsi ilə bağlı tədbir ciddi statistik korrelyasiyaya malikdir ($r=0.486$, $p<0.01$).

Ölkə vətəndaşlarının sözügedən təşəbbüsə münasibətini öyrənmək üçün Sosial Tədqiqatlar Mərkəzi tərəfindən dördüncü mərhələ üzrə keçirilmiş ictimai rəy sorğusunda bu tendensiyada müəyyən dəyişikliklər təsbit edilib. Belə ki, iyul ayında eyni istiqamətdə rəyi öyrənilən respondentlərin 66.7%-i dövlət sərhədlərinin bağlı saxlanılması tədbirinin qüvvədə qalmasını müsbət dəyərləndirdiyi halda bu təşəbbüsü mənfi kontekstdən dəyərləndirən kəsimin mövqeyində 20.9%-lik bir artım dinamikası müşahidə edilib. Sonuncu rəy sorğusunun nəticələrinə əsaslanaraq qeyd edə bilərik ki, dövlət sərhədlərinin bağlı saxlanılması təşəbbüsünü mənfi qiymətləndirən respondentlər ümumi sorğu iştirakçılarının 26.1%-ni təşkil edib. Xüsusi olaraq qeyd etmək lazımdır ki, bu istiqamətdə həyata keçirilmiş qabaqlayıcı tədbirin qiymətləndirilməsində çətinlik çəkdiyini bildirən respondent saylarında da 2 dəfəyə qədər artım müşahidə edilərək 7.2% olub.

Dövlət sərhədlərinin bağlı saxlanılmasına münasibət strateji əhəmiyyət kəsb etməklə 66.7% respondent tərəfindən müsbət, 26.1% respondent tərəfindən isə mənfi xarakterizə olunur. Digər tərəfdən 7.2% respondent isə bu məsələ ilə bağlı fikir bilməkdə çətinlik çəkdiyini bildirib.

- Dövlət sərhədlərinin bağlı saxlanılması tədbirini mənfi qiymətləndirən 26.1% respondentin 73%-i eyni zamanda karantin rejiminin uzadılması təşəbbüsünü də mənfi qiymətləndirib ($X^2(1)=129.784$, $p<0.01$). Digər tərəfdən sözügedən dövlət tədbirini müsbət qiymətləndirən 66.7% respondentin ancaq 12.2%-i karantin rejiminin uzadılmasına analoji mövqedən fikir bildirib.
- Karantin rejiminin mərhələli qaydada yumşaldılması çərçivəsində Operativ Qərargah tərəfindən tətbiqi məqbul görülən tənzimləmə tədbirləri kimi dövlət sərhədlərinin bağlı saxlanılması təşəbbüsü ilə ən ciddi statistik korrelyasiya kimi Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonuna giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılması arasında təsbit edilib ($r=0.546$, $p<0.01$).
- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə respondentlərin 72.5%-i dövlət sərhədlərinin bağlı saxlanılması təşəbbüsünü müsbət qiymətləndirdiyi halda digər şəhər və rayonları özündə cəmləşdirən ikinci qrup respondentlərin 62.1%-i bu istiqamətdə eyni mövqedən çıxış edib.
- Dövlət sərhədlərinin bağlı saxlanılması ilə bağlı tədbirlə  Bakı,

**Dövlət sərhədlərinin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlanılmasına münasibət**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[3]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonuna giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılması tədbiri arasında korrelyasiya təsbit olunub (r=0.556 (p<0.01)).

- Sözügedən istiqamətdə müsbət mövqedən çıxış edən 88.0% respondentin 92.1%-i eyni zamanda ümumilikdə dövlətin pandemiya ilə mübarizə siyasətini də müsbət qiymətləndirib.

- Xaricdə yaşayan vətəndaşların ölkəyə gətirilməsi istiqamətində tədbirlər 79.0% respondent tərəfindən müsbət, 16.9% respondent tərəfindən isə mənfi qarşılanıb. Respondentlərin 4.1%-i sözügedən istiqamətdə fikir bildirməkdə çətinlik çəkib. Xaricdə yaşayan vətəndaşların ölkəyə gətirilməsi tədbirini mənfi qiymətləndirən 16.9% respondentin 88.9%-i dövlətin antiböhran siyasətini müsbət dəyərləndirib.

- Bu dövlət təşəbbüsünə iki fərqli mövqedən fikir bildirən respondent qrupu içərisində müsbət kontekstdən çıxış edənlərin 32.1%-i Operativ Qərargahın və müvafiq olaraq 37.5%-i isə TƏBİB-in fəaliyyətini mənfi qiymətləndirib. Əks mövqedən çıxış edən 16.9% respondentin sözügedən qurumlara münasibətinə diqqət etdiyimiz zaman onlarında müvafiq olaraq 34.0%-i Operativ Qərargahın son dövrlərdəki fəaliyyətindən narazı qaldıqlarını bildirdikləri halda, 40.4%-i isə TƏBİB-in fəaliyyətini mənfi qiymətləndirib.

- Xaricdə yaşayan vətəndaşların ölkəyə gətirilməsi tədbirini mənfi dəyərləndirən 16.9% respondentin sadəcə 16.2%-lik bir hissəsi pandemiya ilə mübarizə siyasəti çərçivəsində müvafiq dövlət qurumlarının məlumatlarına etibar etmədiklərini bildirib.

- Tədqiqatın beşinci mərhələsində həyata keçirilmiş sosioloji sorğu çərçivəsində karantin rejimindən mərhələli qaydada çıxış strategiyasını məqbul hesab edən 66.4% respondentin 81.7%-i xaricdə müvəqqəti yaşayan vətəndaşların ölkəyə gətirilməsi təşəbbüsünü müsbət qiymətləndirdiyi halda, sadəcə 18.3%-i mənfi mövqedən çıxış edib.

Dövlət sərhədlərinin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlanması tədbirinə tədqiqatın ayrı-ayrı mərhələlərində münasibət bildirən respondent profillərindəki tendensiya aşağıdakı kimidir:






## 2.2.2. "8103" SMS İCAZƏ XİDMƏTİ VƏ "İCAZE.E-GOV.AZ" PORTALININ İSTİFADƏYƏ VERİLMƏSİ

Şərtləşdirilmiş karantin rejimi ərzində icazələrin alınması və müvafiq monitorinqlərin aparılması məqsədilə xüsusi icazə sistemi tətbiq olunub

"8103" SMS icazə xidməti tərəfindən aşağıdakı indekslər üzrə icazələr verilib:
- 1 rəqəmi - təxirəsalınmaz tibbi zərurətlə və ya qrafik üzrə müalicə almaqla əlaqədar yaşayış yerini tərk etmək üçün;
- 2 rəqəmi - hazırda fəaliyyətinə icazə verilən sahələr üzrə xidmətlərdən istifadə edilməsi zərurəti ilə əlaqədar yaşayış yerini tərk etmək üçün;
- 3 rəqəmi - yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini tərk etmək üçün.

"8103" SMS icazə xidmətinə göndərilən SMS sayı
**36 184 000**

"icaze.e-gov.az" sistemində qüvvədə olan icazə sayı
Ümumi: **924 992**
Dövlət və özəl təşkilat: **72 330**
Fərdi sahibkar: **852 662**




**"8103" SMS icazə xidmətinin tətbiqinə münasibət**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[3]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

Ölkə ərazisində pandemiyanın geniş yayılmasının qarşısının alınması məqsədilə təcili təxirəsalınmaz tədbirlər çərçivəsində aprel ayının 5-dən etibarən vətəndaşların yaşayış yerini tərk etməsi üçün icazə almaq məqsədilə “8103” SMS icazə sistemi istifadəyə verilib, həmçinin xüsusi portalda (icaze.e-gov.az) qeydiyyatdan keçmək, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında yaşayış yerini tərk etmək sistemi tətbiq olunub. Verilən iki saatlıq icazələrin müddəti aprel ayının 27-dən etibarən 3 saatadək uzadılıb. Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda may ayının 18-dən etibarən, respublikanın digər rayon və şəhərlərində və Naxçıvan Muxtar Respublikasında may ayının 4-dən etibarən yaşayış yerini SMS icazə, xüsusi portalda qeydiyyatdan keçmək, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunub. Lakin virusun yayılma sürətini və yoluxma dinamikasını nəzərə alaraq iyun ayının 21-dən etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu ərazisində SMS icazə xidmətinin yenidən tətbiqinə başlanılıb.

Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən əsas strateji tədbirlərdən biri kimi SMS icazə sisteminin tətbiqi yoluxma riskinin mümkün dərəcədə azaldılmasını hədəfləyib. Məhz bu səbəbdəndir ki, sərtləşdirilmiş karantin rejiminin tətbiqi ilə bağlı əsas tənzimləmə mexanizmlərindən biri kimi SMS icazə xidmətinin tətbiqinə ilkin mərhələdə, yəni aprel ayında keçirilən sorğuda 89.8% respondentin mövqeyi müsbət olub. Əks mövqedən çıxış edən respondentlər isə 6.9%-lik göstərici ilə olduqca azlıq təşkil edib.

Dövlətin antiböhran siyasətinin dinamikasına nəzər yetirdikdə karantin rejimindən mərhələli çıxış tədbirlərindən biri kimi SMS icazə sisteminin tətbiqinin ləğvinə müsbət münasibət 75.4% təşkil edib. Sözügedən təşəbbüsü mənfi kontekstdən qiymətləndirən respondent qrupunda isə 13.6%-lik bir yüksəliş qeydə alınaraq 20.5%-ə çatıb. Bu istiqamətdə qərarsız mövqe sərgiləyən respondentlərin sayında da müvafiq artım müşahidə edilməklə 5.1% olub.

- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə respondentlərin 71.3%-i SMS icazə xidmətinin ləğv edilməsi təşəbbüsünü müsbət qiymətləndirdiyi halda digər şəhər və rayonları özündə cəmləşdirən ikinci qrup respondentlərin 76.7%-i sözügedən istiqamətdə eyni mövqedən çıxış edib.

- Müqayisə etibarilə sərtləşdirilmiş karantin rejimindən mərhələli çıxış çərçivəsində SMS icazə xidmətinin ləğvi ilə bağlı tədbirlə ən güclü korrelyasiya bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı təşəbbüs arasındadır (r=0.391, p<0.01).

Sosioloji təhlillər bizə onu deməyə imkan verir ki, pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən antiböhran strategiyasında aidiyyəti şəxs və qurumlar fərqli mərhələlərdə SMS icazə sisteminin tətbiqi ilə bağlı sərtləşdirmə və yumşaldılma təşəbbüslərindən çıxış edib. Əgər birinci mərhələdə rəyi öyrənilənlərin 89.8%-i bu addımı məqbul hesab edirdisə, yumşaldılma çərçivəsində SMS sisteminin ləğvi qərarına baxmayaraq, iyun ayında rəyi öyrənilənlərin 20.5%-i bu tətbiqin davam etdirilməsini dəstəklədiyini bildirib. Son mərhələdə, yəni iyul ayında keçirilən sorğuda isə SMS icazə sisteminin yenidən tətbiqini ümumi respondentlərin 81.9%-nin dəstəklədiyi müəyyənləşib. Müqayisə üçün qeyd edə bilərik ki, aprel ayı ilə müqayisədə iyul ayında SMS icazə sisteminin tətbiqini müsbət qiymətləndirən respondent rəylərində 8.8% azalma müşahidə edilib.

SMS icazə sisteminin genişmiqyaslı tətbiq edildiyi aprel və iyun aylarında bu antiböhran tədbirini müvafiq olaraq mənfi qiymətləndirən 6.9% və 16.4% respondentin sərtləşdirilmiş karantin rejimindən çıxış strategiyası kimi mərhələli yanaşmanı müqayisə etibarilə bir-birinə yaxın dərəcədə 56.6% və 62.9%-i müsbət qiymətləndiriblər.

- Digər tərəfdən beşinci mərhələdəki sosioloji sorğunun nəticələrinə görə SMS icazə sisteminin yenidən tətbiqi təşəbbüsü ilə ən ciddi statistik əlaqə xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda iyulun 20-nə kimi bəzi sahələrin fəaliyyətinə icazənin verilməməsi tədbiri kimi təsbit edilib (r=0.532, p<0.01).

- SMS icazə sisteminin tətbiq edilməsinə mənfi rəy bildirən 16.4% respondentin 57.8%-i karantin şərtlərinin pozulmasına görə tətbiq edilən cərimə miqdarının artırılması qərarını pozitiv dəyərləndirməyib.

- Bütün bunlarla yanaşı, SMS icazə sisteminin tətbiq edilməsini pozitiv dəyərləndirən 81.9% respondentin 71.4%-i eyni zamanda COVID-19 virusuna yoluxmaqdan əhəmiyyətli dərəcədə qorxduqlarını da bəyan edib.

- Tədqiqatın birinci mərhələsində SMS icazə sisteminin tətbiqi ilə karantin qaydalarının pozulmasına görə tətbiq edilən cərimə ödənişlərinə respondent rəylərinin təhlilinin nəticələri bizə onu deməyə əsas verir ki, SMS icazə sisteminin tətbiqinə müsbət mövqe bildirənlərin 86.1%-i eyni zamanda cərimələrin tətbiqini də müsbət qiymətləndirib. Yeni icazə sisteminə mənfi fikir bildirən respondentlərin isə sadəcə 29.6%-i cərimələrin tətbiq edilməsini müsbət qiymətləndirib.









## 2.2.3. KARANTİN QAYDALARININ POZULMASINA GÖRƏ TƏTBİQ OLUNAN CƏRİMƏLƏR

Karantin rejiminin tələblərinə riayət olunmasına hüquq-mühafizə orqanları tərəfindən nəzarət olunub, qaydaları pozan şəxslər cərimə edilib, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq olunub

Cərimə olunan şəxslərin sayı

19 mart-18 may tarixinə qədər — 55.678 hərəkət iştirakçısı

22 iyun-3 avqust tarixinə qədər — 45.400 hərəkət iştirakçısı

| Karantin rejiminin tələblərinin pozulması | Karantin rejimində qoruyucu vasitələrdən istifadə olunmaması | Qayda pozuntusunun bir il ərzində təkrar törədilməsi |
|---|---|---|
| Fiziki şəxslər: 200-400 ₼ | Fiziki şəxslər: 100 ₼ | Fiziki şəxslər: 200 ₼ |
| Vəzifəli şəxslər: 3000-4000 ₼ | Vəzifəli şəxslər: 200 ₼ | Vəzifəli şəxslər: 400 ₼ |
| Hüquqi şəxslər: 4000-10000 ₼ | Hüquqi şəxslər: 400 ₼ | Hüquqi şəxslər: 800 ₼ |

17 Mart — İnzibati Xətalar Məcəlləsinə karantin rejiminin tələblərinin pozulması ilə bağlı qaydalara dəyişikliklər olunub

2 İyun — İnzibati Xətalar Məcəlləsinə qoruyucu vasitələrdən istifadə olunmaması ilə bağlı yeni cərimə növləri əlavə olunub

29 İyun — İnzibati Xətalar Məcəlləsində karantin qaydalarının pozulmasına görə tətbiq olunan cərimələr artırılıb

**Ölkələr üzrə karantin qaydalarının pozulmasına görə tətbiq edilən cərimələr**

| Ölkələr | Tətbiq edilən məhdudiyyətlər | Müəyyən edilmiş cərimə və cəzalar |
|---|---|---|
| ÇXR | Karantin, fövqəladə vəziyyət | Qəsdən karantini pozmaya görə edam cəzası |
| İtaliya | Karantin, fövqəladə vəziyyət | 400-3000 avro cərimə, yə da 3 aya qədər həbs |
| İsrail | Karantin, əhalinin yerdəyişməsinə sərt nəzarət | Cinayət məsuliyyəti (3-7 il). İnzibati cərimələr (1300 dollar) |
| Ermənistan | Karantin, özünütəcrid, Təsadüfi və ya qəsdən başqasını yoluxdurma | 600-2000 dollar cərimə və ya 1 aya qədər həbs. 1-5 il həbs cəzası |
| Gürcüstan | Karantin, fövqəladə vəziyyət | Fiziki şəxslər üçün 1000 dollar, hüquqi şəxslər üçün 5000 dollar cərimə |
| Fransa | Karantin, fövqəladə vəziyyət | 135 avro cərimə, təkrar olarsa 1500 avro, 4 və daha artıq pozuntuya görə 6 aya qədər həbs və 3700 avro cərimə |
| C. Koreya | Karantin, fövqəladə vəziyyət | 8000 dollar cərimə, 1 ilə qədər həbs |
| İspaniya | Karantin, fövqəladə vəziyyət | 1500 avro-160.000 avro cərimə |
| Kanada | Karantin | 750 min dollara qədər cərimə və ya 6 ilədək azadlıqdan məhrumetmə |
| ABŞ | Karantin, fövqəladə vəziyyət | 5000-100.000 dollar cərimə, ölüm halına səbəb olan pozuntuya görə bir ilədək azadlıqdan məkrumetmə |
| Norveç | Karantin, evdə oturmaq vəzifəsi | 2000 dollar cərimə və ya 15 sutka həbs |
| Özbəkistan | Karantin | 70-115 dollar cərimə, vəzifəli şəxslər üçün 235-350 dollar, ağır pozuntuya görə 1.100-2.200 dollar cərimə və ya azadlıqdan məhrumetmə |
| Səudiyyə Ərəbistanı | Ölkəyə daxil olarkən sağlamlıq haqqında məlumat verməmək | 133.000 dollar cərimə |
| Avstraliya | İki nəfərdən artıq şəxsin toplaşma qadağası | 1.652 dollar fiziki şəxslər üçün, 9.913 dollar hüquqi şəxslər üçün cərimə |
| Polşa | Karantin, hərəkət məhdudiyyətləri | 6.518 avro cərimə |
| Çexiya | Karantin | 100.000 avroya qədər cərimə |

Xüsusi karantin rejiminin tələblərini pozanlara qarşı 28 fevral tarixli qərara əsasən qanunun tələblərinə uyğun şəkildə cərimə, yaxud inzibati qaydada həbs tədbirləri həyata keçirilməyə başlanıb. Bu məqsədlə Milli Məclis tərəfindən İnzibati Xətalar Məcəlləsində edilən dəyişikliklər və dövlət başçısı tərəfindən imzalanan “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Fərmana əsasən, inzibati xətalar haqqında işlərə baxmaq səlahiyyəti Daxili İşlər Nazirliyinə həvalə olunub. İnzibati Xətalar Məcəlləsinə 17 mart tarixli dəyişikliyə əsasən ölkədə epidemiya əleyhinə rejimin, sanitariya, gigiyena və karantin qaydalarının pozulmasına görə fiziki şəxslərin 100 manatdan 200 manatadək, hüquqi şəxslərin 2000 manatdan 5000 manatadək, vəzifəli şəxslərin 1500 manatdan 2000 manatadək məbləğdə cərimə olunması, yaxud işlərin hallarına görə xəta törədənin şəxsiyyəti nəzərə alınmaqla bir ayadək müddətə həbs olunması nəzərdə tutulub. 2 iyun tarixində sözügedən Məcəlləyə karantin rejimində qoruyucu vasitələrdən istifadə olunmaması ilə bağlı yeni cərimə növləri əlavə olunub. Belə ki, qoruyucu vasitələrdən istifadə olunmamasına görə fiziki şəxslərin 50 manat, vəzifəli şəxslərin 100 manat, hüquqi şəxslərin 200 manat məbləğində cərimə olunması təsdiqini tapıb. Həmçinin qayda pozuntusunun bir il ərzində təkrar törədilməsi halında fiziki şəxslərin 100 manat, vəzifəli şəxslərin 200 manat, hüquqi şəxslərin 400 manat cərimələnməsi nəzərdə tutulub. Lakin karantin qaydalarına əməl olunmamasına dair faktların dinamikasındakı yüksəliş qeyd olunan cərimə miqdarlarının artırılması ilə nəticələnib. Beləliklə, İnzibati Xətalar Məcəlləsinə 29 iyun tarixində edilən dəyişikliklə qeyd olunan cərimə miqdarlarının iki misli miqdarında artırılması öz təsdiqini tapıb.

Səhiyyə şokunun minimumlaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin effektivliyinin artırılması istiqamətində karantin qaydalarına riayət olunması əhəmiyyətli bir faktordur. Cəmiyyətin sosioloji strukturu, davranış və stimullarını nəzərə alaraq bu istiqamətdə qayda pozuntularının minimumlaşdırılması və sosial həmrəyliyin təşviqi antiböhran idarəçiliyinin mühüm tərkib elementi kimi dəyərləndirilməlidir. İndiki halda mümkün mənfi kənar təsirləri azaltmaq istiqamətində karantin qaydalarının pozulmasına görə tətbiq edilən cərimələr və onların miqdarına ictimai münasibə-

tin öyrənilməsi də tədqiqatın əsas prioritetlərindən biri kimi xarakterizə edilə bilər.

Belə ki, karantin qaydalarını pozan şəxslərin cərimələnməsi təşəbbüsünə respondentlərin mövqeyi müvafiq olaraq 79.6% müsbət, 17.5%-lik göstərici ilə mənfi kimi xarakterizə edilə bilər. Sonrakı sorğu mərhələsində tətbiq olunan cərimə miqdarları ilə bağlı münasibət isə fərqli trendlə müşahidə edilir. Nəticələrə əsaslanaraq qeyd edə bilərik ki, cərimə miqdarlarını müsbət qiymətləndirən respondentlər ümumi rəyi öyrənilənlərin 55.9%-ni təşkil etdiyi halda əks mövqedən çıxış edənlər 37.4%-lik göstərici ilə təmsil olunurlar. Son mərhələdə keçirilən sorğu nəticələri isə cərimə miqdarlarının təkrar artırılmasının 67% respondent tərəfindən müsbət qiymətləndirildiyini göstərir. Maraqlı məqam ondan ibarətdir ki, cəmiyyətdə karantin rejiminin tələblərini pozanlara qarşı cərimələrin tətbiq edilməsinə münasibət müsbət olduğu kimi (79.6%) cərimə miqdarlarının artırılmasına da münasibətdə müsbət mövqe üstünlük təşkil edir.

- Birinci qrupa aid olan (Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu) respondentlərin 57.3%-i karantin rejimini pozan şəxslərə tətbiq olunan cərimə miqdarı ilə bağlı qərarları müsbət qiymətləndirdiyi halda digər şəhər və rayonları özündə cəmləşdirən ikinci qrup respondentlərin 54.8%-i sözügedən istiqamətdə verilmiş qərarları müsbət qiymətləndirib.
- Sözügedən dövlət tədbiri ilə ən güclü korrelyasiya həftə sonu tam izolyasiya tədbirinin tətbiqi ilə bağlı strateji qərara aiddir ($r=0.398$, $p<0.01$).
- Karantin qaydalarının pozulmasına görə tətbiq olunan cərimə miqdarlarının təkrar artırılması ilə nisbətən yüksək statistik əlaqə xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda məhdudiyyətlərin müddətinin uzadılması arasındadır ($r=0.397$, $p<0.01$).
- Karantin qaydaları ilə əlaqədar verilmiş sonuncu qərara görə isə SMS icazə sisteminin yenidən tətbiqi tədbirini müsbət qiymətləndirən respondentlərin 74.7%-i eyni dövrdə müvafiq cərimə miqdarlarının artırılmasına da müsbət fikir bildirib.
- Cərimə miqdarlarının təkrar artırılmasına mənfi fikir bildirən 29.9% respondentin 23.1%-i hüquq-mühafizə orqanlarının pandemiya şəraitindəki fəaliyyətini mənfi qiymətləndirib.

Karantin qaydalarının pozulmasına görə tətbiq olunan cərimə miqdarlarının müxtəlif mərhələlərdə artırılması tədbiri ilə bağlı tədqiqatın ayrı-ayrı fazalarında münasibət bildirən respondent profillərindəki müqayisəli tendensiyası aşağıdakı kimidir:

**Karantin qaydalarının pozulmasına görə tətbiq olunan cərimələrə münasibət**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[3]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri









## 2.2.4. XÜSUSİ KARANTİN DÖVRÜNDƏ HƏRƏKƏTİN TƏNZİMLƏNMƏSİ

19 mart tarixindən etibarən ölkə ərazisində hərəkətin tam məhdudlaşdırılmasına başlanılıb, bu məqsədlə Bakı-Ələt yolunun 65-ci km-də, Bakı-Şamaxı yolunun 26-cı km-də, Bakı-Quba yolunun 45-ci km-də, 29 mart tarixindən ölkə üzrə bütün rayon və şəhərlərin giriş-çıxış hissəsində postlar quraşdırılıb;
5 may tarixindən etibarən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla digər rayon və şəhərlərə hərəkət məhdudiyyəti götürülüb;
Bu dövr ərzində təcili tibbi yardım, qəza-bərpa, xilasedici, yükdaşıyan avtomobillərin hərəkətinə məhdudiyyət qoyulmayıb







Ölkə üzrə virusun yayılma sürətinin və miqyasının qarşısının alınması istiqamətində mart ayının 19-dan 29-nadək Bakı-Ələt yolunun 65-ci, Bakı-Şamaxı yolunun 26-cı və Bakı-Quba yolunun 45-ci kilometrliyində, həmçinin rayonların giriş-çıxış hissələrində postlar quraşdırılıb, xüsusi təyinatlı, o cümlədən təcili tibbi yardım, qəza-bərpa, xilasedici, habelə yük daşıyan avtomobillərin hərəkəti istisna olmaqla paytaxt və Sumqayıt şəhəri istiqamətinə bütün növ nəqliyyat vasitələrinin girişi, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda qeydiyyatda olan sərnişindaşıma nəqliyyat vasitələrinin ölkənin başqa şəhər və rayonlarına hərəkəti məhdudlaşdırılıb. May ayının 5-dən etibarən digər rayonlararası giriş-çıxış məhdudiyyəti götürülüb, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonuna giriş-çıxış məhdudiyyəti qüvvədə qalıb.

Mart ayının 29-dan etibarən Bakı metrosunun iş vaxtı səhər 07:00-09:00 və axşam 17:00-20:00 intervalında müəyyənləşdirilib, mart ayının 31-dən etibarən fəaliyyəti müvəqqəti dayandırılıb və may ayının 9-dan etibarən yenidən fəaliyyətə başlayıb. Bakı Nəqliyyat Agentliyi tərəfindən metro stansiyaları arasında müəyyən edilmiş marşrut əsasında xüsusi ekspress avtobus xətləri təmin edilib.

Həmçinin ictimai yerlərdə, o cümlədən küçələrdə, bulvarlarda, parklarda və sair yerlərdə şəxslərin 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağan edilib, 65 yaşdan yuxarı şəxslərin yaşayış yerini tərk etməsi may ayının 15-dək məhdudlaşdırılıb. İnsanlararası təmaslarda 2 metrlik sosial məsafə tətbiq olunub, bütün kütləvi tədbirlər təxirə salınıb.

Karantin dövrü ərzində ölkə ərazisində fəaliyyət göstərən dövlət və özəl sektora məxsus fəaliyyət sahələrində xüsusi iş rejimi tətbiq olunub. Bununla belə, ərzaq mağazalarının, apteklərin və digər həyat əhəmiyyətli obyektlərin fəaliyyət qrafikində dəyişiklik nəzərdə tutulmayıb.

Xüsusi karantin dövründə şəxslərin hərəkətinin tənzimlənməsi ilə bağlı həyata keçirilən tədbirləri müxtəlif istiqamətlərdə dəyərləndirmədən öncə bu tədbirlərə cəmiyyətin ümumi rəyini aşağıdakı

**Xüsusi karantin dövründə şəxslərin hərəkətinin tənzimlənməsi ilə bağlı tədbirlərə münasibət**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

kimi xarakterizə edə bilərik: ilkin mərhələdə keçirilmiş sorğunun nəticələrinə əsasən rəyi öyrənilən respondentlərin əhəmiyyətli hissəsi- 83.5%-i hərəkətin məhdudlaşdırılmasını müsbət mövqedən çıxış edib, sadəcə 13.6% respondent bu təşəbbüsü məqbul görmədiyini bəyan edib. Respondentlərin 3%-i isə bu məsələyə ümumiyyətlə mövqe bildirməyib.

Digər tərəfdən bu çərçivədə həyata keçirilən kompleks tədbirlərin yumşaldılması ölkə üzrə virusun yoluxma sürəti və yoluxma sayını artırdığı üçün spesifik yanaşmalar tətbiq edilib. Şəxslərin hərəkətinin tənzimlənməsi ilə bağlı tədbirlərin yumşaldılmasına münasibət bildirən respondentlərin 84.8%-i müsbət mövqe bildirdikləri halda, 11.5% respondent əks mövqedən çıxış edib.

- Xüsusi karantin dövründə şəxslərin hərəkətinin tənzimlənməsi ilə bağlı atılan önəmli addımlardan biri kimi Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonuna giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılması xüsusi əhəmiyyət kəsb edib. İctimai rəyin təhlili bizə onu deməyə əsas verir ki, bu tədbirə müsbət münasibət bildirən respondentlər ümumi respondentlərin 57.7%-ni təşkil edib. Əks mövqedən çıxış edənlər isə 35.1% civarında olub.

- İri şəhər və bəzi rayonlarda karantin rejiminin uzadılmasını dəstəkləyən 79.2% respondentin 73.9%-i, digər tərəfdən isə bu tədbiri mənfi dəyərləndirən 14.8% respondentin 55.8% karantin rejimindən çıxışda eyni mövqeni sərgiləyib ($X^2(1)=22.871$, $p<0.01$).

- Karantin rejiminin sərtləşdirildiyi və eyni zamanda sərtləşdirilmə tədbirlərinin qüvvədə saxlanıldığı şəhər və region respondentlərinin 82.9%-i, sərt karantin rejiminin tətbiq edilmədiyi coğrafi bölgələrdə isə 86.3%-i ölkə üzrə karantin rejiminin uzadılmasını müsbət qiymətləndirib.

- İri şəhər və bəzi rayonlarda karantin rejiminin uzadılması tədbiri ilə yüksək statistik korrelyasiya əsasən iyulun 20-nə kimi sözügedən şəhər və rayonlarda bəzi fəaliyyət sahələrinin məhdudlaşdırılması tədbiri kimi təsbit edilib ($r=0.510$, $p<0.01$).

- Birinci qrup respondentlərin 84.8%-i sözügedən yumşaldılma tədbirini müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 84.9%-lik göstərici ilə eyni mövqe sərgiləyib.

- Digər tərəfdən karantin rejimi paytaxt Bakıda vətəndaşların ictimai nəqliyyatdan istifadəsi istiqamətində spesifik təhlükəsizlik tədbirlərinin reallaşdırılması ilə müşayiət olunub. Məhz bu çərçivədə qiymətləndirmədə öz münasibətini bildirən respondentlərin rəyi bizə onu deməyə əsas verir ki, ekspress avtobus marşrutlarının müəyyənləşdirilməsi və metronun fəaliyyətinin müvəqqəti dayandırılmasına 91.4% respondent müsbət reaksiya verdiyi halda, 4.7% respondent bu strateji qərarlara mənfi münasibət bildirib. 3.9% respondent fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

Maraqlı məqam ondan ibarətdir ki, məhz bu mərhələdə COVID-19 ilə mübarizə çərçivəsində verilmiş növbəti qərar kimi digər rayonlar və şəhərlərarası hərəkət məhdudiyyətinin götürülməsinə münasibətdə pozitiv mövqe 85.6%, neqativ mövqe 11.3% civarında olub. 3.1% respondent isə bu məsələyə münasibət bildirməkdə çətinlik çəkdiyini bəyan edib.

- Digər rayon və şəhərlərarası hərəkət məhdudiyyətinin tətbiq edilməsi ilə yüksək statistik korrelyasiya həmin mərhələdə həyata keçirilən həftəsonu tam izolyasiya tədbiri arasındadır ($r=0.556$, $p<0.01$).

- Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonuna giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılmasına müsbət münasibət bildirənlərin əhəmiyyətli hissəsi (86.3%) digər şəhər və rayonlararası hərəkət məhdudiyyətinin götürülməsi təşəbbüsünü müsbət qiymətləndirib.

- Birinci qrup respondentlərin 63.2%-i Bakı, Sumqayıt, Gəncə,




**Qeyd:** [1]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

Lənkəran şəhərləri və Abşeron rayonuna giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılması tədbirini müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 53.4%-lik göstərici ilə eyni mövqe sərgiləyib.

- Birinci qrup respondentlərin 84.8%-i digər rayonlar və şəhərlərarası hərəkət məhdudiyyətinin götürülməsi tədbirini müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 86.3%-lik göstərici ilə həmfikir rəy sərgiləyib.

Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən antiböhran tədbirlərindən biri kimi metronun fəaliyyətinin tənzimlənməsi istiqamətində verilən qərarlara ictimai rəyin öyrənilməsi də xüsusi əhəmiyyət kəsb edir.

- Tədqiqatın dördüncü mərhələsində öyrənilən ictimai rəy məlumatlarına əsaslanaraq metronun fəaliyyətinin bərpa olunmasına münasibət bildirməkdə çətinlik çəkdiklərini bəyan edən 23.1% respondentin sadəcə 4.4%-i paytaxt respondentlərindən ibarətdir. Digər tərəfdən bu tədbiri mənfi qiymətləndirən 21.6% respondentin 32.1%-i də paytaxt respondentlərindən ibarətdir.

- Metronun fəaliyyətinin təkrar dayandırılmasını müsbət qiymətləndirən 70.5% respondentin əhəmiyyətli hissəsi (95%) eyni zamanda dövlətin pandemiya ilə mübarizə siyasətini müsbət qiymətləndirib.

- Bu istiqamətdə mənfi mövqedən çıxış edən 14.6% respondentin 60.6%-i karantin rejimindən mərhələli çıxış strategiyasını dəstəklədiyini bəyan edib. Sözügedən respondent kəsiminin 60.8%-i həm də COVID-19 virusuna yoluxmaqdan qorxduğunu da bildirib.

- Bu çərçivədə verilmiş strateji qərar kimi metronun fəaliyyətinin təkrar dayandırılmasına müsbət mövqe sərgiləyən respondentlərin 72.4%-i, əks mövqedən çıxış edənlərin isə 60.6%-i karantin rejimindən mərhələli çıxışı məqbul hesab ediblər.

- Birinci qrup respondentlərin 62.6%-i metronun fəaliyyətinin bərpa edilməsini müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 49.8%-lik göstərici ilə həmfikir mövqe sərgiləyib.

- Metronun fəaliyyətinin bərpa edilməsi ilə bağlı qərar ilə “mall” və iri ticarət obyektlərinin açılması qərarı arasında müqayisə etibarilə ciddi korrelyasiya mövcuddur ($r=0.537$, $p<0.01$).

- Bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyətin götürülməsini mənfi qiymətləndirən 25.7% respondent coğrafi baxımdan əsasən Aran iqtisadi rayonuna (30.6%) təsadüf etməkdədir. Bu məhdudiyyətin götürülməsini müsbət qiymətləndirən respondentlərin çoxu Bakı şəhərinə aid olmaqla 29.7% civarında təsbit edilib.

- Bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyətin götürülməsi tədbiri ilə ən ciddi statistik korrelyasiya metronun fəaliyyətinin bərpa olunması arasında müşahidə edilməkdədir ($r=0.516$, $p<0.01$). Qeyd etmək lazımdır ki, bu təsbit tədqiqatın dördüncü mərhələsi çərçivəsində həyata keçirilən sosioloji rəy sorğusunun nəticələrinə əsaslanmaqdadır.

- Digər tərəfdən son tənzimləmə tədbiri kimi ictimai yerlərdə, bulvar, park və istirahət məkanlarında qrup şəklində cəmləşmənin məhdudlaşdırılması tədbirini ümumi respondentlərin əhəmiyyətli hissəsi (92.6%) müsbət dəyərləndirib. Hesab edirik ki, bu tədbir son dövrlər yoluxma statistikasında müşahidə edilən dinamika ilə bilavasitə bağlıdır. Onu da qeyd edə bilərik ki, bu mövqedən çıxış edən respondentlərin 93.7%-i eyni zamanda dövlətin pandemiya ilə mübarizə siyasətini ümumilikdə yüksək qiymətləndirib.

- Bu təşəbbüsü mənfi qiymətləndirən 5.9% respondentin 52.9%-i isə eyni zamanda COVID-19 virusuna yoluxmaqdan qorxduğunu bəyan edib.

- Birinci qrup respondentlərin 62.6%-i bulvar, park və istirahət




**Qeyd:** [1]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

məkanlarına girişə tətbiq olunan məhdudiyyətin götürülməsi təşəbbüsünü müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 52.5%-lik göstərici ilə həmfikir mövqe sərgiləyib.

- Sərtləşdirilmiş karantin rejimindən mərhələli çıxış çərçivəsində verilmiş sözügedən qərar ilə metronun fəaliyyətinin bərpa edilməsi ilə bağlı qərar arasında müqayisə etibarilə ciddi korrelyasiya mövcuddur ($r=0.516$, $p<0.01$).

- Bəzi şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyatın hərəkətinin məhdudlaşdırılması tədbirlərinə müsbət rəy bildirmiş respondentlərin 73.0%-i, bu tədbiri məqbul hesab etməyən 22.9% respondentin isə 63.8%-i karantin rejimindən mərhələli çıxışın optimal olduğu qənaətindədir ($X^2(1)=8.174$, $p<0.01$).

- Bəzi şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyatın hərəkətinin məhdudlaşdırılması tədbirləri ilə sözügedən dövr üçün tətbiq edilən yüksək statistik əlaqənin mövcud olduğu tədbir kimi metronun fəaliyyətinin təkrar dayandırılması tədbirini qeyd edə bilərik ($r=0.566$, $p<0.01$).

- Bu karantin tədbirini müsbət qiymətləndirən 73.7% respondentin 73.3%-i COVID-19 virusuna yoluxmaqdan qorxduğunu açıq şəkildə bəyan edib ($X^2(1)=20.087$, $p<0.01$).

- Bəzi şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyatın hərəkətinin məhdudlaşdırılması tədbirlərinin bilavasitə təsir etdiyi respondent qrupunun 74.6%-i, tədbirlərin tətbiqinin bilavasitə aidiyyətı olmadığı respondent seqmentinin isə 78.1%-i sözügedən qərarı müsbət qiymətləndirib.

- Sözügedən tədbiri müsbət qiymətləndirən 73.7% respondentin 91.0%-i pandemiya ilə mübarizə siyasəti çərçivəsində müvafiq dövlət qurumlarının məlumatlarına əhəmiyyətli dərəcədə etibar etdiyini bəyan edib.

- Bəzi şəhər və rayonlarda həftəsonları ictimai nəqliyyatın hərəkətinin məhdudlaşdırılması tədbirlərinə müsbət rəy bildirənlərin 88.9%-i, əks mövqedən yanaşanların isə 77.8%-i hüquq mühafizə orqanlarının bu istiqamətdəki fəaliyyətini müsbət qiymətləndirib.

- Bu istiqamətdə mənfi fikir bildirən 22.9% respondentin isə 44.8%-i karantin rejimi qaydalarının pozulmasına görə tətbiq edilən cərimə miqdarlarının artırılmasına müsbət mövqedən çıxış edib ($X^2(1)=101.195$, $p<0.01$). Qeyd olunan istiqamətlər üzrə sorğuda iştirak edən respondentlərin profillərinə dair məlumatlar aşağıda göstərildiyi kimidir.









Şəxslərin hərəkətinin məhdudlaşdırılmasına münasibət bildirənlərin profili




Şəxslərin hərəkət məhdudiyyətinin yumşaldılmasına münasibət bildirənlərin profili




Metronun fəaliyyətinin bərpa olunmasına münasibət bildirənlərin profili




Metronun fəaliyyətinin təkrar dayandırılmasına münasibət bildirənlərin profili




Bulvar, park və istirahət məkanlarına giriş məhdudiyyətinin götürülməsinə münasibət bildirənlərin profili




İctimai yerlərdə, bulvar, park və istirahət məkanlarında qrup şəklində cəmləşmə məhdudiyyətinə münasibət bildirənlərin profili



## 2.2.5. XÜSUSİ KARANTİN DÖVRÜNDƏ İŞ REJİMİNİN TƏNZİMLƏNMƏSİ




Ölkə ərazisində fəaliyyət göstərən kafe, restoran, internet klubları və adamların toplaşdığı digər ictimai-iaşə müəssisələrinin iş müddəti mart ayının 14-dən başlayaraq tənzimlənməyə başlanıb, mart ayının 22-dən etibarən iş rejimi səhər saat 09.00-dan 15.00-dək, mart ayının 24-dən etibarən isə 12.00-dan 15.00-dək müəyyən edilib. Mart ayının 29-da evə götürmə, çatdırılma və onlayn satışlara məhdudiyyətsiz icazə verilməklə yerində iş və xidmət dayandırılıb. Həmçinin 24 mart tarixindən etibarən iri ticarət mərkəzləri və "mall"arın fəaliyyəti dayandırılıb.

Mart ayının 31-dən may ayının 31-dək siyahısı müəyyən olunan (rəhbərləri və zəruri halda işçiləri işə cəlb olunan) qurumlar istisna olmaqla, dövlət orqanlarında və qurumlarında işə cəlb edilməyən işçilərin əmək haqqı saxlanılıb, işlərin distant və tele-iş formasında həyata keçirilməsi qərarlaşdırılıb. Aprel ayının 27-dən etibarən ölkə üzrə bəzi iş və xidmət sahələrində, may ayının 4-dən etibarən bölgələrdə dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti, Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə isə məhdud sayda fəaliyyəti təmin olunub, həmçinin bölgələrdə restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər bərpa olunub. 31 may tarixindən etibarən ölkə üzrə dövlət qurumlarının fəaliyyəti tam bərpa olunub, iri şəhərlərdə iş və xidmət sahələrinin fəaliyyəti müəyyən vaxt intervalları çərçivəsində tənzimlənib.

Oksford COVID-19 Hökumətlərin Reaksiya Siyasətlərinin Monitorinq (Coronavirus Government Response Tracker) nəticələrinə görə, aşağıdakı qrafikdən də göründüyü kimi, karantin strategiyaları çərçivəsində iş rejimlərinin tənzimlənməsi ilə bağlı qərar vermiş əksər ölkələrdə işçilərin dinamikasında azalma trendi müşahidə edilib[39].

**Xüsusi karantin dövründə iş rejiminin tənzimlənməsi ilə bağlı tədbirlərə münasibət**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[3]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

[39] *https://www.bsg.ox.ac.uk/research/research-projects/coronavirus-government-response-tracker*

**Karantin dövründə iş rejimlərinin tənzimlənməsi tədbirləri və işsizlik səviyyəsi arasında əlaqə**




İş rejimlərinin tənzimlənməsi ilə bağlı tədbirlər antiböhran idarəçiliyinin əsas determinantlarından biri olmaqla yanaşı, hökumətlər üçün ciddi sosial-iqtisadi əks təsirlər ilə xarakterizə edilməkdədir. Ancaq bu da bir faktdır ki, yoluxma hallarının azaldılması və səhiyyə şoku ilə qarşılaşmamaq üçün sosial izolyasiya çərçivəsində bu tədbir ilk sıralarda qərarlaşır. İlkin mərhələdə qabaqlayıcı tədbirlər perspektivindən bu məsələyə ictimai rəy 87.7% müsbət, 9.6% mənfi kimi formalaşıb. Eyni zamanda 2.7% respondent qiymətləndirmə ilə bağlı dilemma qarşısında qalıb.

Sözügedən tədbirlərin yumşaldılması ilə bağlı ictimai rəy sosial-iqtisadi rifah məsələlərini də nəzərə almaqla aşağıdakı kimi formalaşıb:

- Tədqiqatın birinci mərhələsində keçirilmiş sorğu nəticələrinin deskriptiv təhlilinə əsaslanaraq qeyd edə bilərik ki, iş rejiminin məhdudlaşdırılması ilə bağlı tədbirləri müsbət qiymətləndirənlərin 82.1%-i, eyni zamanda mənfi rəy bildirən 9.6% respondentin 61.7%-i karantin rejimindən mərhələli çıxışı məqbul hesab etdiklərini bəyan edib ($X^2(1)=26.629$, $p<0.01$).
- İş rejiminin təkrar məhdudlaşdırılması ilə bağlı tədbirləri müsbət qiymətləndirən 75.9% respondentin 72.5%-i, bu tədbiri mənfi qiymətləndirən respondentlərin isə 64.6%-i karantin rejimindən mərhələli çıxışı məqbul hesab etdiklərini bildirib.









- Bu iki tədbirin tətbiq edildiyi aralıqda reallaşdırılan yumşaldılma ilə bağlı təşəbbüsü müsbət qiymətləndirən respondentlərin ümumi rəyi öyrənilənlərin içindəki payı 94.1%-lə olduqca yüksək nəticə ilə xarakterizə edilib. Bu respondent kəsiminin 69.3%-i eyni zamanda karantin rejiminin uzadılması təşəbbüsünü də müsbət qiymətləndirib.

- İş rejiminin təkrar məhdudlaşdırılması ilə bağlı tədbirləri mənfi qiymətləndirən 20.3% respondentin 77.3%-i dövlətin pandemiya ilə mübarizə siyasətini müsbət qiymətləndirib ($X^2(1)=62.937$, $p<0.01$).

- İş rejiminin təkrar məhdudlaşdırılması ilə bağlı tədbirləri müsbət qiymətləndirən respondentlərin əhəmiyyətli hissəsi (87.8%) SMS icazə sisteminin tətbiqini pozitiv qarşıladığını bəyan edib ($X^2(1)=67.495$, $p<0.01$).

- Sözügedən tənzimləmə tədbirini mənfi qiymətləndirən 20.3% respondentin 64.0%-i COVID-19 virusuna yoluxmaqdan qorxduğunu açıq şəkildə bəyan edib.

- Birinci qrup respondentlərin 97.7%-i sözügedən iş rejiminin məhdudlaşdırılması ilə bağlı tədbirlərin yumşadılmasını müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 91.3%-lik göstərici ilə həmfikir rəy sərgiləyib.

- İş rejiminin məhdudlaşdırılması ilə bağlı tədbirlərin yumşaldılması qərarı ilə dövlət qurumlarının fəaliyyətinin bərpa edilməsi ilə bağlı qərar arasında müqayisə etibarilə ciddi korrelyasiya mövcuddur ($r=0.524$, $p<0.01$).

Qeyd etmək lazımdır ki, iş rejiminin məhdudlaşdırılması ilə bağlı tədbirlərin yumşaldılması sektor və konkret seqmentlərin spesifikası nəzərə alınmaqla həyata keçirilib. Bu yanaşma Beynəlxalq Əmək Təşkilatının müxtəlif simulyasiya əsaslı proqnozları ilə əsasən uyğunluq təşkil edir. Sözügedən istiqamətlər üzrə sorğuda iştirak etmiş respondentlərin profilləri aşağıda verildiyi kimidir.

- Restoran, ictimai iaşə və xidmət obyektlərinin fəaliyyətinin bərpa edildiyi yumşaldılma tədbiri ilə əhəmiyyətli statistik korrelyasiya əsasən iş rejimi məhdudiyyətlərinin yumşaldılması tədbiri ilə qeydə alınıb ($r=0.437$, $p<0.01$).

- Karantin rejiminin yumşaldılması tədbiri çərçivəsində tətbiq edilən restoran, ictimai iaşə və xidmət obyektlərinin fəaliyyətinin bərpası tədbirini ən müsbət qiymətləndirən region kimi Bakı şəhəri (27.0%) və digər tərəfdən baxdıqda ən mənfi mövqe sərgiləyən region kimi isə Aran iqtisadi rayonu (24.5%) fərqlənir.

- Birinci qrup respondentlərin 69.6%-i sözügedən restoran, ictimai iaşə və xidmət obyektlərinin fəaliyyətinin bərpa olunmasını müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 62.6%-lik göstərici ilə həmfikir rəy sərgiləyib.




**Qeyd:** [1]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri






*Beynəlxalq Əmək Təşkilatına (ILO) görə tam və ya qismən məhdudiyyətlər dünyada əmək qüvvəsinin 81%-nə - 2.7 milyard insana təsir göstərib.*

*Sözügedən Təşkilatın təxminlərinə görə, pandemiyadan aşağıdakı sektorlar daha çox təsirlənəcəklər:*

- *Nəqliyyat və turizm sektoru aylıq təqribən 1 milyard avro həcmində itki ilə üzləşəcək.*
- *Pandemiyadan ən çox təsirlənən sektorlardan biri maşınqayırma sənayesi olacaq. 2017-ci il üzrə göstəricilərə görə, bu sektorda işləyənlərin sayı 14 milyona yaxındır. Avtomobil fabriklərinin bağlandığı və tədarük zəncirinin dayandığı dövrdə məcmu tələbin azalması ilə bu sektordakı işçilərin böyük əksəriyyətinin işini itirəcəyi ehtimal olunmaqdadır.*
- *Aviasiya sənayesində çalışan 10.2 milyon işçinin bu sahədə fəaliyyətin dayandırılması səbəbindən mənfi istiqamətdə təsirlənəcəyi şübhəsizdir.*
- *Tekstil, geyim və dəri sektorunun epidemiyadan mənfi təsirlənən sahələr arasında olacağı təxmin edilməkdədir.*

- Dövlət qurumlarının fəaliyyətinin bərpa olunması və sonrakı mərhələdə yoluxma dinamikasının yüksələn xətt üzrə inkişafını nəzərə alaraq yenidən məhdudlaşdırma tədbirlərinin tətbiqi çərçivəsində rəy göstəricilərinin müqayisəli təhlili bizə sonuncu təşəbbüsü mənfi qiymətləndirən respondentlərin sayında kəskin azalmanın (81.1%) müşahidə edildiyini söyləməyə imkan verir.

- Dövlət və özəl sektorda fəaliyyətin təkrar məhdudlaşdırılması tədbirlərini mənfi qiymətləndirən 17.5% respondentin 77.3%-i dövlətin pandemiya ilə mübarizə siyasətini müsbət qiymətləndirməklə yanaşı, karantin rejimindən mərhələli çıxışı əsas etibarilə yüksək qiymətləndirib (64.6%).

- Dövlət və özəl sektorda fəaliyyətin təkrar məhdudlaşdırılması tədbirlərini mənfi qiymətləndirən 17.5% respondent karantin qaydalarının pozulmasına görə tətbiq edilən cərimələrin artırılmasını müsbət qiymətləndirib ($X^2(1)=51.928$, $p<0.01$).

- Birinci qrup respondentlərin 93.6%-i dövlət qurumlarının fəaliyyətinin bərpa olunmasını müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 91.8%-lik göstərici ilə həmfikir rəy sərgiləyib.

- “Mall” və iri ticarət obyektlərinin fəaliyyətinin bərpa olunması ilə yumşaldılma təşəbbüsünün əsas determinantlarından biri kimi ən ciddi statistik korrelyasiya metronun fəaliyyətinin bərpa olunması tədbiri arasındadır ($r=0.537$, $p<0.01$).

- Birinci qrup respondentlərin 66.1%-i sözügedən “mall” və iri ticarət obyektlərinin açılmasını müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 59.8%-lik göstərici ilə həmfikir mövqe sərgiləyib.

Ayrı-ayrı dövrlərdə dövlət və qeyri-dövlət sektorunda fəaliyyətin məhdudlaşdırılmasına və bərpasına münasibət bildirənlərin profil göstəriciləri aşağıda qeyd olunduğu kimidir.






# 2.2.6. XÜSUSİ KARANTİN DÖVRÜNDƏ TƏHSİL PROSESİNİN TƏNZİMLƏNMƏSİ

Təhsil Nazirliyinin təşkilatçılığı ilə teledərslərin yayımına başlanılıb, elektron portal istifadəyə verilib.
Nazirlər Kabineti, Təhsil Nazirliyi və DİM tərəfindən bütün təhsil pillələri üzrə xüsusi imtahan qaydaları müəyyənləşib.
Müddətli əmək müqaviləsi ilə işə qəbul edilmiş müəllimlərlə müddətsiz əmək müqaviləsinin bağlanılması məqsədilə onlayn müsahibələr keçirilib.
Sosial baxımdan həssas əhali qrupuna aid edilən tələbələrin təhsil haqqı xərclərinin dövlət tərəfindən ödənilməsi nəzərdə tutulub.







Pandemiyanın ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər çərçivəsində ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin intensivləşdirilməsi məqsədilə mart ayının 3-dən 9-dək bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılmasına və bununla bağlı bütün tədbirlərin təxirə salınmasına qərar verilib. Nazirlər Kabinetinin 7 mart tarixli sərəncamına əsasən ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə bu müddət mart ayının 10-dan 20-dək uzadılıb.

Nazirlər Kabinetinin 20 mart tarixli sərəncamına əsasən yoluxma hallarının qarşısının alınması məqsədilə sosial təcrid tədbirləri çərçivəsində mart ayının 29-dan aprel ayının 18-dək bütün təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi dayandırılıb, bu müddət 18 aprel tarixində verilən növbəti sərəncamla aprel ayının 20-dən may ayının 2-dək uzadılıb. 1 may tarixli sərəncamla qeyd olunan məhdudlaşdırmaların qüvvəsi may ayının 4-dən 31-dək uzadılıb, 30 may tarixindən etibarən isə təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesi tədris ilinin sonunadək dayandırılıb.

Bu istiqamət üzrə qlobal tendensiyaya nəzər yetirdikdə pandemiyanın yaratdığı kardinal dəyişikliklərdən biri kimi ümumtəhsil, texniki-peşə və ali təhsil müəssisələrinin fəaliyyətinin ənənəvi formadan məsafədən (distant) formaya transformasiyasını qeyd edə bilərik. Təbii ki, bu tənzimləmə tədbirləri başda təhsilalanlar olmaqla təhsil sektorunda çalışanların virusa yoluxma riskinin azaldılması, eləcə də ümumölkə miqyasında yoluxma dinamikasının minimum səviyyədə saxlanılmasına hesablanıb. Bütün hallarda təhsil müəssisələrində tədris, təlim-tərbiyə prosesinin dayandırılması qlobal miqyasda analoji xarakter alıb. Bununla yanaşı, sözügedən qərarın istər lokal, istərsə də qlobal miqyasda təhsil sistemində ləngimələrə səbəb olacağı amili də yüksək qiymətləndirilir.

Məhz bu kontekstdən çıxış edərək Beynəlxalq Əmək Təşkilatı, UNESCO və Dünya Bankının 126 ölkə üzrə apardığı araşdırmanın nəticələrinə görə, qlobal miqyasda təhsilin 2/3 hissəsindən çoxu-

| Dünyadakı cari vəziyyət | |
|---|---|
| 188 ölkə | Bütün təhsil ocaqlarını bağlayıb ya da rəqəmsal iş rejiminə keçib |
| 91,3% təhsil alan | Hazırda distant yolla təhsil alırlar |
| 1.576 milyard təhsil alan | Hazırda təhsil ocaqlarına getmirlər |
| Dünyada rəqəmsal təhsilin mövcud problemləri | |
| Distant təhsil almaq üçün texniki imkan yoxdur | Distant təhsilə keçid bir çox təhsil alanları (xüsusilə aztəminatlı ailələrdən olanları) kompüter, planşet, ya da internetə çıxış olmadığından təhsil almaq İmkanından məhrum etmişdir |
| Kompüter və planşetdən istifadə üçün zəruri vərdişlər yoxdur | Qeyd olunur ki, heç də bütün təhsil alanlar distant təhsildən kompüterdən istifadə üçün zəruri bilik və bacarıqları olmadığına görə istifadə edə bilmirlər |

**Xüsusi karantin dövründə tədris prosesinin tənzimlənməsi ilə bağlı tədbirlərə münasibət**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

nun məsafədən, xüsusilə internet üzərindən həyata keçirildiyi təsbit edilib. Qeyd etmək lazımdır ki, bu, kifayət qədər ciddi tendensiyadır. Çünki dünya üzrə hər beş təhsil müəssisəsindən yalnız biri tədris prosesini ənənəvi qaydada həyata keçirib.

Pandemiya ilə mübarizə çərçivəsində 192 ölkə üzrə ümumtəhsil və ali məktəb müəssisələrinin fəaliyyətinin məhdudlaşdırılması 1.6 milyard və yaxud qlobal təhsilalanların 90%-nin tədris prosesinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərib. Təhsil müəssisələrinin fəaliyyətinin müvəqqəti dayandırılması prosesi dünya miqyasında 155 milyon məktəbəqədər təhsilalan, 691 milyon orta ümumtəhsil məktəblərində təhsilalan və nəhayət, 191 milyon ali məktəb tələbəsini əhatə edir.

Təhsil müəssisələrinin fəaliyyətinin müvəqqəti olaraq dayandırılması və tədrisin məsafədən (distant) platformalar üzərindən aparılması ölkəmizdə təhsil xidmətində birbaşa iştirak edən şəxslərə bu və ya digər formada təsir göstərdiyi üçün bu istiqamətdə ictimai rəy də öyrənilib. Belə ki, ilkin mərhələdə təhsil müəssisələrinin fəaliyyətinin müvəqqəti dayandırılması ilə bağlı tədbirlərə münasibət 83.3% respondent tərəfindən müsbət qiymətləndirildiyi halda, 13.3% respondent tərəfindən mənfi qiymətləndirilib. Rəyi öyrənilənlərin sadəcə 3.4%-i bu barədə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- İlkin mərhələdə keçirilmiş rəy sorğusunun nəticələrinə əsaslanaraq qeyd edə bilərik ki, xüsusi karantin dövründə təhsil prosesinin tənzimlənməsi çərçivəsində tədris müəssisələrinin fəaliyyətinin müvəqqəti dayandırılması tədbiri ilə ciddi statistik korrelyasiya əsas etibarilə iş rejiminin tənzimlənməsi ilə bağlı tədbirləri arasında müşahidə edilib ($r=0.571$, $p<0.01$).

- Mart ayından start verilən sözügedən tədbiri müsbət qiymətləndirən 83.3% respondentin 81.9%-i karantin rejimindən mərhələli çıxışı uyğun hesab etdikləri halda, növbəti mərhələdə, yəni iyun ayında keçirilən sorğuda tədris müəssisələrinin fəaliyyətinin dayandırılmasının uzadılmasını dəstəkləyən respondentlər arasında bu mövqedən çıxış edənlərin miqyası 58.1% təşkil edib.

- Tədris müəssisələrinin fəaliyyətinin müvəqqəti dayandırılmasının uzadılması tədbirinə ən çox mənfi rəy bildirən region kimi Aran iqtisadi rayonu (22.3%) fərqlənib. Bu tədbirə ən çox müsbət rəy bildirən region kimi isə Bakı şəhəri 27.8%-lik göstərici ilə ön sırada qərarlaşıb.

- Birinci qrupa daxil olan respondentlərin 66.1%-i təhsil müəssisələrində tədris prosesinin dayandırılmasının uzadılmasını müsbət qiymətləndirib. Digər qrup respondentlər isə müvafiq olaraq 59.8%-lik göstərici ilə həmfikir mövqe sərgiləyib.






## Qabaqlayıcı tədbirlərin tətbiq olunmasına münasibətin faktor analizi

Dövlətin vəziyyəti nəzarət altında saxlaması və eyni zamanda vətəndaşların sağlamlığının müdafiəsini təmin etməsi istiqamətində reallaşdırdığı sistemli tədbirlərə respondentlərin ümumi mövqeyi əhəmiyyətli dərəcədə müsbət göstəricilərlə xarakterizə edilir. Respondent rəylərinin faktor analizi müvafiq dövlət tədbirlərini 3 istiqamət üzrə qruplaşdırmağa imkan verir:

**1.** Daxili hərəkət məhdudiyyəti (SMS icazə sistemi, karantin qaydalarını pozanların cərimələnməsi, ölkə ərazisində hərəkət məhdudiyyətləri);

**2.** Xarici hərəkət məhdudiyyəti (dövlət sərhədlərinin məhdudlaşdırıcı rejim əsasında bağlanması);

**3.** Fəaliyyət məhdudiyyəti (iş rejiminin tənzimlənməsi, təhsil müəssisələrində tədris və təlim-tərbiyə prosesinin dayandırılması).

Sözügedən qruplar üzrə respondent rəylərinin dəyişkənliyi birinci faktor üzrə 55%, ikinci faktor üzrə 10% və nəhayət, üçüncü faktor üzrə 11% təşkil edir. Bu faktorlar üzrə Kronbax Alfa (Cronbachs Alpha) göstəriciləri müvafiq olaraq birinci faktor üzrə 0.762 olduğu halda, üçüncü faktor üzrə 0.718-dir. Respondentlərin məşğuliyyət kateqoriyası üzrə fərqli bölgüsü nəzərə alınaraq onları karantin rejimində gəlir səviyyəsinin elastikliyinə görə  3 (üç) qrupda qruplaşdıra bilərik:

**1.** Gəlirləri azalan – özəl sektorda çalışanlar (6.9%), fərdi əmək fəaliyyəti ilə məşğul olanlar (8%) və ev təsərrüfatı ilə məşğul olanlar (1.2%).

**2.** Gəlirləri stabil olaraq qalan – dövlət sektorunda çalışanlar (21.5%) və təqaüdçülər (21.3%)

**3.** Gəlirləri olmayan - işsizlər (17.2%), evdar qadınlar (20%) və tələbələr (3.9%)

- Bu üç məhdudiyyət istiqamətinin müqayisəli təhlili bizə onu deməyə əsas verir ki, rəyi öyrənilənlərin ikinci faktor ($t(1069)=12.571$, $p<0.01$) və üçüncü faktora münasibətdə ($t(1069)=10.052$, $p<0.01$) mövqeyi daha pozitivdir.

- ANOVA testinin nəticəsi göstərir ki, birinci faktora müqayisə etibarilə pozitiv yanaşma əks etdirən regionlar kimi Gəncə-Qazax iqtisadi rayonu fərqlənir. Eyni faktora nisbətən neqativ yanaşma isə Lənkəran iqtisadi rayonunda qeydə alınıb ($F(8)=24.776$, $p<0.01$).

- Respondentlərin gəlir səviyyəsinin elastikliyinə görə birinci faktora münasibətlərinin təhlili bizə onu deməyə əsas verir ki, gəlirləri stabil olaraq qalan qrupun münasibəti müqayisə olunanlar içərisində ən müsbətidir, ən mənfi mövqedə qərarlaşanlar isə gəlirləri azalan qrupdur ($F(2)=7.995$, $p<0.01$).

- İkinci faktora regional mövqe üzrə diqqət etsək Gəncə-Qazax və Yuxarı Qarabağ iqtisadi rayonları müsbət mənada fərqlənirlər, əks mənada fərqlənənlər isə Lənkəran və Şəki-Zaqatala iqtisadi rayonlarıdır ($F(8)=8.859$, $p<0.01$).

- Dövlət sərhədlərinin müvəqqəti bağlanması tədbirinə münasibətdə karantin dövründə gəliri stabil qalanlar daha müsbət mövqe sərgilədikləri halda, gəlirləri azalan və ümumiyyətlə olmayan respondentlər əks mövqedən çıxış edib ($F(2)=8.221$, $p<0.01$).

- ANOVA testinin nəticəsinə görə, üçüncü faktora münasibətdə Gəncə-Qazax iqtisadi rayonu nisbətən pozitiv yanaşma sərgilədiyi halda, Aran iqtisadi rayonu neqativ anlamda daha həssas region kimi qiymətləndirilə bilər ($F(8)=20.120$, $p<0.01$).

- Analoji olaraq üçüncü faktora respondentlərin gəlir səviyyəsinin elastiklik bölgüsü üzrə nəzər yetirsək, karantin dövründə gəliri stabil qalanlar daha pozitiv rəy bildirdikləri halda gəlirləri azalan və gəlirləri olmayan qrup respondentlər neqativ mövqedən çıxış edib ($F(2)=12.294$, $p<0.01$).


















Pandemiya ilə mübarizə çərçivəsində qabaqlayıcı tədbirlərə yönəlik ictimai rəyin öyrənilməsi və bu istiqamətdə optimal qiymətləndirməni təmin etmək üçün əldə olunan nəticələrin Eksplorator faktor analizi aparılıb və ictimai rəy üzrə əsas tendensiyalar təsbit edilib. Qeyd etmək lazımdır ki, dövlətin antiböhran siyasəti çərçivəsində həyata keçirdiyi qabaqlayıcı tədbirlər müxtəlif tarixi intervallarda bir çox faktorlar nəzərə alınmaqla yumşaldıcı və sərtləşdirici addımlarla xarakterizə olunur.

Bu məqamları da diqqət mərkəzində saxlamaqla spesifik mərhələlər üzrə keçirilmiş sorğunun nəticələri ayrı-ayrılıqda Eksplorator faktor analizi aparılıb və müvafiq nəticələr əldə edilib.

**Qabaqlayıcı tədbirlərin yumşadılmasına münasibətin Eksplorator faktor təhlili**

Bütün tədbirləri faktor analiz üzrə qiymətləndirdikdə 2 faktorlu struktur alırıq. Hər iki faktora daxil olan tədbirlər və onların faktor yükləri cədvəldə təqdim olunub. Birinci faktora daxil olan tədbirlərə nəzər yetirsək görərik ki, buradakı tədbirlərin hamısı yumşalma ilə əlaqədar olanlardır. İkinci faktorda isə sərtləşdirmə ilə əlaqədar olan tədbirlər analiz olunub. Sadəcə ikinci faktora daxil olan “təhsil müəssisələrində tədrisin dayandırılmasının uzadılması” tədbirinin faktor yükünün az olmasını (0.335) və faktorun Kronbaxın Alfasının həmin tədbiri faktordan sildikdə 0.802-dən 0.829-a yüksəlməsini nəzərə alaraq, bu tədbir sərtləşdirmə ilə bağlı olan tədbirlərdən fərqli qiymətləndirilir. Bu səbəbdən ikinci faktorun qiymətləndirilməsinə bu tədbiri daxil etmirik.

Respondentlərin hər iki faktora verdikləri qiymətlərin müqayisəsi onu göstərir ki, birinci faktor (F1-yumşaldılma tədbirləri) ikinci faktordan (F2-sərtləşdirmə tədbirləri) daha müsbət qiymətləndirilib ($T(214)=-3.075$, $p<0.01$, Mean(F1)=1.85, Mean(F2)=2.09).

Cinsiyyətə görə fərq qeydə alınmır. İkinci faktor şəhər yerlərində kəndlərdən daha müsbət qiymətləndirilir ($F(2)=6.849$, $p<0.01$). Yaş qruplarına və təhsil səviyyəsinə görə fərq qeydə alınmır. Dövlət sektorunda işləyənlər ikinci faktoru daha müsbət qiymətləndirirlər ($F(2)=3.860$, $p<0.05$).


Aprel 2020
İyun 2020
İyul 2020
1.0
Müsbət
Mənfi
4.0
2.70 İri şəhərlərə giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılması
2.71 Karantin qaydaları ilə bağlı cərimələrin tətbiq olunması
2.72 Təhsil prosesinin tənzimlənməsi
2.76 Həftəsonu tam izolyasiya tədbirlərinin tətbiqi
2.82 Karantin rejiminin uzadılması
2.84 İstirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyətin ləğvi
2.88 Restoran, ictimai iaşə və xidmət obyektlərinin fəaliyyətinin bərpası
2.89 Metronun fəaliyyətinin bərpası
2.92 Dövlət sərhədlərinin bağlı saxlanılması
3.01 "Mall" və iri ticarət mərkəzlərinin fəaliyyətinin bərpası
3.11 SMS icazə xidmətinin ləğv olunması
3.23 Şəxslərin hərəkətinin tənzimlənməsi
3.27 Digər rayonlar və şəhərlərarası hərəkət məhdudiyyətinin ləğvi
3.38 Qoruyucu tibbi maskalardan istifadənin məcburiliyi
3.41 İş rejiminin tənzimlənməsi
3.46 Dövlət qurumlarının fəaliyyətinin bərpası
3.36 Karantin qaydaları ilə bağlı cərimələrin tətbiq olunması
3.42 Şəxslərin hərəkətinin tənzimlənməsi
3.43 Təhsil prosesinin tənzimlənməsi
3.52 İş rejiminin tənzimlənməsi
3.58 SMS icazə xidmətinin tətbiq olunması
3.72 Dövlət sərhədlərinin bağlanması
2.95 Karantin qaydaları ilə bağlı cərimələrin tətbiq olunması
3.09 Həftəsonları ictimai nəqliyyatın hərəkətinin məhdudlaşdırılması
3.23 Dövlət və özəl sektorda yerində iş və xidmətin təkrar məhdudlaşdırılması
3.26 SMS icazə xidmətinin təkrar tətbiq olunması
3.26 Metronun fəaliyyətinin təkrar dayandırılması
3.32 Karantin rejiminin yenidən sərtləşdirilməsi
3.33 Xaricdə yaşayan vətəndaşların ölkəyə gətirilməsi
3.50 İşsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin təkrar verilməsi
3.58 İstirahət məkanlarında qrup şəklində cəmləşmənin məhdudlaşdırılması




## 2.3. Xüsusi karantin rejiminin əhalinin gündəlik həyatına və gəlirlərinə təsiri

Rəsmi statistikaya əsasən, karantin dövrünün əhəmiyyətli bir hissəsini əhatə edən cari ilin yanvar-aprel ayları ərzində ölkə əhalisinin nominal gəlirlərində əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1.3% artım qeydə alınıb. Bununla belə, istehlak mallarının qiymətlərində ötən ilin eyni dövrü ilə müqayisədə 2.9% artım yaranıb. Bu dövr ərzində müxtəlif məhdudiyyətlərin tətbiqi insanların ailədaxili münasibətlərinə də təsirsiz ötüşməyib. Bu istiqamətdə müvafiq qurumun (Ailə, Qadın və Uşaq Problemləri Komitəsi) məlumatına əsasən, 6 ciddi ailədaxili münaqişə qeydə alınıb.

Bu dövr ərzində müxtəlif qurumlar (Təhsil Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və digərləri) tərəfindən qaynar xətt xidməti vasitəsilə psixoloji dəstək göstərilib, karantinə götürülmüş şəxslərə “Psixoloji yardım haqqında” Qanuna uyğun yardım olunub. Təhsil müəssisələrinin fəaliyyətinin məhdudlaşdırıldığı ilk mərhələdən (mart ayının 3-dən 9-dək) etibarən Təhsil Nazirliyinin təşkilatçılığı ilə mart ayının 11-dən “Mədəniyyət” və “ARB Günəş” televiziya kanallarında teledərslərin yayımına başlanılıb, bütün sinifləri və fənləri əhatə etməklə həm Azərbaycan, həm də Rus bölmələri üçün həyata keçirilib. Aprel ayının 2-dən etibarən Təhsil Nazirliyi və “Microsoft” korporasiyası arasında əməkdaşlıq çərçivəsində “Virtual məktəb” layihəsinə başlanılıb, şagirdlərə teledərsləri eyni zamanda Nazirliyin elektron portalında (www.video.edu.az) izləmək imkanı yaradılıb.

İstər milli, istərsə də qlobal miqyasda sosial izolyasiya tədbirləri xüsusilə sabit gəlirli və iş sığortası olan orta sinif nümayəndələri üçün əsasən təsirsiz ötüşsə də, cəmiyyətin əhəmiyyətli bir hissəsi üçün bunu söyləmək olduqca çətindir. Məhz bu səbəbdəndir ki, hökumətlərin antiböhran strategiyalarında məşğulluq və sosial rifaha dəstək tədbirləri xüsusi yer tutmaqla fərqli dəstək alətlərinin müxtəlif kombinasiyalarda tətbiqi ilə nəticələnir.

Sorğunun nəticələrinin təhlili onu deməyə əsas verir ki, karantin rejimi 60.2% respondentin özünün və ya ailə üzvlərinin gəlirlərinə

**Xüsusi karantin rejiminin əhalinin gündəlik həyatına və gəlirlərinə təsirlərinin qiymətləndirilməsi**




**Qeyd:** 24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

mənfi təsir göstərib:

- 65 yaşa qədər olan respondentlərin arasında bu tendensiya daha yüksəkdir ($X^2(20)=53.416$, $p<0.01$).
- Fərdi əmək fəaliyyəti ilə məşğul olan respondentlərin 87.6%-i gəlirlərindəki azalmanı daha çox hiss etdiklərini bildiriblər ($X^2(28)=130.899$, $p<0.01$).
- Mənfi təsirin daha çox müşahidə edildiyi əsas iqtisadi rayon kimi Şəki-Zaqatala (72.6%) diqqət mərkəzindədir.
- Mənfi təsir qənaətindən çıxış edən respondentlərin 34.4%-i işsiz olduğu halda, 45.9%-i isə bu və ya digər sektorda çalışanları təmsil edir.

Müqayisə üçün qeyd edə bilərik ki, ümumi respondentlərin 36.9%-i cari karantin şəraitinin onların gəlirlərinə təsir etmədiyi qənaətindən çıxış edib:

- Dövlət sektorunda çalışanların 53.1%-i, özəl sektorda çalışanların 32.1%-i və təqaüdçülərin 49.6%-i bu tendensiyanı təsdiq ediblər. Burada önəmli məqam ondan ibarətdir ki, dövlət sektorunda çalışan (bəzi dövlət qurumunda çalışanlar istisna olmaq şərtilə), həmçinin təqaüdçü kəsimi təmsil edən respondentlərin şəxsi gəlirlərində azalma müşahidə edilməsə də, ailə üzvlərinin gəlirlərində bu ehtimal yüksək qiymətləndirilir.
- Dağlıq Şirvan (44.4%) və Gəncə-Qazax (44.0%) iqtisadi rayonlarını təmsil edən respondentlər karantin rejiminin onların gəlirlərində elə də ciddi dəyişikliyə yol açmadığı mövqeyindən çıxış edib ($X^2(32)=53.138$, $p<0.05$).

Xüsusi karantin dövründə respondentlərin ailə münasibətlərindəki davranışları və bu istiqamətdə mümkün dəyişikliklərin sosial-psixoloji aspektlərinin təhlili mühüm əhəmiyyət kəsb edir. Rəyi öyrənilənlərin 13.5%-i cari şəraitin onların ailə münasibətlərinə müsbət təsir göstərdiyini qeyd etdiyi halda, 25.1%-i əks mövqedən çıxış ediblər:

- Ailə münasibətlərində mənfi təsir dinamikasının yüksək olduğu 25.1% respondentin əhəmiyyətli hissəsi, yəni 41.4%-i işsiz və 30.2%-i isə fərdi əmək fəaliyyəti ilə məşğul olan şəxslərdən ibarətdir.
- Ümumi rəyi öyrənilənlərin 59.7%-i karantin rejiminin bütün mərhələlərində onların ailə münasibətlərində hər hansı dəyişikliyin olmadığını qeyd edib. Bu mövqedən çıxış edənlərin əhəmiyyətli hissəsi, yəni 70.5%-i təqaüdçü və 67.8%-i dövlət sektorunda çalışan respondentlərdən ibarətdir ($X^2(14)=61.843$, $p<0.01$).
- Ailə münasibətlərinə mənfi təsir göstərdiyi qənaətindən çıxış edən respondentlərin 87.4%-i eyni zamanda gəlirlərinin də azaldığını qeyd ediblər.

Xüsusi karantin rejiminin uzadılması və şərtlərinin sərtləşdirilməsi vətəndaşların psixoloji vəziyyətinə bu və ya digər şəkildə təsir göstərib. Sorğu çərçivəsində rəyi öyrənilənlərin 40.7%-i psixoloji vəziyyətlərinin neqativ istiqamətdə dəyişdiyini qeyd edib.

- Məskunlaşma baxımından şəhər və qəsəbə respondentləri bu situasiyadan daha çox əziyyət çəkdiklərini bildiriblər (müvafiq olaraq 45.2% və 44.5%) ($X^2(4)=23.285$, $p<0.01$).
- 25-65 yaş aralığında olan respondentlər daha çox mənfi təsirə məruz qaldıqlarını bildiriblər ($X^2(10)=19.890$, $p<0.05$).
- Mövcud vəziyyətlə bağlı olaraq gəlirləri azalan respondentlərin 54%-i bu durumun onların psixoloji vəziyyətinə də mənfi təsir göstərdiyini qeyd edib ($X^2(4)=175.732$, $p<0.01$).
- 63.9%-lik göstərici ilə Abşeron iqtisadi rayonu mənfi təsirin yüksək qeydə alındığı region kimi ilk sırada qərarlaşıb.
- Ümumi respondentlərin 48.8%-i karantin rejiminin onların psixoloji vəziyyətinə heç bir təsir göstərmədiyini qeyd edib.

Dünyanı öz cənginə almış COVID-19 pandemiyası son 50 ilin ən böyük sosial böhranı olaraq qiymətləndirilə bilər. Dünya tarixinə

*COVID-19 virusunun iqtisadi təsiri əsas etibarilə orta gəlirli (media da daxil olmaqla) seqmentdə əhəmiyyətli azalma və mahiyyət etibarilə rifah itkisinə səbəb olacaqdır. Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, gəlirlərdəki azalma müxtəlif sosial qruplara fərqli səviyyələrdə təsir edəcəkdir.*

*Tədqiqatlar göstərir ki, qlobal miqyasda COVID-19 virusuna yoluxanların əhəmiyyətli hissəsi (90%) şəhər əhalisinin payına düşür.*

***Mənbə:** How COVID-19 is changing the world: a statistical perspective, Comittee of Coordination of Statistical Activities*

**Pandemiya şəraitində təhsil sahəsi ilə bağlı aşağıdakı tədbirlərdən hansıları daha vacib hesab edirsiniz?**




***Mənbə:*** *Global Education at Harvard and OECD Rapid Assament of COVID-19 Education Response, 18-27 mart 2020.*

nəzər saldıqda ən böyük dəyişiklik və böhranların (qırılma nöqtələrinin) önəmli bir hissəsinin arxasında epidemiyaların dayandığını görmüş oluruq. Məhz bu perspektivdən epidemiyaları həm də sosial hadisə kimi qiymətləndirmək mümkündür.

Böhranı fürsətə çevirmək prinsipindən çıxış edərək qeyd edə bilərik ki, cəmiyyətin sosial strukturunun (normaları anlamında) əsas komponentləri kimi gündəlik rutinləri, iş vərdişlərini, qaydaları (hətta qaydasızlıqlar), institutları, şəbəkələri və digərlərini yeni tələblər və çağırışlar əsasında dizayn etmək mümkündür.

Xüsusi karantin rejiminin uzadılmasının əhalinin sosial fəaliyyətində ciddi dəyişikliklərə səbəb olacağı proqnozlaşdırılsa da, sorğunun nəticələrinin statistik təhlili bu istiqamətdə maraqlı məqamlar üzə çıxarıb. Belə ki, respondentlərin 44.1%-i onların sosial fəaliyyətlərində hər hansı ciddi dəyişikliyin olmadığı qənaətindən çıxış edib. Eyni məsələyə əks mövqedən fikir bildirən 38.4% respondent məskunlaşma baxımından aşağıdakı mənzərəni formalaşdırıb. Şəhər respondentlərinin 40.2%-i, qəsəbə respondentlərinin 42.6%-i və kənd respondentlərinin 33.2%-i sosial fəaliyyətlərində neqativ təsirlərin olduğunu bəyan ediblər ($X^2(8)=39.298$, $p<0.01$).

- Karantin rejimi şəraitində sosial fəaliyyətlərində digərləri ilə müqayisədə ciddi dəyişikliklərin müşahidə olunmadığı iqtisadi rayonlar kimi Dağlıq Şirvan (66.7%) və Lənkəran (63.3%) ön plana çıxır.
- Mənfi təsirin müşahidə edildiyi iqtisadi rayonlara diqqət etsək 40%-lik təqribi orta göstərici ilə Bakı, Abşeron, Gəncə-Qazax, Quba-Xaçmaz, Şəki-Zaqatala və Yuxarı Qarabağ regionlarını qeyd edə bilərik ($X^2(32)=218.685$, $p<0.01$).
- 18-25 yaş aralığında olan respondentlərin 44.2%-i, 55 yaş və ondan yuxarı respondentlərin isə 33.9%-i sosial fəaliyyətlərində mənfi dinamikanın olduğu qənaətindən çıxış ediblər ($X^2(20)=36.032$, $p<0.05$).
- Özü və ya ailə üzvlərinin gəlirlərinə mənfi təsirin müşahidə edildiyini qeyd edən 60.2% respondentin 55.6%-i sərtləşdirilmiş karantin rejiminin onların sosial fəaliyyətlərinə də mənfi təsir göstərdiyini bildiriblər ($X^2(4)=163.759$, $p<0.01$).

Tədricən sərtləşdirilmiş karantin rejiminin özü və ya övladlarının təhsilinə mümkün təsirinin qiymətləndirilməsi beynəlxalq miqyasda da geniş şəkildə müzakirə obyektinə çevrilib. Belə ki, cari situasiyaya adekvat təhsil həlləri ümumilikdə təhsil sisteminin gələcək arxitekturasının formalaşması baxımından da mühüm əhəmiyyət kəsb edir.

Karantin rejiminin özünün və ya övladlarının təhsilinə təsirini respondentlərin 59.7%-i mənfi istiqamətdə, 10.3%-i isə müsbət istiqamətdə dəyərləndirib. Rəyi öyrənilən hər üç nəfərdən biri (30%-i) heç bir dəyişikliyin olmadığı mövqeyindən çıxış edib.

- Təhsil rutininə mənfi təsiri müşahidə etdiklərini qeyd edən 59.7% respondentin 57.1%-i karantin rejimi şəraitində eyni zamanda internetin keyfiyyəti ilə bağlı da neqativ mövqedən çıxış edib ($X^2(4)=19.08$, $p<0.01$).
- Şəki-Zaqatala iqtisadi rayonu və Bakı şəhəri respondentlərin rəyinə əsasən, digər regionlarla müqayisədə heç bir dəyişikliyin müşahidə edilmədiyi regionlar kimi ön plana çıxıb. Bu regionlarda müvafiq olaraq 36.8% və 35.7% respondent təhsilin davamlılığı və keyfiyyəti baxımından elə də ciddi bir dəyişikliyin müşahidə edilmədiyini vurğulayıblar.
- Ən çox mənfi təsirin müşahidə edildiyi bölgələr kimi Gəncə-Qazax (73.3%) və Lənkəran (72.6%) iqtisadi rayonları ilk sırada qərarlaşıblar ($X^2(16)=60.181$, $p<0.01$).
- Özünün və övladının təhsilinə heç bir təsirin müşahidə edilmədiyini bildirən 22.2% respondentin 89.9%-i ölkə miqyasında tədris müəssisələrində tətilin elan edilməsi təşəbbüsünü yaxşı qiymətləndiriblər ($X^2(16)=77.903$, $p<0.01$).

Qrafikdən də göründüyü kimi, əvvəl virusun varlığı, eləcə də yarada biləcəyi təhdidə inanmayan, indi isə inandığını bəyan edən respondentlər ümumi rəyi öyrənilənlərin 34.7%-ni təşkil edib. Digər tərəfdən əvvəl inanmayıb, hal-hazırda da eyni fikirdə qaldığını bəyan edən respondentlər isə 5.3% civarında qərarlaşıb. COVID-19 virusunun varlığı və eləcə də yarada biləcəyi təhdidə şübhə etməyən sabit mövqeli 56.0% respondentlərlə müqayisədə, əvvəl inandığı halda indi inanmadığını bəyan edən respondentlər 3.8% civarındadır.

- Təhlükənin mövcudluğuna inanmayan 9.1% respondentin 55.4%-i qadınlardan ibarət olmaqla əsasən orta təhsillilərdir (72.3%). Bu respondent seqmentini məskunlaşma prizmasından dəyərləndirdikdə 40.2%-lik göstərici ilə şəhər respondentlərinin ön planda qərarlaşdığını görə bilərik.
- Bu kəsim respondentlərin pandemiya ilə mübarizə siyasəti çərçivəsində müvafiq dövlət qurumlarının məlumatlarına inam səviyyəsi 60.0% civarındadır. Müqayisə üçün qeyd edə bilərik ki, virusun mövcudluğuna inanan 90.8% respondent bu istiqamətdə dövlət qurumlarının məlumatlarına əhəmiyyətli dərəcədə etibar edir (89.6%).
- Əvvəl virusun varlığı və yarada biləcəyi təhdidə inanmayan, indi isə inandığını bəyan edən 34.7% respondentin 65.1%-i sərtləşdirilmiş karantin rejimindən mərhələli çıxışı məqbul hesab edir.
- Virusun varlığına inanmadığını bəyan edənlərin mütləq əksəriyyəti Bakı şəhərində yaşayan respondentlərdir. Əvvəl inanmadığını indi isə inandığını bildirən 3.8% respondentin 74.5%-i xüsusi karantin rejiminin sərtləşdirildiyi şəhər və rayonlarda yaşayan respondentlərdir.

Bu istiqamətdə tendensiyanı öyrənmək məqsədilə 18-29 may 2020-ci il tarixli ictimai rəy göstəriciləri ilə müqayisə nəticələri əsasında aşağıdakı fikirləri tezisləşdirə bilərik:

- 18-29 may 2020-ci il tarixli sosioloji sorğunun nəticələrinə görə bu göstərici 39.1% təşkil edirdisə, sonuncu rəy sorğusunun nəticələrinə görə analoji göstərici 69.6% təşkil edib. Bu isə bizə onu deməyə əsas verir ki, son bir ay ərzində bu istiqamətdə ictimai rəy əhəmiyyətli dərəcədə dəyişib.
- COVID-19 virusuna yoluxmaqdan qorxmadığını bəyan edən 29.8% respondentin 67.2%-i kişilərdən ibarət olmaqla, əsasən orta təhsilli (55.6%) və şəhər (49.9%) respondentləri kimi xarakterizə edilə bilər.
- Virusa yoluxmaqdan qorxmadığını bəyan edən respondentlərin 81.8%-i COVID-19 virusunun mövcudluğuna inandığını bəyan edib. Eyni mövqedən çıxış edən rəyi öyrənilənlərin 88.1%-i eyni zamanda dövlətin pandemiya ilə mübarizə siyasətini də müsbət qiymətləndiriblər.
- Bununla yanaşı, virusa yoluxmaqdan qorxmadığını bildirən respondentlərin 57.0%-i Operativ Qərargahın fəaliyyətini müsbət qiymətləndirdiyi halda, TƏBİB-in fəaliyyətinə analoji yanaşma isə 50.3% təşkil edib.
- Sözügedən respondent qrupunun 77.2%-i eyni zamanda dövlət və özəl sektorda iş və xidmət sahələrində yerində fəaliyyətini məhdudlaşdırılması tədbirini də müsbət qiymətləndirib.
- COVID-19 virusuna yoluxmaqdan qorxduğunu bəyan edən 69.6% respondentin 93.5%-i dövlətin pandemiya ilə mübarizə siyasətini müsbət qiymətləndirib. Həmin respondentlərin 73.0%-i Operativ Qərargahın fəaliyyətini müsbət qiymətləndirdiyi halda TƏBİB-in fəaliyyətindən razılıq səviyyəsi isə 67.4% təşkil edib.




**Qeyd:** 09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri




**Dövlətin sosial dəstək tədbirlərinə münasibətin və məmnuniyyətin qiymətləndirilməsi**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]08.05.2020 – 11.05.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

## 2.4. Pandemiya ilə mübarizə çərçivəsində sosial dəstək tədbirləri

Dövlət başçısının 19 mart tarixli sərəncamının icrası ilə bağlı olaraq Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planında iş yerlərinin qorunması, məşğulluğa və sosial rifaha dəstəyin təmin olunması əsas istiqamətlər sırasına daxil edilib. Bu çərçivədə 2.5 milyon vətəndaşı əhatə edən Tədbirlər Planında dövlət sektoru üzrə işçilərin əsassız işdən çıxarılmasına, ixtisarına yol verilməməsi və məzuniyyətə buraxılan işçilərin əmək haqlarının saxlanılması üçün aprel-may aylarında müvafiq tədbirlərin görülməsi, qeyri-dövlət sektoru üzrə işəgötürənlərlə bağlı iş aparılması, gündəlik nəzarətin təmin edilməsi nəzərdə tutulub. Bunlarla yanaşı, özünüməşğulluq və ünvanlı sosial yardım proqramlarının miqyası genişləndirilib, işsiz və işdən azad olunmuş şəxslərin məşğulluğu və sosial müdafiəsini təmin etmək istiqamətində ictimai iş yerlərinin sayı artırılıb. Sosial rifahın gücləndirilməsi istiqamətində müvafiq orqanlarda işsiz kimi qeydiyyata alınan 600 min şəxsə aprel-may aylarında hər ay üçün yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə verilib, aktiv əmək müqaviləsi bildirişi olan 320 min şəxsə birdəfəlik ödəmənin verilməsindən imtina edilib. Ünvanlı dövlət sosial yardımı və əlillik müddəti xüsusi karantin rejimi dövründə başa çatan şəxslərə yardımların verilməsi davam etdirilib. Eləcə də sosial dəstək tədbirləri çərçivəsində tənha yaşlılara və aztəminatlı ailələrə münasibətdə digər müxtəlif güzəşt və yardımlar tətbiq olunub. Əhali üzrə elektrik enerjisinin güzəştli istehlak həcminin artırılması, aztəminatlı ailələrə aid tələbələrin təhsil haqqının dövlət tərəfindən qarşılanması, həmçinin ƏDV-nin bir hissəsinin fiziki şəxs olan istehlakçılara geri qaytarılması bu çərçivədə dəyərləndirilə bilər. Bütün bunlarla yanaşı, əhalinin həssas təbəqəsinə yaxından sosial xidmət göstərən şəxslərin, həmçinin, xəstəliklə mübarizəyə cəlb olunan tibb və qeyri-tibb işçilərinin əmək haqqına müddətli əlavələr və mükafatlar olunub.

Müvafiq tədbirlərlə bağlı məlumatı olmayan və cavab verməkdə çətinlik çəkən respondentlərin rəylərini çıxmaq şərti ilə, sözügedən istiqamətlər üzrə münasibət bildirənlərin əksəriyyəti (orta göstərici 97.5%) dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətini müsbət qiymətləndirib. Dəstək tədbirlərinin qiymətləndirilməsi üzrə ən az,




yəni 94.5%-lə əhali üzrə elektrik enerjisinin istehlak həcminin artırılması, ən çox isə 99.2%-lik göstərici ilə tibb işçilərinin maaşlarının artırılması müsbət qiymətləndirilib.

- Respondent rəylərinə əsasən təqdim edilən dəstək alətləri ilə bağlı məlumatlılıq səviyyəsinin ən aşağı olduğu istiqamətlər müvafiq olaraq 29.3%-lik göstərici ilə fiziki şəxs olan istehlakçılara ƏDV-nin geri qaytarılması, 26.8%-lik göstərici ilə əlillik müddətinin uzadılması və nəhayət, 17.2%-lik göstərici ilə sosial xidmətlərin göstərilməsi sahəsində çalışanların əmək haqlarına əlavələrin edilməsi tədbirləridir.

- Yuxarıda qeyd edilən dəstək tədbirləri ilə bağlı məlumatlılıq səviyyəsinin daha çox müşahidə edildiyi yaşayış yeri kimi şəhər respondentləri (55.0%) digər respondentlərlə müqayisədə ilk sırada qərarlaşıb.

- Ümumilikdə götürdükdə rəyi öyrənilənlərin mütləq əksəriyyəti pandemiyanın sosial rifaha mənfi təsirinin minimumlaşdırılması istiqamətində dövlət dəstəyi tədbirlərini müsbət qiymətləndirib. Dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətinə bütün respondentlərin orta müsbət münasibət göstəricisi 83.6% təşkil edir.

Dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətinə münasibətlə yanaşı, sözügedən dəstək tədbirlərindən məmnuniyyətin ölçülməsi də əsas prioritet kimi diqqət mərkəzində saxlanılıb. Ümumi respondentlərin əsasən faydalana biləcəyi dəstək tədbirləri qrafikdə göründüyü kimi müəyyənləşdirilib. Burada seçim meyarı kimi ümumi faydalanma arealının yüksək olduğu tədbirlər prioritetləşdirilib.

- Əvvəlcə qeyd etmək istərdik ki, beş sosial dəstək tədbirindən respondentlərin yararlanma səviyyəsi aşağı olduğundan onlarla bağlı məmnuniyyət göstəricilərini müəyyənləşdirmək sosioloji baxımdan mümkün deyil.

- İlkin təhlillər bizə sosial baxımdan həssas ailələrə aid tələbələrin təhsil haqlarının dövlət tərəfindən qarşılanması tədbirindən yararlanma göstəricisinin ümumi respondentlərin sadəcə 0.3%-i, ictimai iş yerlərindən faydalanma ilə bağlı analoji göstəricinin isə 0.5%-i kimi qərarlaşdığını deməyə əsas verir.

- Həssas əhali qruplarının təhsil haqlarının dövlət tərəfindən qarşılanması tədbirindən iyirmi dörd mindən cox tələbənin yararlanması proqnozlaşdırılır. Hesablamalar bizə onu deməyə əsas verir ki, sorğunun nəticəsi real mənzərəni özündə ehtiva edir.




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]08.05.2020 – 11.05.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[3]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]08.05.2020 – 11.05.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

- İctimai iş yerlərindən faydalanma ilə bağlı analoji sorğu göstəricisi də bu tədbirdən faydalanma üzrə faktiki orta göstərici ilə üst-üstə düşür. (Təhsil Nazirliyinin verdiyi məlumata əsasən, sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsi barədə qərar 24 mindən çox tələbəni əhatə edir və 18 yaşdan yuxarı əhalinin 7 milyon nəfər olmasını nəzərə alsaq sözügedən qərar 18 yaşdan yuxarı əhali qrupunun 0.34%-ni əhatə edib. Həmçinin, ictimai iş yerlərində çalışanların sayının 49 minə çatdığını nəzərə alsaq, 18 yaşdan yuxarı əhali qrupunun (7 milyon nəfər) 0.17%-i ictimai iş yerləri ilə təmin olunub).
- Fiziki şəxs olan istehlakçılara ƏDV-nin geri qaytarılması tədbirindən faydalandığını bildirən respondentlər təqribən 2.8% təşkil edir. Yuxarıda qeyd etdiyimiz kimi, bu istiqamət üzrə respondentlər arasında məlumatlılıq səviyyəsinin aşağı olması faktoru diqqət çəkən məqamlardan biri kimi xarakterizə edilə bilər. Sözügedən tədbirdən faydalanan respondentlərin 47.0%-i şəhər, 26.5%-i qəsəbə və nəhayət, 26.5%-i isə kənd üzrə məskunlaşıb.
- İşsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin (190 AZN) verilməsi ilə bağlı respondent məmnuniyyətinin ölçülməsi zamanı metodoloji yanaşma kimi orta qiymət metodundan istifadə edilib. Metodologiyaya görə şkalada 1 rəqəmi heç məmnun olmamağı, 4 rəqəmi isə tam məmnuniyyəti ifadə edir. Respondent rəylərinin təhlili nəticə etibarilə dövlət tərəfindən işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmədən (190 AZN) məmnunluğun 3.50 bal kimi təsbit edildiyini deməyə imkan verir. Bu isə sözügedən dəstək tədbirindən məmnuniyyətin yüksək olduğu anlamına gəlir.
- Məskunlaşma kriteriyasına görə bu tədbirdən qəsəbə respondentlərinin məmnunluq səviyyəsi 3.2 orta qiymətlə şəhər və kənd respondentlərinin məmnunluq səviyyəsindən aşağı səviyyədə qərarlaşıb. Bu fərq statistik dərəcədə əhəmiyyətlidir ($F(2)=4.072$, $p<0.05$).
- Regional kontekstdən bu tədbirdən məmnunluq səviyyəsinin ən aşağı olduğu iqtisadi rayon Abşerondur (orta qiymət 2.83), məmnunluq səviyyəsinin ən yuxarı olduğu iqtisadi rayon kimi isə Dağlıq Şirvandır (orta qiymət 3.86) ($F(8)=3.717$, $p<0.01$).
- Əhali üzrə elektrik enerjisinin güzəştli istehlak həcminin artırılmasından məmnunluq dərəcəsinin ölçülməsi də analoji olaraq orta qiymət metodu əsasında müəyyənləşdirilib. Nəticə etibarilə bu güzəştdən məmnuniyyət göstəricisinin orta qiyməti 3.58-dir.
- Bu dəstək tədbirindən ən çox məmnun qalan iqtisadi rayon kimi 3.94 orta qiymətlə Aran regionu, 3.00 orta qiymət göstəricisi ilə ən az məmnun qalan iqtisadi rayon kimi Şəki-Zaqatala regionu fərqlənir ($F(6)=3.996$, $p<0.01$).

Sözügedən istiqamətdə ayrı-ayrı milli dövlətlərin antiböhran siyasəti çərçivəsində tətbiq etdikləri dəstək paketləri və onların əhatə dairəsi fərqli prioritetlər üzərindən reallaşdırılmaqdadır. Təhlillər göstərir ki, bu istiqamətdə selektiv yanaşma və təqdim edilən dəstək alətlərinin müxtəlif kombinasiyalarda tətbiqi sosial-iqtisadi sahədə qabaqlayıcı təşəbbüslərin effektivliyi ilə nəticələnir.

Sosial-iqtisadi təhdidlərin təsirinin minimumlaşdırılması istiqamətində həyata keçirilən qabaqlayıcı tədbirlər əsas etibarilə fiskal ağırlıqlı olması ilə fərqlənməkdədir. Təbii ki, monetar siyasət konseptləri də fərqli modifikasiyalarda tətbiq edilir. Hesab edirik ki, indiki şəraitdə iqtisadi siyasət strategiyaları hibrid yanaşmanı olduqca aktuallaşdırır.

| Ölkələr | Dəstək tədbirlərinin spesifikası | Tətbiq edilən siyasət tədbirləri |
|---|---|---|
| **Pandemiya ilə mübarizə çərçivəsində monetar siyasət tədbirləri** | | |
| ABŞ | 700 milyard ABŞ dolları həcmində aktivlərin alınması proqramı və 2 trilyon dollarlıq REPO əməliyyatları üçün paketin tətbiq edilməsi | Kəmiyyət güzəştləri (yumşalmaları) |
| B. Britaniya | İstiqrazların alınması proqramı çərçivəsində 228 milyard ABŞ dollarının ayrılması | |
| Braziliya | Kommersiya səhmləri ilə bankların kredit imkanlarının genişləndirilməsi | |
| Avropa İttifaqı | 2020-ci ilin sonuna qədər əlavə aktiv alınması proqramının tətbiq edilməsi | |
| ABŞ | 100 bənd | Yenidən maliyyələşdirmə stavkalarının azaldılması |
| B. Britaniya | 5 bənd | |
| Braziliya | 50 bənddən 3.7%-ə qədər | |
| B. Britaniya | KOS-ın kreditləşdirilməsi üçün bankların nizamnamə fondları ilə bağlı güzəştlərin tətbiqi | Xüsusi kreditləşdirmə proqramlarının tətbiq edilməsi |
| Avstraliya | Bankların 0,25% qısamüddətli kapitalizasiyasına imkan vermək | |
| Almaniya | 80-90% risk zəmanəti ilə limitsiz güzəştli kreditlər | |
| Çin | Kapitala olan tələbin azaldılması nəticəsində 80 milyard ABŞ dolları əlavə vəsaitin ayrılması | Rezerv və kapital üzrə öhdəliklərin azaldılması |
| Braziliya | Kapital və rezervlərə tələbin azalması sayəsində 13 milyard dollar rezerv kapitalın ayrılması | |
| Avstraliya | Kapitala müvəqqəti tələbin azalması, Bazel III tələbləri güzəştli müddətin tələb edilməsi | |
| Avropa İttifaqı | Kapital və likvidliyə tələblərin azalması | |
| Almaniya | Konturtsiklik bufer kapitalının 0.25%-dən 0%-ə qədər endirilməsi | |
| **Pandemiya ilə mübarizə çərçivəsində fiskal siyasət tədbirləri** | | |
| ABŞ | 1200 dollar böyüklərə, 500 dollar hər uşağa görə | Əhalinin əhəmiyyətli hissəsinə birbaşa ödəmələrin təqdim edilməsi |
| Honkonq | Bütün yetkin vətəndaşlara 1300 dollar ödəmə | |
| Avstraliya | Ehtiyacı olan 6,5 mln. nəfərə 450 Avstraliya dollarının ödənilməsi | |
| Almaniya | Bütün özünüməşğul və kiçik sahibkarlara 5000 avro məbləğində ödəmə | Özünüməşğul və fərdi sahibkarların gəlirlərinin bütövlükdə və yaxud müəyyən hissəsinin kompensasiya edilməsi |
| İsrail | Özünüməşğullara 1.700 dollar məbləğində qrantların verilməsi | |
| İtaliya | Ziyanla qarşılaşmış bələdiyyələrdə 600 avro miqdarında özünüməşğullara aylıq ödəmə | |
| Finlandiya | Özünüməşğul və fərdi sahibkarlar öz bizneslərini bağlamadan işsizlik üzrə müavinət ala bilər | |
| B. Briyaniya | KOS və kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən iqtisadi subyektlərə 3600 ABŞ dolları məbləğində dəstəyin göstərilməsi üçün 2.7 milyard ABŞ dolları nizamnamə kapitalına malik Fondun formalaşdırılması | Kiçik biznesə birbaşa ödəmələr (qrantlar və subsidiyalar şəklində) |
| Danimarka | Yerli sahibkarlara dəstək məqsədilə 38 milyard avro büdcəyə malik yardım fondunun yaradılması | |
| Fransa | Müflisləşmiş və gəlirlərində əhəmiyyətli azalma müşahidə edilən sahibkarların 70%-nə 1.2 mlyard avroluq fondun yaradılması | |
| Almaniya | Kiçik sahibkarlara yönəlik müraciət etdikdən 48 saat sonra 15 min avroluq qrant xəttinin yaradılması | |
| Honkonq | Xidmət və ticarət sahəsində müəssisələrə maliyyə dəstəklərinin göstərilməsi | |
| Danimarka | Personalı işdən çıxarmayan şirkətlərin xərclərinin 75% subsidiya şəklində qarşılanması | Məşğulluğun dəstəklənməsi (personal üçün xərclərin subsidiyası) |
| Almaniya | Personalı işdən çıxarmayan şirkətlərin xərclərinin 70% subsidiya şəklində qarşılanması | |
| Sinqapur | 3 200 ABŞ dolları aylıq gəliri olan şəxslərin gəlirlərinin 75%-nin aprel ayı üzrə qarşılanması | |
| Kanada | KOS-ın xərclərinin 3 ay ərzində 75% hissəsinin subsidiya formasında qarşılanması | |
| Almaniya | 100 milyard avro maliyyə resursuna malik Stabilləşmə Fondunun yaradılması (xaricdə fəaliyyət göstərən bəzi müəssisələrin səhmlərinin alınması üçün) | Şirkət kapitalına giriş |

| Ölkələr | Antiböhran tədbirləri çərçivəsində tətbiq edilən dəstək paketi | Dəstək paketinin əhatə dairəsi (sosial qruplar üzrə) | Mənbə |
|---|---|---|---|
| Almaniya | • Mövsümi məşğulluq üzrə müavinətlərin alınması üçün tələblərin yumşaldılması<br>• İş saatlarının azaldılması. Vətəndaşların əmək haqlarının qarşılanması (60-67%) | Dövlət tərəfindən müəyyən edilən zərər çəkmiş həssas sektorlarda çalışan işçilər üçün | https://www.reuters.com/article/us-germany-debt/germany-eyes-156-billion-euros-of-new-borrowing-200-bln-euros-in-debt-authorization-idUSKBN2180KV |
| İspaniya | İşsizlik üzrə müavinətlərin artırılması:<br>• Aztəminatlı ailələrə verilən sosial müavinətlərin artırılması | Dövlət tərəfindən müəyyən edilən zərər çəkmiş həssas sektorlarda çalışan işçilər üçün | https://www.reuters.com/article/us-health-coronavirus-spain/spain-unveils-unprecedented-200-billion-euros-coronavirus-package-idUSKBN2141ZN |
| ABŞ | Nağd formada birdəfəlik maddi yardım:<br>• Vətəndaş üzrə 1200 ABŞ dolları<br>• Ailədə hər uşağa görə 500 ABŞ dolları | İllik gəliri 75 min dolları ötməyən şəxslərə və ər-arvadın birgə illik gəliri 120 min dolları ötməyən ailələrə | https://www.washingtonpost.com/context/department-of-treasury-proposal-for-coronavirus-response/6c2d2ed5-a18b-43d2-8124-28d394fa51ff/?itid=lk_inline_manual_4 |
| Avstraliya | • 700 ABŞ dolları məbləğində birdəfəlik ödənişlər | Təqaüdçülər, veteranlar və əlilliyi olan şəxslər | https://treasury.gov.au/coronavirus |
| Yeni Zelandiya | • 750 ABŞ dolları məbləğində birdəfəlik ödənişlər<br>• Kommunal xərclərin qarşılanması istiqamətində adambaşına həftəlik 15 ABŞ dolları<br>• Karantin şəraitinə tabe tutulan və xəstəlik bülletenində olanlar | • Təqaüdçülər, veteranlar və əlilliyi olan şəxslər<br>• Təqaüdçülər və aztəminatlı ailələr<br>• Sosial izolyasiya şəraitində olanlar | https://www.beehive.govt.nz/release/121-billion-support-new-zealanders-and-business |
| Hindistan | 22,5 mlrd. ABŞ dolları məbləğində kompleks yardım paketi:<br>• Yoxsul təbəqə üzvlərinə birbaşa pul subsidiyaları, o cümlədən pulsuz düyü verilməsi<br>• Məişət istifadəçi üçün qaz subsidiyası | Yoxsul və aztəminatlı vətəndaşlar | https://www.reuters.com/article/us-health-coronavirus-india-stimulus/india-outlines-23-billion-stimulus-to-help-poor-hit-by-lockdown-idUSKBN21D0YK |
| Cənubi Koreya | 9.8 mlrd. ABŞ dolları həcmində dəstək paketi:<br>• İşsizlərə ödənilən müavinətin artırılması<br>• Azgəlirli ailələr üçün istehlak xərclərini qarşılamaq üçün xüsusi vauçerlərin verilməsi | Yoxsul və aztəminatlı vətəndaşlar | https://www.reuters.com/article/us-health-coronavirus-southkorea-toll-idUSKBN21B05X |
| Yaponiya | Təcili sosial yardım paketlərinə daxildir:<br>• Təhsil ocaqları bağlandığına görə dərsə gedə bilməyən uşaqlara qulluğa görə işdən çıxmağa məcbur olmuş ştatdankənar əməkdaş/frilanserlərə 4100 yen həcmində subsidiyaların verilməsi<br>• Gəlirlərinin 30%-i həcmində azaldığı təsbit olunan vətəndaşlara faiz və kreditin əsas hissəsinin ləğvi | • Pandemiyaya görə işsiz qalanlar<br>• Pandemiyaya görə gəlirlərinin həcmində azalma müşahidə edilən vətəndaşlar | Yaponiya hökumətinin rəsmi məlumatları əsasında |
| İtaliya | • Özünüməşğullara 500 avro həcmində pul yardımı<br>• 12 yaşdan aşağı uşağı olanlar üçün özəl sektorun işçilərinə 15 günlük məzuniyyət üçün müavinətlərin verilməsi | Özünüməşğul və işləyən vətəndaşlar | İtaliya hökumətinin rəsmi məlumatları əsasında |
| Kanada | • Xəstəlik üzrə müavinətin ilk gündən verilməsi (7 gün gözləmək zərurəti olmadan)<br>• "Karantin pulu" – birbaşa nağdsız müavinətlər<br>• Tələbə kreditlərinin ödənilməsinə görə altı aylıq faizsiz moratori | Karantin və özünütəcriddə olan vətəndaşlar | https://pm.gc.ca/en/news/news-releases/2020/03/11/prime-minister-outlines-canadas-covid-19-response |

## 2.4.1. Pandemiya ilə mübarizə çərçivəsində sosial dəstək tədbirlərinə işini itirənlərin münasibəti

Beynəlxalq Əmək Təşkilatının təhlillərinə əsasən, koronavirus (COVID-19) pandemiyası səbəbilə tətbiq edilən tam və yaxud məhdud iş tətilləri qlobal miqyasda əmək qabiliyyətli işləyənlərin təqribən 81%-ni təmsil edən 2.7 milyard işçiyə təsir göstərib. Digər tərəfdən pandemiya ciddi risk qrupuna aid sektorlarda çalışan 1.3 milyard işçiyə də əhəmiyyətli dərəcədə təsir göstərib.

Ayrı-ayrı beyin mərkəzlərinin hesabatlarına istinad edərək qeyd edə bilərik ki, dünya iqtisadiyyatında ən yaxşı ehtimalla 3%-ə, orta ehtimalla 6%-ə və ən pis ehtimalla 10%-ə çatan daralma səbəbindən 2020-ci ilin sonuna kimi 25 milyon insanın işsiz qalma ehtimalı yüksək qiymətləndirilir.

ABŞ-da aparılan bir araşdırmaya görə, evdən işləmək imkanı ilə normal qaydada işləməkdən əldə edilən gəlir arasında ciddi bir korrelyasiya mövcuddur. Belə ki, gəlir bölgüsünün ən alt seqmentində (alt 25%) mövqe tutan işçilərin sadəcə 9.2%-i evdən işləmək imkanına malik olduğu halda, bu səviyyə ikinci gəlir seqmenti üçün 20.1%, üçüncü gəlir seqmenti üçün 37.3% və nəhayət, ən yüksək gəlirə sahib olan seqmentdə çalışanlar ücün 61.5% səviyyəsindədir.

EKOSOS-un (Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial İşlər üzrə Qurumu) geniş ictimaiyyətə təqdim etdiyi "COVID-19-un sosial təsirləri" (The Social Impact of COVID-19) adlı hesabatına görə, optimal siyasətlər tətbiq edilməzsə, pandemiyanın səbəb ola biləcəyi sosial böhran orta və uzunmüddətli dövr üçün bərabərsizlik, ayrı-seçkilik və qlobal işsizliyin əhəmiyyətli dərəcədə artmasını şərtləndirəcəkdir. Xüsusilə xidmət sektorunda işləyən aşağı gəlirli işçilərin əhəmiyyətli bir hissəsi evdən işləmək imkanından məhrum olduqları kimi hərəkət məhdudiyyətlərinin tətbiqi onların işə getmə imkanlarını da əhəmiyyətli dərəcədə azaldır[40].

Sorğu çərçivəsində xüsusi karantin rejiminin əhalinin məşğulluq göstəricilərinə təsirləri də nəzərə alınıb. Təhlillər göstərir ki, "işləmirdim" deyən 52.3% respondentin əhəmiyyətli hissəsi müvafiq olaraq 35.6%-i təqaüdçü, 33.6%-i evdar qadın, 5.7%-i tələbə, 1.6%-i ev təsərrüfatı və 4.4%-i isə digər fəaliyyət ilə məşğul olanlardan ibarətdir. İşsizlik statistikasına əsaslanaraq qeyd edə bilərik ki, bu respondent qrupları qeyri-məşğul əhali kateqoriyasına aid olmaqla, bu istiqamətdə rəsmi statistika ilə təqribən üst-üstə düşür.

Sorğunun nəticələrinə əsasən ümumi respondentlərin 13.5%-i xüsusi karantin dövrünə qədər işsiz statusunda olub. Bu göstərici işsizliklə bağlı rəsmi statistikadan (4.9%) fərqlənir. Həmçinin rəyi öyrənilənlərin 11%-i xüsusi karantin dövrü ərzində işini itirdiyini qeyd edib. Lakin bu mövqedən çıxış edən respondentlərin 65.4%-i tələbə, təqaüdçü, evdar qadın və digər kateqoriyalara aid olmaqla rəsmi işsizlik statusuna uyğun gəlmir. Sorğunun nəticələrinin təhlili bizə ehtimal etməyə imkan verir ki, 3.5% respondent xüsusi karantin dövründə işini itirmədiyini və hal-hazırda özünü işsiz kimi təqdim edərək karantin dövründən öncəki işsizlərə aiddir. Yekun olaraq, sorğunun nəticələrinə əsasən xüsusi karantin dövründə işsizlik səviyyəsi 3.7% artmaqla 17.2% təşkil edib.

**1.** Respondentlərə ünvanlanan "Xüsusi karantin rejiminin tətbiqi nəticəsində özünüz və ya ailə üzvləriniz işinizi itirdinizmi?" sual ətrafındakı respondent rəylərini 9 müxtəlif kombinasiyada qruplaşdıra bilərik (Cədvəl əlavədə verilir).

**2.** Özü və ailə üzvlərinin gəlirlərinə ən çox mənfi təsir göstərdiyini qeyd edən I, II və III qrup respondent rəyləri müvafiq olaraq 80.3%, 89.7% və 90.9%-lik göstəricilərlə xarakterizə edilə bilər. Karantin

**Xüsusi karantin rejiminin məşğulluq göstəricilərinə təsiri**




**Qeyd:** 24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

**Karantin dövründə işini itirənlərin dövlət dəstək tədbirləri ilə bağlı məlumatlılıq səviyyəsi və münasibətin qiymətləndirilməsi**




**Qeyd:** 22.05.2020 – 23.05.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

[40] *https://www.un.org/development/desa/dspd/2020/04/social-impact-of-COVID-19/*

**Karantin dövründə işini itirənlərin dövlət dəstək tədbirlərinə müraciəti və faydalanma səviyyəsinin qiymətləndirilməsi**




**Dövlət dəstək tədbirlərindən istifadə edən respondentlərin məmnuniyyət qiymətləndirməsi**




**Qeyd:** 22.05.2020 – 23.05.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

dövründə gəlirlərində heç bir dəyişikliyin müşahidə edilmədiyini bildirən qrup isə 50.7%-lik göstərici ilə V qrupdur ($X^2(16)=103.302$, $p<0.01$).

**3.** Şəxslərin hərəkətinin SMS vasitəsilə tənzimlənməsi ilə bağlı dövlət tədbirini nisbətən mənfi qiymətləndirən respondent qrupu II qrup olmaqla 1.71 orta göstərici ilə xarakterizə edilə bilər.

**4.** İşsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin (190 AZN) verilməsi ilə bağlı dövlət dəstəyinə ən müsbət mövqe bildirən işsiz qrup 97.2%-lik göstərici ilə VII qrupdur. Bu istiqamətdə müqayisə etibarilə ən aşağı qiymətləndirmə isə 82.1%-lə II qrupda müşahidə olunur.

**5.** İctimai iş yerlərinin yaradılması ilə bağlı dövlət təşəbbüsünə hansı qrupu təmsil etmələrindən asılı olmayaraq  müsbət qiymətləndirmə səviyyəsi 97%-dən yüksək müşahidə edilib.

Tədqiqat çərçivəsində xüsusi karantin rejiminin tətbiqi nəticəsində özünün və ya ailə üzvlərinin işini itirdiyini bildirən respondentlərin spesifik qrup kimi dövlət dəstək alətlərinə münasibəti və məmnuniyyəti qiymətləndirilib. Sözügedən respondent qrupunun demoqrafik göstəriciləri qrafikdə göstərildiyi kimidir (Qrafik əlavədə verilir).

Qeyd olunan respondent qrupunun dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətinə münasibəti aşağıdakı nəticələrə gəlməyə imkan verir:

- Göründüyü kimi, xüsusi karantin dövründə işini itirən respondent qrupunun ən çox məlumatsız olduğu dəstək tədbiri fiziki şəxs olan istehlakçılara ƏDV-nin geri qaytarılmasıdır (60.5%). Eyni zamanda sözügedən qrupun 43.5%-i ictimai iş yerlərinin yaradılması ilə bağlı dövlət tədbirlərindən də məlumatsızdır.
- Bu qrup üzrə respondentlərin ən çox məlumatlı olduğu dəstək tədbiri işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi ilə bağlı dövlət tədbiridir (99.2%).
- Ümumilikdə götürdükdə bu qrup üzrə rəyi öyrənilənlərin mütləq əksəriyyəti pandemiyanın sosial rifaha mənfi təsirinin minimumlaşdırılması istiqamətində dövlət dəstək tədbirlərini müsbət qiymətləndirib. Dövlətin sosial dəstək tədbirləri ilə bağlı siyasətinə qeyd olunan qrupun münasibəti 85.4.% ilə 97.4% göstəricilər arasında dəyişir.
- Rəyi öyrənilən qrupun mütləq əksəriyyəti (97.4%) sosial baxımdan həssas əhali qrupuna aid tələbələrin təhsil haqlarının dövlət tərəfindən qarşılanması üzrə təşəbbüsü müsbət qiymətləndirib.
- Qrafikdən də göründüyü kimi, müqayisə etibarilə ən az müsbət qiymətləndirilən dəstək aləti isə 85.4%-lik göstərici ilə işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin (190 AZN) verilməsidir.
- Təhlillər göstərir ki, sözügedən qrup üzrə işsiz kimi qeydə alınan şəxslərə birdəfəlik ödəmə (190 AZN) barədə məlumatlı olan 99.2% respondentin mütləq əksəriyyəti (82.9%) bu dəstək alətindən faydalanmaq üçün müraciət edib. Məskunlaşma meyarı baxımından müraciət edənlərin 61%-i şəhər respondentləridir. Ailə vəziyyəti kontekstindən dəyərləndirdikdə müraciət edənlərin 70.6%-i evli, 19.6%-i subay və 9.8%-i isə boşanmış/duldur. Bu dəstək tədbirinə müraciət edən işsiz respondentlərin ancaq 24.6%- i ictimai iş yerlərinə müraciət edib. Sözügedən dəstək tədbirinə müraciət edənlərin 85.3%-i əsasən 26-55 yaş aralığında olan şəxslərdir.
- İşsiz kimi qeydə alınan şəxslərə birdəfəlik ödəmə (190 AZN) dəstək alətinə müraciət edən 82.9% respondentin sadəcə 28.4%-i bu dəstəkdən faydalandığını bəyan edib, 71.6%-i isə mənfi cavab almaqla faydalanmadıqlarını bildirib.
- Müraciəti müsbət dəyərləndirilən və dəstək alətindən faydalanan 28.4% respondentin əsas profilini aşağıdakı kimi xarakterizə edə bilərik:

● 41.4%-i qadın və 58.6%-i kişi

● 75.9%-i orta təhsilli, 13.8%-i ali təhsilli və 10.3%-i peşə ixtisas təhsilli

● 82.8%-i şəhər, 3.4%-i qəsəbə və 13.8%-i kənd

● 58.6%-i 18-36 yaş aralığında olanlardır.

- Müraciəti təmin olunmayan, faydalana bilməyən 71.6% respondentin 63.5%-i bu dəstək alətinin verilmə şərtlərini məqbul hesab etmədiyini bildirib. Eyni zamanda müraciəti təmin olunan respondentlərlə (3.4%) müqayisədə bu dəstəkdən faydalana bilməyən respondentlərin 39.2%-i Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) fəaliyyətini mənfi qiymətləndirib.

- Karantin dövründə işsizlərlə bağlı tətbiq olunan ən önəmli dəstək alətlərindən biri, heç şübhəsiz, ictimai iş yerləri ilə təminat məsələsidir. İctimai iş yerləri ilə bağlı məlumatlı olan 56.4% respondentin cəmi 20%-i, ümumilikdə karantin dövründə işini itirənlərin isə cəmi 11.3%-i ictimai iş yerlərinə müraciət etdiyini bildirib. Müraciət edən 14.3% respondent bu tədbirdən faydalandığını bildirib.

- Müraciətləri təmin edilməyən 85.7% respondentin profili aşağıdakı kimidir:

● 41.7%-i qadın və 58.3%-i kişi

● 83.3%-i orta təhsilli və 16.7%-i isə peşə ixtisas təhsillidir (ali təhsilli müraciət edən yoxdur)

● 50%-i şəhər, 16.7%-i qəsəbə və 33.3%-i kənd

● 50%-i 18-35 yaş, 41.7% isə 36-45 yaş aralığında olanlardır

- Müraciət edən 6.5% respondentin hamısı (100%) müraciətlərinintəmin olunmadığını bildirib.

- Digər iki dəstək tədbirindən faydalandıqlarını bildirən karantin dövründə işini itirmiş respondentlər isə müvafiq olaraq 22.5% və 22.9% civarındadır.

- Əhali üzrə elektrik enerjisi tariflərinin güzəştli istehlak həcminin artırılması tədbirindən faydalananların 43.5%-i şəhər, 21.7%-i qəsəbə və 34.8%-i kəndlərdə məskunlaşan respondentlərdir.

Sorğu çərçivəsində yuxarıda qeyd edilən istiqamətdə rəyi öyrənilənlərin sayının əhəmiyyətli dərəcədə az olduğunu nəzərə alaraq (ən çox rəy bildirilən dəstək alətinə 29 nəfər respondent) sosioloji baxımdan dəyərləndirmə yüksək xəta ilə xarakterizə edilə bilər. Məhz bu səbəbdən sorğunun nəticəsinin deskriptiv təhlili məqsədəuyğun hesab edilmir.

Təhlillər bizə onu deməyə əsas verir ki, bu qrup respondentlərin təqdim edilən dövlət dəstək tədbirlərinə müraciət etməmə səbəbləri müxtəlifdir. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi (190 AZN) tədbiri istisna olmaqla digər tədbirlərə müraciət olunmaması səviyyəsi 75%-dən yuxarıdır.

- Respondentlərin işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi (190 AZN) tədbirinə müraciət etməməsinin səbəbi kimi daha çox tələblərə uyğun gəlmədikləri qənaətləridir (82.9%). Müraciət formasını bilməyənlər sadəcə 4.8%-dir. Maraqlı məqamlardan biri də ondan ibarətdir ki, bu tədbirdən faydalana biləcəyinə ümidi olmayanlar isə müraciət etməyən respondentlərin ancaq 4.8%-ni təşkil edir. Xüsusi qeyd etmək lazımdır ki, müraciət etməyən respondentlərdən heç biri təqdim edilən məbləğin azlığını səbəb kimi göstərməyib.

- Fiziki şəxs olan istehlakçılara ƏDV-nin geri qaytarılması ilə bağlı tədbirə müraciət etməyənlərin 68.4%-i müraciət formasını bilmədiklərini qeyd etdikləri halda 5.3%-i geri qaytarılan məbləğin aşağı olması, 2.6%-i isə tədbirin əhatə arealının məhdudluğunu əsas səbəb kimi göstərib.

- İctimai iş yerlərinə müraciət etmədiklərini əsaslandıran işsiz kəsimin arqumentləri isə olduqca çoxistiqamətliliyi ilə diqqət çəkir. Belə ki, rəyi öyrənilən işsizlərin 21.4%-i tələblərə uyğun gəlmədiklə-

**Dövlət dəstək tədbirlərinə müraciət edilməməsinin səbəbləri**




**Qeyd:** 22.05.2020 – 23.05.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

**Dövlət dəstək tədbirləri ilə bağlı tələb olunan şərtlərə münasibətin qiymətləndirilməsi**




**Qeyd:** 22.05.2020 – 23.05.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

**Karantin dövründə işini itirənlərin əsas keçim mənbələri**




**İşini itirənlərin sosial dəstək alətlərini icra edən qurumların fəaliyyətinə münasibəti**




**Qeyd:** 03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

ri qənaətində olub, 16.1%-i müraciət formasını bilmədiyini və 5.4%-i təqdim edilən iş şərtlərinin onları qane etmədiyini bildirib. Digər tərəfdən respondentlərin 8.9%-i əmək haqqının onları qane etmədiyi, 16.1%-i isə işə götürüləcəyindən ümidsiz olduğunu bəyan edib. 35.7% rəyi öyrənilən isə bu istiqamətdə digər səbəbləri əsas gətirib.

Dövlət dəstək alətlərinin reallaşdırılması çərçivəsində tələb olunan şərtlərə ictimai münasibət birmənalı olmadığı üçün hədəf respondent qrupunun sözügedən şərtlərə münasibəti öyrənilib. Sorğunun nəticələrinin deskriptiv təhlili bizə aşağıdakı nəticələrdən çıxış etməyə imkan verir:

- Rəyi öyrənilən qrup sosial dəstək tədbirləri arasında işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin (190 AZN) verilməsi və ictimai iş yerləri ilə bağlı tələb olunan şərtləri digərləri ilə bağlı tələblərlə müqayisədə daha qeyri-məqbul hesab edib.
- Müraciəti təmin olunanların 89.7%-i işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtlərini məqbul hesab etdiyi halda, müraciəti təmin olunmayan respondentlərdə bu göstərici 37% təşkil edib.
- Şərtləri məqbul hesab etməyən respondentlərin 76.5%-i 26-55 yaş intervalında olmaqla, 69.1%-i kişilərdən ibarətdir.
- Təhsil səviyyəsi baxımından əsasən orta təhsilli respondent qrupu (80%) işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtlərini qeyri-məqbul hesab edib.
- İşsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtlərini məqbul hesab edən əsas region kimi Gəncə-Qazax iqtisadi rayonu 36.8%-lik göstərici ilə fərqləndiyi halda, bu dəstək alətinin şərtlərini qeyri-məqbul hesab edən Aran iqtisadi rayonu 21.8%-lik göstərici ilə əks mövqedə qərarlaşır.
- Sözügedən dəstək alətini məqbul hesab etməyən 44.7% respondent qrupu bu dəstək alətinin reallaşdırılmasından birbaşa məsul olan qurum kimi ƏƏSMN-in fəaliyyətini 46%-lik göstərici ilə mənfi qiymətləndirib. Eyni göstərici üzrə şərtləri məqbul hesab edən respondentlər 18%-lik göstərici ilə müsbət rəy bildirib.
- İctimai iş yerlərinin yaradılması və işə qəbul kriteriyaları üzrə dəyərləndirmə zamanı bu dəstək alətindən məlumatlı respondentlərin 60%-nin şərtləri müsbət qiymətləndirdikləri halda, 40%-ə qədəri əks mövqedən çıxış edib.
- Müvafiq olaraq bu istiqamətdə mənfi rəy bildirən respondentlərin 89.3%-i 26-55 yaş aralığında qərarlaşıb. Həmçinin şərtləri məqbul hesab etməyənlərin 60.7%-i kişilərdir. Təhsil səviyyəsinə görə isə respondentlərin 85.7%-i orta və peşə ixtisas təhsillilərdir.
- Region olaraq Bakı şəhərində bu dəstək alətləri üzrə şərtləri qeyri-məqbul hesab edən respondentlər 32.1%-lik göstərici ilə ön sırada qərarlaşıb.

Tədqiqat çərçivəsində sözügedən sosial dəstək tədbirlərini icra edən dövlət qurumlarının reytinq göstəriciləri işsizlərin rəyləri əsasında 4 ballıq şkala (1 çox pis, 4 çox yaxşı) üzrə qiymətləndirilib. Hesablanmış orta qiymətə əsasən "Azərişıq" ASC 3.04 balla ən yüksək pillədə qərarlaşdığı halda, 2.78 balla yerli icra hakimiyyəti orqanları ən son pillədə yer alıb. Ümumiyyətlə bu kontekstdəki sıralamada aşağıdakı ardıcıllıq müşahidə edilir: "Azərişıq" ASC (3.04), DOST mərkəzləri və Təhsil Nazirliyi (3.00), Dövlət Vergi Xidməti (2.99) və nəhayət, sonuncu pillələrdə ƏƏSMN (2.80), yerli icra hakimiyyətləri (2.78).




## 2.5. Xüsusi karantin dövründə məhsul və xidmətlərin təminatı ilə bağlı tədbirlər

Xüsusi karantin dövrü ərzində dövlət tərəfindən əhalinin ərzaq məhsulları, qoruyucu vasitələr (tibbi maska, tibbi spirt və əlcək), dərman preparatları, internet və elektrik enerjisi ilə fasiləsiz təminatı məqsədilə ərzaq mağazalarının, marketlərin və supermarketlərin, apteklərin, kommunal və telekommunikasiya xidmətlərinin iş rejimində dəyişiklik edilməyib. Ölkədə üç aylıq ərzaq ehtiyatı formalaşdırılıb və altı aylıq ərzaq ehtiyatı tədbirləri hazırlanıb, qida məhsullarının təhlükəsiz şəkildə ölkəyə daşınması məqsədilə idxal-ixrac əməliyyatları davam etdirilib. Dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək istiqamətində əhalinin aztəminatlı və həssas qruplarına ərzaq təminatı məqsədilə müxtəlif qurumlar, fondlar, sahibkarlıq subyektləri, ictimai birliklər tərəfindən, eləcə də fərdi təşəbbüslər formasında ərzaq yardımı kampaniyaları təşkil edilib. Eləcə də Heydər Əliyev Fondunun “Biz birlikdə güclüyük” aksiyası çərçivəsində müraciətlərin qəbulu məqsədilə xüsusi portal (bizbirlikdegucluyuk.az) və “150 - çağrı mərkəzi” istifadəyə verilib və “Regional İnkişaf” İctimai Birliyi könüllülərinin iştirakı ilə paytaxt və regionlarda 100 mindən çox ailəyə ərzaq bağlaması çatdırılıb.

Pandemiya səbəbindən əsas qoruyucu vasitə kimi tibbi maskaya tələbatın kəskin artması bütün ölkələrdə maska qıtlığına yol açıb, istehsalçı ölkələr daxili tələbatı ödəmək məqsədilə tibbi maska ixracını, eləcə də istehsal avadanlığı və xammal ixracını dayandırıb. Ölkəmizdə bu istiqamətdə ehtiyat formalaşdırmaq məqsədilə Nazirlər Kabinetinin 5 mart 2020-ci il tarixli qərarına əsasən maskaların, o cümlədən baxillərin, steril və qeyri-steril əlcəklərin idxalı iyun ayının 1-dək gömrük rüsumundan azad olunub.

Dövlət başçısının tapşırığına əsasən, aidiyyəti dövlət qurumları qısa müddətdə tibbi maska istehsalı avadanlığının və xammalın ölkəyə gətirilməsinə nail olub, 6 aprel tarixində Sumqayıt Kimya Sənaye Parkında “Bakı Tekstil Fabriki” MMC tərəfindən yaradılan və gündəlik istehsal gücü 200-250 min ədəd olan tibbi maska isteh-

| Ölkələr | Görülmüş tədbirlər üzrə əsas istiqamətlər | Həyata keçirilən tədbirlər |
|---|---|---|
| Kanada | 3D printerlərdə tibbi maskaların çapı | Bir sıra universitetlərdə tələbələr öz texniki avadanlıqlarından tibbi maskaların çapı üçün istifadə etməyi təklif etdilər |
| | Tibbi maskaların istehsalı üçün maşın ehtiyat hissələri istehsalçılarının əməkdaşlığı | "Ford Motor" şirkətinin yığma lentlərinin yenidən quraşdırılması |
| | Hökumətin sahibkarlara müraciəti | Hökumət tibbi maska ilə təmin edə bilən sahibkarlara müraciət etdi. 11 milyon maska toplamağa müyəssər oldular |
| Çin | FMV istehsal edən şirkətlərə dövlət yardımı | Hökumət istehsalı artırmaq üçün alınmış avadanlığı geri alacağına vəd verdi. O cümlədən fərdi müdafiə vasitəsi istehsalı üçün icazələrin alınma proseduru sadələşdirildi |
| | Şanxay. Tekstil fabriklərində maska istehsalının başlanması | Şanxay hökuməti elan etdi ki, iki tekstil fabriki 20 dəfəyədək yenidən istifadə oluna bilən nanotexnologiya ilə yaxşılaşdırılmış maska istehsal etməyə başlayacaq. |
| B. Britaniya | Çoxdəfəlik istifadə olunan FMV istifadəsinə icazə | 3 aprel tarixində Milli Səhiyyə Xidməti FMV-dən istifadə etməyi məsləhət gördü. Səhiyyə işçiləri çoxdəfəlik FMV-dən istifadə edə bilər |
| Avropa İttifaqı | FMV-dən məhdud sayda təkrar istifadə. Xüsusi çoxdəfəli FMV nəzərdə tutulmayıb | 31 mart tarixind AI çatışmazlıq zamanı FMV-dən təkrar istifadəni mümkün hesab etdi, lakin dəqiqləşdirmələr verilmədi. Bundan əlavə, təkrar istifadə mühafizə eynəkləri üçün nəzərdə tutulub |

**Xüsusi karantin dövründə zəruri məhsul və xidmətlərlə tədarükün qiymətləndirilməsi**




**Qeyd:** 24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

salı müəssisəsinin açılışı həyata keçirilib. Həmçinin xüsusi karantin rejimi ərzində əhalinin tibbi maska ilə təminatı sahəsində dövlət qurumları tərəfindən regionlar üzrə ehtiyacı olan ailələrə, eləcə də apteklərə təmənnasız maska paylanıb. Tibbi spirtə olan ehtiyacı nəzərə alaraq, bu istiqamətdə 6 yerli istehsalçı müəssisə fəaliyyətə başlayıb, ölkədə 96 faizlik həcmi 1,5 milyon ton təşkil edən tibbi spirt ehtiyatı yaradılıb.

Xüsusi karantin rejimi dövründə əlcək və dərman preparatlarının əldə olunması istiqamətində hər hansı ciddi çətinlik müşahidə edilməyib. Koronavirusa yoluxmuş xəstələrin müalicəsi məqsədilə Çin, Almaniya və digər ölkələrlə aparılan danışıqlar nəticəsində lazımi avadanlıqların, preparatlarının, mütəxəssislərin ölkəyə gətirilməsi üçün müvafiq razılaşma əldə olunub.

Xüsusi karantin rejimi ərzində rəsmi statistikaya əsasən internetdən istifadə göstəricilərində kəskin artım qeydə alınıb. Bu dövr ərzində qısamüddətli internet kəsintilərinə baxmayaraq, internetlə fasiləsiz təminat istiqamətində müvafiq addımlar atılıb, informasiya texnologiyaları sahəsində çalışan mütəxəssislər onlayn şəkildə mütəmadi fəaliyyət göstəriblər. Həmçinin bu dövr ərzində ölkə üzrə elektrik enerjisi ilə təminatda hər hansı ciddi problem qeydə alınmayıb.

Rob Vos, Vill Martin və Devid Labordenin Beynəlxalq Ərzaq Siyasəti Araşdırmaları İnstitutu (International Food Policy Research Institute) çərçivəsində hazırladıqları bir hesabata görə, dünya iqtisadiyyatdakı 1%-lik daralmanın qlobal yoxsulluq və ərzaq təhlükəsizliyinə sahib olmayan insanların sayında 2%-lik (təqribən 14 milyon nəfər) artıma səbəb olacağı proqnozlaşdırılıb. Buradan belə qənaətə gələ bilərik ki, ən yaxşı ehtimal kimi 3% və ən pis ehtimal kimi 5-7%-lik bir iqtisadi daralma mövcud vəziyyəti daha da dramatikləşdirə bilər. Proqnozlar göstərir ki, pandemiyanın yayılması zəruri ərzaq məhsullarına əlçatımlılığa ciddi təhdid yaradaraq dünya üzrə ümumilikdə 50 milyondan çox əhalinin mütləq yoxsulluğuna səbəb ola bilər.

Sorğu çərçivəsində respondentlərin qida məhsulları, qoruyucu vasitələr (tibbi maska, tibbi spirt və əlcək), dərman preparatları, internet təminat sahəsində qarşılaşdıqları çətinliklər dəyərləndirilib. Təhlillər göstərir ki, daha çox qıtlıq qoruyucu tibbi vasitə və internetin keyfiyyəti ilə bağlı təminatda yaşanıb. Qiymətləndirilən digər zəruri tələbat kimi qida məhsulları ilə təminat sahəsində rəyi öyrənilənlərin 88%-i heç bir çətinliklə üzləşmədiklərini qeyd ediblər.

- Qida məhsullarının əldə edilməsində çətinliklə üzləşdiklərini bildirən (11.1%) respondentlərin məskunlaşma bölgüsünə diqqət yetirsək, qəsəbə respondentlərinin 18.2%-i, kənd respondentlərinin 12.6%-i və nəhayət, şəhər respondentlərinin 8.7%-i bu qənaətdən çıxış edib ($X^2(4)=13.224$, $p<0.05$).

- Sorğu çərçivəsində rəyi öyrənilənlər arasında karantin rejiminin tətbiqi ilə əlaqədar işini itirdiyini bildirən respondentlərin 21.1%-i qida məhsullarının əldə edilməsi ilə bağlı çətinliklə qarşılaşdığını qeyd etdiyi halda iş yerini itirməyən 36.7%-lik kəsimin isə ancaq 7%-i belə bir problemlə üzləşdiklərini vurğulayıb ($X^2(4)=22.505$, $p<0.01$).

- Quba-Xaçmaz iqtisadi rayonu 25%-lik göstərici ilə yuxarıda qeyd edilən ehtiyacların qarşılanması baxımından çətinliklərlə üzləşən daha həssas region kimi ön sırada qərarlaşıb ($X^2(16)=66.224$, $p<0.01$).

- İnfeksiyadan qorunmaq üçün qoruyucu tibbi vasitələrin əldə edilməsi istiqamətində müvafiq olaraq respondentlərin 39.9%-i tibbi maska, 24.8%-i tibbi spirt və nəhayət, 20.7% əlcək ilə təminatda çətinliklərlə üzləşdiklərini qeyd edib.

- Tibbi maska ilə bağlı qıtlığın daha yüksək olduğu coğrafi region

sıralamasında Abşeron iqtisadi rayonu 68.1%-lik göstərici ilə ilk yerdə qərarlaşıb. Bu istiqamətdə vəziyyətin daha qənaətbəxş olduğu regionlar arasında isə Gəncə-Qazax (31%) və Aran (32.5%) iqtisadi rayonları ilk sıralarda yer alıb ($X^2(16)=78.116$, $p<0.01$).

- Tibbi spirt ilə təchizat sahəsində problemlərlə üzləşən regionlar kimi 38.5%-lik göstərici ilə Yuxarı Qarabağ və 37.7%-lik göstərici ilə Quba-Xaçmaz iqtisadi rayonları diqqət çəkir. Bu sahədə təchizat probleminin daha az müşahidə edildiyi region isə 19%-lik göstərici ilə Gəncə-Qazax bölgəsidir ($X^2(16)=62.189$, $p<0.01$).

- Dərman preparatlarının əldə edilməsi ilə bağlı vəziyyətə gəldikdə isə rəyi öyrənilənlərin 77.2%-i bu istiqamətdə heç bir problemin olmadığını qeyd etdiyi halda, müvafiq olaraq 10.2% respondent problemlə üzləşdiyini, 12.6% respondent isə dərman preparatlarına ehtiyac duymadığını bəyan edib.

- Bu istiqamətdə çətinliklərin müşahidə edildiyi əsas region kimi 26%-lik göstərici ilə Yuxarı Qarabağ çıxış etdiyi halda vəziyyətin müqayisədə daha yaxşı olduğu region kimi 2.8%-lik göstərici ilə Lənkəran regionu fərqlənib ($X^2(16)=200.710$, $p<0.01$).

- İnternetin keyfiyyəti ilə bağlı suala münasibət bildirən respondentlərin 47.6%-i bu istiqamətdə problemlərlə qarşılaşdıqlarını bildirib, 43.7% respondent isə internet xidmətləri ilə bağlı heç bir narazılığının olmadığını qeyd edib. Ümumi respondentlərin 8.7%-i cari şəraitdə internetə ehtiyac duymadığını bildirib.

- İnternetin keyfiyyəti ilə bağlı əsas iradların bildirildiyi region 59.7%-lik göstərici ilə Abşeron iqtisadi rayonudur. İnternetin keyfiyyəti ilə bağlı narazılığın daha az olduğu region isə 16.1%-lik göstərici ilə Gəncə-Qazax iqtisadi rayonudur ($X^2(16)=106.663$, $p<0.01$).

- Karantin rejiminin özünün və ya övladının təhsilinə mənfi təsir göstərdiyini qeyd edən 44.1% respondentin 57%-i eyni zamanda internetin keyfiyyətindən də narazı olduğunu ifadə edib ($X^2(8)=61.640$, $p<0.01$)

Pandemiya ilə mübarizə çərçivəsində səhiyyə və digər infrastruktur sahələrinin inkişaf etdirilməsi və müvafiq xidmət səviyyəsinin keyfiyyəti və əlçatanlığının yüksəldilməsi istiqamətində həyata keçirilən dövlət tədbirlərinə ictimai rəy əsas etibarilə müsbət (90%-in üzərində) dinamika ilə xarakterizə edilir.

- Yeni modul tipli xəstəxana və tibb müəssisəsinin istifadəyə verilməsi, zəruri tibbi avadanlıq və digər tibbi vasitələrin tədarükü və həmçinin tibbi maska və digər vasitələrin yerli istehsalı ilə bağlı dövlət tədbirlərinin qiymətləndirilməsinə yönəlik respondent rəyini bir faktor kimi dəyərləndirmək mümkündür. Faktor analizi onu deməyə əsas verir ki, qeyd olunan bir faktor respondentlərə ünvanlanmış sualların variasiyasının 67.9%-ni izah edir. Bu faktorun Kronbax Alfa (Cronbachs Alpha) göstəricisi 0.762-dir.

- ANOVA testinə əsaslanaraq məskunlaşma təsnifatı üzrə dəyərləndirdikdə qeyd edə bilərik ki, kənd respondentləri sözügedən istiqamətlər üzrə dövlət təşəbbüslərini daha yüksək qiymətləndiriblər ($F(2)=3.846$, $p<0.05$).

- Ayrı-ayrılıqda qeyd edə bilərik ki, respondentlərin yeni modul tipli xəstəxananın və tibb müəssisəsinin istifadəyə verilməsinə münasibəti 96.3%, zəruri tibbi avadanlıq və digər tibbi vasitələrin tədarükü ilə bağlı tədbirlərə münasibəti 96.6%, tibbi maska və digər qoruyucu vasitələrin yerli istehsalına mövqeyi isə 97.2% müsbət göstəricilərlə xarakterizə olunur.

| Ölkələr | Həyata keçirilmiş tədbirlər | Nəqliyyat vasitələri |
|---|---|---|
| B. Britaniya | 2020-ci ilin yanvarında 18 Skoda Kodiaq təcili tibbi yardım avadanlığına çevrilib MSX-ə verilib | Yüngül minik avtomobilləri |
| Çin | 2020-ci ilin fevralında "Jiangling" şirkəti tibb müəssisələrinin tələbatını ödəmək üçün 1,9 min Ford Transit avtomobilini yenidən quraşdırmaqla bağlı sifariş aldı. Ondan əvvəl isə "SAIC Motor" avtomobil şirkəti tərəfindən furqon tipli Ford Transit modeli yenidən hazırlanıb. | Yüngün kommersiya avtomobilləri |
| B. Britaniya | "Conversation Specialist" şirkəti tibbi tələbatı ödəmək üçün 56 Fiat Ducato avtomobilini yenidən quraşdıracaq | |
| ABŞ | Təcili tibbi yardımın çağırışına operativ cavab vermək üçün Nyu Yorkda 5 yanğınsöndürən maşın yenidən quraşdırılıb | Yanğınsöndürən maşınlar |
| Fransa | TGV ikimərtəbəli sərnişin qatarı xəstələri operativ daşımaq üçün yenidən quraşdırılıb | Qatarlar |
| Çin | EHANG HOLDİNG LİMİTS şirkəti tərəfindən 2020-ci ilin fevral ayında pilotsuz sərnişin uçuş aparatı sınaqdan keçirilib. O, iki əyalət arasında dərman preparatlarını uğurla daşıyıb. | Sərnişin uçuş aparatları |
| ABŞ | 2020-ci ilin mart ayında 250 avtomobil tibb müəssisələrinə Federal Agentlik tərəfindən verilib. (500 feldşer və təcili yardım həkimi, həmçinin 85 refricerator mobil ölüxana kimi) | Təcili yardım avtomobilləri |
| BƏƏ | 2020-ci ilin mart ayında iri biznesmen 50 müasir avtomobili təmənnasız olaraq təcili yardım xidmətinə verdi. | |
| Çin | "ArselorMittal Krivoy Roq" şirkəti koronavirus xəstələrini təhlükəsiz | |

**Xüsusi karantin dövründə tibbi vasitə və xidmətlərlə təminatın qiymətləndirilməsi**




**Qeyd:** 24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri




## 2.6. Pandemiya ilə mübarizə çərçivəsində həyata keçirilən maliyyə tədbirləri

Dövlət başçısının 19 mart tarixli sərəncamı ilə pandemiyanın ölkə iqtisadiyyatına, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı tədbirlərin maliyyələşdirilməsi məqsədilə Nazirlər Kabinetinə 1.0 (bir) milyard manat vəsait ayrılıb, daha sonra bu vəsaitin həcmi 3.5 milyard manata çatdırılıb. Dövlət başçısının müvafiq sərəncamının icrası ilə bağlı Tədbirlər Planında 2.5 milyon vətəndaşı əhatə edən 4 istiqamət üzrə 10 tədbir əksini tapıb.

Koronavirus infeksiyası ilə mübarizə istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyini təmin etmək məqsədilə dövlət başçısının 19 mart tarixli fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondu yaradılıb. İlk olaraq dövlət başçısı bir illik əmək haqqı məbləğini həmin Fonda ianə edib, eyni tarixli sərəncamla isə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Koronavirusla Mübarizəyə Dəstək Fonduna ilkin olaraq 20 milyon manat vəsait ayrılıb. Həmçinin I Vitse-prezident könüllü olaraq bir illik əmək haqqı məbləğini Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə edib. Ölkə rəhbərliyinin bu təşəbbüsü könüllü ianələrin sayını artı-

rıb, dövlət büdcəsindən ayırmalarla yanaşı, hüquqi və fiziki şəxslər, ayrı-ayrı ictimai fiqurlar bu aksiyada iştirak ediblər. Ümumilikdə ianə aksiyasında 12208 fiziki şəxs və 3375 hüquqi şəxs ianə təşəbbüsü göstərib. Toplanan vəsaitin məqsədəuyğun və şəffaf xərclənməsinə nəzarət məqsədilə aprel ayının 11-də Baş Nazirin müvafiq sərəncamı ilə Nazirlər Kabineti yanında ictimaiyyəti təmsil edən beş və Nazirlər Kabineti yanında Operativ Qərargahı təmsil edən iki nümayəndə daxil olmaqla yeddi üzvdən ibarət Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurası yaradılıb. Mayın 5-də İctimai Nəzarət Şurasının ilk iclası keçirilib, toplanan vəsaitlər haqqında məlumatların ictimaiyyətə açıqlığını təmin etmək məqsədilə rəsmi sayt (http://COVID19fund.gov.az/az/) istifadəyə verilib.

Pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərinə ictimai münasibətin öyrənilməsi də sorğu çərçivəsində nəzərə alınıb. Belə ki, aprel ayında keçirilən sorğu zamanı ümumi respondentlərin 55.6%-i ayrılmış vəsaitlərini yetərli hesab etdiyini bildirib. 24.0% respondent isə əks mövqedən çıxış edib.

- Sözügedən istiqamət üzrə rəylərin nəticəsi 20.4% respondentin bu suala cavab verməkdə çətinlik çəkdiyini göstərir. Təhlillər göstərir ki, bu mövqedən çıxış edən respondentlərin təhsil səviyyəsinə görə strukturu aşağıdakı kimi şəkillənib: ali təhsilli respondentlərin 15.8%-i, peşə-ixtisas təhsilli respondentlərin 25.3%-i və tam orta təhsilli respondentlərin 21.8%-i ($X^2(8)=21.327$, $p<0.01$).

- Özəl sektorda çalışan respondentlərin 40.5%-i pandemiya ilə mübarizəyə yönəldilmiş maliyyə vəsaitlərini yetərli hesab etdiyi halda, 38.1% respondent tam əks mövqedən çıxış edib. Rəyi öyrənilən 21.4% özəl sektor nümayəndəsi isə sözügedən sahədə fikir bildirməkdə çətinlik çəkdiyini qeyd edib.

- Fərdi əmək fəaliyyəti ilə məşğul olan respondentlərin 46.4%-i ayrılmış vəsaitləri yetərli hesab etdiyi halda, 42.3% respondent əks mövqedən çıxış edib.

- Dövlət sektorunda çalışanların, eləcə də təqaüdçülərin analoji suala mövqeyi isə aşağıdakı kimi xarakterizə olunur. Belə ki, sorğu üzrə dövlət sektorunda çalışan, həmçinin təqaüdçü respondentlərin müvafiq olaraq 58.5%-i və 68.2%-i ayrılmış maliyyə resurslarını yetərli hesab ediblər.

- Sorğuda iştirak etmiş 17.2% işsiz kəsimi təmsil edən respondentlərin 48.3%-i dövlət tərəfindən ayrılan vəsaitləri yetərli hesab etdikləri halda, 26.3%-i əks mövqedən çıxış edib. Digər tərəfdən bu seqmentə aid olan 25.4% respondent isə bu məsələyə münasibət bildirməkdə çətinlik çəkdiyini bildirib ($X^2(14)=68.606$, $p<0.01$).

Sorğu çərçivəsində rəyi öyrənilən respondentlərin 44.1%-i Fonda ayrılan vəsaitlərin təyinatı üzrə xərclənəcəyinə inandığını bildirdiyi halda, 10.1% respondent əks mövqedən çıxış edib. Respondentlərin 28.2%-i Fond haqqında məlumatsız olduğunu bildirib. 17.4% respondent isə vəsaitlərin təyinatı üzrə xərclənəcəyinə münasibət bildirməkdə çətinlik çəkib. Həmçinin sorğu çərçivəsində respondentlərin sözügedən Fonda ianə təşəbbüsdə iştirak edib-etmədiyi də öyrənilib. Belə ki, respondentlərin 7.8%-i özünün, 14.1%-i isə yaxınlarının Fonda ianə verdiyini bildirib.

- Fonda ianə etdiklərini qeyd edən respondentləri müxtəlif kriteriyalar üzrə aşağıdakı kimi xarakterizə edə bilərik:

- Fonda ayrılan vəsaitlərin təyinatı üzrə xərclənməsinə bildirilən fikirlərlə respondentlərin məskunlaşdıqları iqtisadi rayon arasında statistik əhəmiyyətli əlaqə tapılıb ($X^2(24)=284.380$, $p<0.01$). Belə ki, sözügedən suala ən çox müsbət cavab verənlər Yuxarı Qarabağ iqtisadi rayonunda yaşayan respondentlərdir (60.4%). Bu göstərici üzrə inanmayanların ən çox yaşadıqları iqtisadi rayon isə Şəki-Zaqataladır (19%). Abşeron iqtisadi rayonundan olan respondentlər isə ümumiyyətlə Fond haqqında ən az məlumatı olanlardır

**Pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərinə münasibətin qiymətləndirilməsi**




**Koronavirusla Mübarizəyə Dəstək Fonduna və toplanan ianələrə münasibətin qiymətləndirilməsi**




**Qeyd:** 24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

### Böhrandan çıxış üçün qlobal strategiya

*COVID-19 pandemiyasına qarşı qlobal miqyasda tətbiq olunan iqtisadi siyasət alətləri kimi Beynəlxalq Valyuta Fondunun əsas tövsiyələri:*

- *Ailə iqtisadiyyatlarına yönəlik tədbirlər.*
- *Kredit tətilləri, birbaşa nağd vəsait transfertləri.*
- *Vergi tətilləri.*
- *İşsizlik sığortası ödənişləri.*
- *Özəl sektora yönəlik dəstək tədbirləri.*
- *Borcların restruktizasiyası.*
- *Məşğulluğun qorunmasına yönəlik subsidiyalar.*
- *Dövlət kredit zəmanətləri.*
- *Maliyyə-bank sektoruna yönəlik tədbirlər.*
- *Bazarlarda potensial likvidlik risklərinə qarşı tədbirlər.*

***Mənbə:*** *www.imf.org*

**İnkişaf etmiş ölkələrin pandemiya ilə mübarizə çərçivəsində həyata keçirdikləri dəstək paketləri**

| Ölkələr | Tədbirlər paketi çərçivəsində həyata keçirilən dəstək mexanizmləri | Paketin həcmi | ÜDM-də payı %-lə |
|---|---|---|---|
| Almaniya | Dövlət büdcəsinin dəstəklənməsinə 156 mlrd. avro xərclənəcək. 10 mlrd. avro İqtisadi Stabillik Fonduna, 100 mlrd. avro dövlət bankları vasitəsilə müəssisələrə yardım üçün | 356 milyard avro | 10%-ə yaxın |
| Fransa | Hökumətin planında 345 mlrd. avro nəzərdə tutulur. Ondan 30 mlrd. müəssisələrin kreditlərinə zəmanət üçün (xüsusilə kiçik və orta sahibkarlığa), 45 mlrd. müəssisələrə birbaşa yardım üçün | 345 milyard avro | 14%-ə yaxın |
| İspaniya | 200 mlrd. avro müəssisələrə və işçilərə yardım üçün, həmçinin koronavirus böhranından ziyan çəkmiş digər həssas əhali qrupları üçün | 200 milyard avro | 17%-ə yaxın |
| ABŞ | 1 trilyon dollar: Vergi Xidməti və Fiskal Xidmətlər Bürosunun həyata keçirəcəyi ikimərhələli birbaşa ödəmələr: 6 apreldən başlayaraq 250 mlrd. dollar, 18 maydan başlayaraq ikinci dəfə 20 mlrd. dollar. Bundan əlavə, Maliyyə Nazirliyi kiçik biznesə kredit üçün 300 mlrd. dollar, problemli iqtisadiyyat sahələrinə 150 mlrd. dollar və aviasiya sənayesinə yardım üçün 50 mlrd. dollar verir. Paketin 2 trilyona qədər artırılması planlaşdırılır. | 2 trilyon ABŞ dolları | 10%-ə yaxın |

(52.8%). Bu məsələ ilə bağlı fikir bildirməkdə çətinlik çəkənlərə isə ən çox Gəncə-Qazax iqtisadi (42.9%) rayonunda rast gəlinir.

- Dövlət və özəl sektorda çalışan respondentlərin Fonda ayrılan vəsaitlərin təyinatı üzrə xərclənməsinə verdikləri cavablar statistik əhəmiyyətli dərəcədə fərqlənir ($X^2(3)=18.537$, $p<0.01$). Dövlət sektorunda çalışanların 53.8%-i Fonda edilən ianələrin təyinatı üzrə xərclənəcəyinə inandıqları halda, özəl sektorda çalışanlar arasında analoji olaraq 29.8% respondent bu qənaətdən çıxış edib.

- Fonda ianə etdiyini bildirən respondentlərin coğrafi bölgüsü baxımından Aran iqtisadi rayonu 27.7%-lə ilk sırada qərarlaşdığı halda, 1.1%-lə Dağlıq Şirvan iqtisadi rayonu son sırada qərarlaşıb.

- İanə etdiklərini bəyan edən respondentlərin 59.6%-i Fondun vəsaitlərinin təyinatı və optimal istiqamətlər üzrə xərcləyəcəyinə inandığını bildirib.

- Dövlətin koronavirusla mübarizə çərçivəsində həyata keçirdiyi strateji tədbirlərin maliyyələşdirilməsi istiqamətində ayırdığı vəsaitləri yetərli hesab edən 55.6% respondentin 9.2%-i eyni zamanda Koronavirusla Mübarizəyə Dəstək Fonduna da ianə etdiyini bildirib ($X^2(3)=11.360$, $p<0.01$). Həmçinin, ianə etdiyini bildirən respondentlərin 72.6%-i Fondun vəsaitlərinin təyinatı üzrə optimal istifadə ediləcəyinə inandığını qeyd edib ($X^2(6)=361.012$, $p<0.01$).

- Digər tərəfdən, pandemiya ilə mübarizə çərçivəsində dövlət tərəfindən ayrılmış maliyyə vəsaitlərini yetərli hesab etməyən 24% respondentin 7.6%-i Fonda ianə etdiyini bildirib. Fondun vəsaitlərinin təyinatı üzrə xərclənəcəyinə onların sadəcə 22.8%-i inandığını bildirib.

- Pandemiya ilə mübarizə çərçivəsində dövlət tərəfindən məqsədyönlü tədbirlərin reallaşdırılması üçün ayrılmış maliyyə vəsaitlərinin yetərli hesab edildiyi region kimi ilk sırada Yuxarı Qarabağ (78.1%) qərarlaşdığı halda, ayrılmış vəsaitləri yetərli hesab etməyən region kimi Abşeron iqtisadi rayonu (36.1%) fərqlənib ($X^2(16)=198.575$, $p<0.01$).

- Fond haqqında məlumatının olmadığını bildirən respondentlərin ümumi xarakteristikasına diqqət etsək, görərik ki, onların 55.6%-i şəhər respondentləri, 14.9%-i dövlət sektorunda işləyən, 41.2%-i 26-45 yaş aralığında olan və əsasən Aran iqtisadi rayonunda (31.6%) məskunlaşan respondentlərdən ibarətdir.

- Fond haqqında məlumatı olmadığını bildirən 28.2% respondentin 33%-i ümumiyyətlə dövlət tərəfindən antiböhran tədbirlərinə ayrılmış vəsaiti yetərli hesab etmədiyini bildirib.




**2.7. Xüsusi karantin rejimindən çıxışla bağlı tədbirlər**

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus epidemiyasının pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində sözügedən Təşkilatın tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb. Bu məqsədlə 13 mart tarixindən ölkə üzrə xüsusi rejim tətbiq olunub, 24 mart tarixindən etibarən xüsusi karantin rejiminin tətbiqinə başlanılıb. Bu çərçivədə ölkə üzrə dövlət və özəl sektor subyektləri məhdudlaşdırıcı rejimdə fəaliyyət göstərib.

Aprel ayının sonlarına doğru Nazirlər Kabinetinin 30 mart tarixli qərarı ilə fəaliyyəti məhdudlaşdırılmış iş və xidmət sahələrinin bərpa olunması istiqamətində xüsusi karantin rejimindən mərhələli çıxış strategiyası hazırlanıb və may ayının əvvəlindən etibarən tətbiq olunmağa başlanılıb. Qoyulan tələblərin yumşalması sahələr üzrə nəzərdə tutulan ardıcıllıqla aparılıb. Lakin virusun yayılma sürəti və yoluxma dinamikasında artım dövri məhdudiyyətlərin tətbiqini yenidən zəruriləşdirib. Bu mənada 6-8 iyun və 14-16 iyun tarixlərində iri şəhərlərdə tam izolyasiya təşəbbüsünün gözləntiləri doğrultmaması 21 iyun tarixindən etibarən iri şəhərlərdə sərtləşdirilmiş karantin rejiminin yenidən tətbiq olunması ilə nəticələnib.

İlkin mərhələdə keçirilən sorğunun nəticələrinin təhlili bizə onu deməyə əsas verir ki, rəyi öyrənilənlərin 75.7%-i xüsusi karantin rejimindən mərhələli çıxışı daha məqbul variant kimi görüb. Respondentlərin sadəcə 19.3%-i birdəfəlik çıxışın tərəfdarı kimi mövqe sərgiləyib. Bununla yanaşı, respondentlərin 5.0%-i bu məsələyə münasibət bildirməkdə çətinlik çəkib.

- Xüsusi karantin rejiminin tətbiqi nəticəsində öz iş yerini itirdiyini bəyan edən 11.0% respondentin 75.0%-i karantin rejimindən çıxışın mərhələli olmasını istədiyi halda, 25.0%-i birdəfəlik çıxışı məqbul hesab edib.

- Karantin rejiminin gəlirlərinə mənfi təsir etdiyi mövqeyindən çıxış edən 60.2% respondentin 78.6%-i mərhələli və müvafiq olaraq 21.4%-i isə birdəfəlik çıxış strategiyasını daha məqbul hesab edib.

**Xüsusi karantin rejimindən çıxış strategiyasına münasibətin qiymətləndirilməsi**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

Project Syndicate

### Böhrandan çıxış üçün qlobal strategiya

*__1.__ Pandemiyadan sonra ölkələrin əvvəlkindən daha çox qapanıb bir-birinə düşmən mövqe tutacağı riski var. Qlobal əməkdaşlıq olmadan mövcud vəziyyətdən çıxmaq qeyri-mümkündür.*

*Ancaq hazırda məhz milli yanaşma üstünlük təşkil edir (sərhədlərin bağlanması, hərbi ritorika, rəqabətə görə qlobal təminat zəncirlərinin pozulması).*

*__2.__ Böhrandan çıxış yollarının resepti aydındır, ancaq bunu qlobal səviyyədə həyata keçirmək lazımdır:*

- *Kütləvi testləşdirmə (infeksiya və antitellərə) - Bunun üçün bütün dünyada çoxsaylı test sistemləri və avadanlıq olmalıdır. Bu isə qlobal təminat zəncirləri vasitəsilə mümkündür.*

*Əməkdaşlıqdan istehsalın həcmini artırmaq üçün faydalanmaq lazımdır.*

- *Yoluxma hallarının müşahidəsi və nəzarəti - Bir çox ölkələr rəqəmsal izləmə texnologiyaları ilə razı deyillər, lakin hazırda digər yolla izləmə də texniki olaraq mümkün deyil.*

*Ölkələr bu məsələdə vahid mövqedə olmalıdırlar. Mövcud müşahidə alətlərini vətəndaşların hüquqlarını, şəffaflığı, dəqiq ədalət prinsiplərini, alqoritmlərin təhlükəsizliyini nəzərə almaqla uyğunlaşdırmaq lazımdır.*

*Hətta dünya əhalisinin 60%-i izləmə ilə razılaşsa, bu, effektiv nəticə üçün kifayət edər.*

- *Vaksinin hazırlanması - Bu sahədə yüksək səviyyəli beynəlxalq əməkdaşlıq müşahidə edilir, lakin təkrar yoluxmanın qarşısını almaq baxımından növbəti addım onun qlobal paylanmasıdır.*

*Çiçək xəstəliyi ilə mübarizə təcrübəsi göstərdi ki, varlı ölkələr 1940-cı illərdə onun öhdəsindən gələ bilsələr də, dünya səviyyəsində buna nail olmaq üçün AST-ün böyük səyləri lazım oldu (1978-ci il üçün).*

- *Gələcəkdə mutasiya etmiş virusların izlənilməsi üçün erkən xəbərdarlıq sisteminin hazırlanması - Əhalisi çox olan ən kasıb ölkələrə xüsusi diqqət yetirmək lazımdır. Bu ölkələrdə epidemiyanın qarşısı nə qədər tez alınsa, digər ölkələr də epidemiyanın öhdəsindən o qədər tez gələ bilərlər.*

***Mənbə:** A Global COVID-19 Exit Strategy Apr 9, 2020 Ngaire Woods, Rajaie Batniji, Project Syndicate*

**Karantin rejimindən çıxışla bağlı tədbirlərə münasibətin qiymətləndirilməsi**




**Qeyd:** 09.06.2020 – 10.06.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

- Karantin rejiminin psixoloji vəziyyətinə mənfi təsir göstərdiyini qeyd edən respondentlər (40.7%) arasında karantin rejimindən mərhələli çıxışın tərəfdarları 81.0%, birdəfəlik çıxışı məqbul görənlər isə 19.9% təşkil edib.

- Karantin rejiminin sosial vəziyyətinə mənfi təsir göstərdiyini qeyd edən 38.4% respondentin 79.7%-i karantin rejimindən mərhələli çıxışı, 20.3%-i isə birdəfəlik çıxış strategiyasını məqbul hesab edib.

- Karantin rejiminin özünün və yaxud övladının təhsilinə mənfi təsir göstərdiyini qeyd edən 44.1% respondentin 78.5%-i mərhələli, 21.5%-i isə birdəfəlik çıxışı məqbul hesab edib.

- Rəyi öyrənilənlər arasında qida məhsullarının əldə edilməsində çətinlik çəkdiklərini bəyan edən 11.1% respondentin əhəmiyyətli hissəsi - 66.7%-i karantin rejimindən mərhələli çıxış tədbirlərini dəstəkləyib ($X^2(16)=198.575$, $p<0.01$).

- Karantin dövründə dövlət sərhədlərinin bağlanmasına "çox pis" münasibət bildirən 2.4% respondentin 44.8%-i sözügedən rejimdən çıxışın mərhələli 55.2%-i isə birdəfəlik olaraq reallaşdırılmasını məqbul hesab edib ($X^2(3)=36.615$, $p<0.01$).

- Karantin rejimindən mərhələli çıxış ilə əlaqədar müqayisə etibarilə daha müsbət mövqe bildirən region kimi Gəncə-Qazax iqtisadi rayonu 86.9%-lə ilk sırada qərarlaşdığı halda, birdəfəlik çıxış strategiyası üzrə ilk sırada 37.1%-lə Dağlıq Şirvan iqtisadi rayonu gəlib ($X^2(8)=17.934$, $p<0.05$).

Son mərhələdə, yəni iyul ayında keçirilən sorğu zamanı respondentlərin 66.6%-i xüsusi karantin rejimindən mərhələli, 27.4%-i isə birdəfəlik çıxışı məqbul variant kimi qeyd edib. İlkin mərhələdəki sorğu nəticələri ilə müqayisəli təhlil respondent rəyinin əhəmiyyətli dərəcədə dəyişdiyini göstərir. Belə ki, karantin rejimindən birdəfəlik çıxış variantını seçən respondentlərdə 8.1% artım qeydə alınıb.

Xüsusi karantin rejiminin uzadılması ilə bağlı həyata keçirilən tədbirlər paketinə ictimai rəy ölkə üzrə iki fərqli aspektdən yanaşma tələb edir. Belə ki, birinci qrupa Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə respondentlərin mövqeyi, ikinci qrupa isə ölkənin digər şəhər və rayonları üzrə respondentlərin yanaşmasını aid edə bilərik. Burada əsas fərqləndirici məqam karantin tədbirlərinin müxtəlif parametrlər üzrə müəyyənləşdirilməsi ilə bağlıdır. Sərtləşdirilmiş karantin rejimindən mərhələli çıxış istiqamətində dövlət tərəfindən həyata keçirilən tədbirlərə ictimai münasibəti aşağıdakı kimi tezisləşdirmək mümkündür:

- Respondent rəylərinə əsasən karantin rejiminin uzadılmasına ictimai münasibəti 68.4% müsbət, 29.2% isə mənfi kimi xarakterizə edir. Bununla yanaşı, 2.3% respondent isə bu barədə fikir bildirməkdə çətinlik çəkib.

- Karantin rejiminin uzadılmasına münasibət ilə dövlət sərhədlərinin bağlı saxlanılmasına münasibət arasında müsbət korrelyasiya mövcuddur ($r=0.681$, $p<0.01$). Mahiyyət etibarilə karantin rejiminin uzadılması ilə bağlı dövlət təşəbbüslərinə mənfi mövqe bildirən 29.2% respondentin 64%-i dövlət sərhədlərinin bağlı saxlanılmasına müsbət rəy bildirib.

- Eyni zamanda karantin rejiminin uzadılması ilə bağlı mənfi mövqedən çıxış etmiş respondentlərin 67.5%-i həftəsonu tam izolyasiya tədbirlərinin tətbiqinə mənfi fikir bildirib ( $r=0.552$ ($p<0.01$)).

- Birinci qrupa (Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu) daxil olan respondentlərin 73.1%-i, ikinci qrup (digər şəhər və rayon) təmsilçilərinin 64.8%-i karantin rejiminin uzadılması qərarını müsbət qiymətləndirib.

- Digər tərəfdən prosesin tənzimlənməsi istiqamətində atılmış strateji addımlardan biri kimi həftəsonu tam izolyasiyanın tətbiqinə ictimai münasibətin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Ümu-

mi respondent rəylərinin təhlili bizə onu deməyə əsas verir ki, rəyi öyrənilənlərin 60%-i bu təşəbbüsü müsbət, 33.1%-i mənfi qiymətləndirib, 6.9%-i isə mövqe bildirməkdə çətinlik çəkib.

- Birinci qrupu təmsil edən Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu respondentlərinin 64.9%-i həftəsonu tam izolyasiya tədbirlərinə müsbət mövqedən yanaşdığı halda, digər şəhər və rayonları özündə cəmləşdirən ikinci qrup respondentlərin 56.2%-i bu istiqamətdə həmfikir olduqlarını bəyan edib.
- Həftəsonu tam izolyasiya tədbirləri ilə Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonuna giriş-çıxış məhdudiyyətinin qüvvədə saxlanılması tədbiri arasında nəzərəçarpacaq korrelyasiya təsbit edilib (r=0.556 (p<0.01)).
- Xüsusi karantin rejimindən çıxış və həftəsonu tam izolyasiya tədbiri ilə bağlı fikir bildirmiş respondentlərin ümumi profilləri aşağıda verildiyi kimidir.

Xüsusi karantin rejimindən çıxış formasına münasibət bildirənlərin profili




Xüsusi karantin rejimindən çıxış formasına münasibət bildirənlərin profili




Həftəsonu tam izolyasiya tədbirlərinə münasibət bildirənlərin profili




Karantin rejiminin uzadılmasına münasibət bildirənlərin profili








*“Mövcud pandemiya BMT-nin yaranmasından bəri qarşılaşılan ən böyük sınaqdır. Bu, hər şeydən əvvəl bir səhiyyə böhranı olmaqla yanaşı, qlobal sülh və təhlükəsizliyə ciddi təhdiddir. Epidemiyanın xəstəliklə mübarizə imkanlarını məhdudlaşdıracağı, sosial narazılığı artıracağı, dövlətlərin natamam və qeyri-şəffaf qərarlarının rəsmi qurumlara inamı azaldacağı istisna edilmir.”*

**Antonio Quterreş,**
***Birləşmiş Millətlər Təşkilatının Baş katibi***

### 2.8. Pandemiya ilə mübarizə çərçivəsində beynəlxalq əməkdaşlıq

Azərbaycan bir çox ölkə ilə müqayisədə pandemiya qarşısında “özünütəcrid” siyasəti yerinə beynəlxalq əməkdaşlığın və mövcud böhranlı vəziyyətin təsirlərinə qarşı birgə mübarizənin tərəfdarı kimi çıxış edib. Bu mənada dövlət başçısının sədrliyi ilə dünya miqyasında ilk təşəbbüs olaraq pandemiyaya qarşı müxtəlif ölkə rəhbərlərinin iştirakı ilə beynəlxalq videokonfrans təşkil olunub. Dövlət başçısının təşəbbüsü əsasında Türk Şurasının Zirvə görüşünün ardınca, Qoşulmama Hərəkatının Təmas Qrupunun görüşü və Şərq Tərəfdaşlığı ölkələrinin videokonfrans formatında Sammiti keçirilib.

Pandemiya ilə mübarizədə ÜST-ün ehtiyac duyduğu 31.3 milyard dollarlıq vəsaitin toplanmasına Azərbaycan öz töhfəsini verib, ÜST-ün xətti ilə 15, fərdi qaydada isə 14 ölkəyə maliyyə və digər yardımlar göstərib. Azərbaycan pandemiya ilə mübarizə çərçivəsində dəstəkləyici ölkə mövqeyindən çıxış edərək və beynəlxalq əməkdaşlıq çərçivəsində Çin, İran, İtaliya, Xorvatiya, Macarıstan, Moldova, Pakistan, Özbəkistan, Qırğızıstan, Bosniya və Herseqovina kimi bir sıra ölkələrə humanitar yardım göndərib. Eləcə də, diqqət çəkən məqam kimi Azərbaycan pandemiya ilə mübarizəyə dəstək üçün Beynəlxalq Valyuta Fonduna üz tutan 90 ölkə, eləcə də Dünya Bankına üz tutan 60 ölkə arasında yer almayıb.

Ümumilikdə götürdükdə pandemiya ilə mübarizə çərçivəsində hayata keçirilən milli strategiyalar ilə yanaşı beynəlxalq səviyyədə antiböhran strategiyalarının reallaşdırılması da xüsusi əhəmiyyət kəsb edir. Bu məsələ ilə bağlı 2008-ci il maliyyə-iqtisadi böhranı çərçivəsindəki səfərbərliyi xüsusilə qeyd edə bilərik.

Ölkəmiz COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində kifayət qədər əhəmiyyətli regional və eləcə də beynəlxalq təşəbbüslərdən çıxış edib. Sorğu çərçivəsində respondentlərin bu məsələlərə mövqeyi də xüsusilə öyrənilib.

Belə ki, rəyi öyrənilənlərin 68.2%-i ölkəmizin Ümumdünya Səhiyyə Təşkilatına 5 milyon dollar həcmində vəsait ayırmasını müsbət qiymətləndirdiyi halda, rəyi öyrənilənlərin sadəcə 5%-i əks

mövqedən çıxış edib. Maraqlı məqamlardan biri də onunla bağlıdır ki, ümumi respondentlərin 26.8%-i bu barədə məlumatlı olmadığını qeyd edib.

Eyni zamanda Azərbaycanın koronavirus pandemiyası ilə mübarizə çərçivəsində Türk Şurası ölkələri ilə görüş təşəbbüsündən çıxış etməsinə münasibət öyrənilib. Əldə olunmuş nəticələri aşağıdakı kimi xarakterizə edə bilərik: ümumi respondentlərin 53.6%-i sözügedən təşəbbüsü müsbət, 1.2%-i isə mənfi qiymətləndirdiyi halda 45.2% respondent bu barədə məlumatlı olmadığını qeyd edib. Tədqiqatın növbəti mərhələlərində ölkə rəhbərliyinin regional və beynəlxalq inteqrasiya birliklərinə üzv ölkələrin pandemiya ilə mübarizə çərçivəsində görüş və beynəlxalq həmrəylik təşəbbüslərinə ictimai rəy öyrənilib.

- Tədqiqatın beşinci mərhələsində respondentlərin Azərbaycan dövlətinin pandemiya ilə mübarizə çərçivəsində çoxtərəfli əməkdaşlıq formatlarının təşəbbüskarı qismində mövqeyinin dəyərləndirilməsi ön plana çıxarılsa da, təhlillər 30-35% respondent kəsiminin bu barədə məlumatsız olduğunu göstərir. Ümumi nəticələr təhlil olunarkən orta təhsilli respondentlərin ali təhsillilərlə müqayisədə bu istiqamətdə daha çox məlumatsız olduqları təsbit edilib.
- Digər tərəfdən məsələyə münasibət bildirənlərin təhsil səviyyəsinə nəzər yetirdikdə bütün tədbirlərə peşə-ixtisas təhsillilərin daha müsbət münasibət bildirdiyi aydın olur. Təhsil səviyyəsinə görə olan bu fərq heç bir tədbirin qiymətləndirilməsində 5%-lik göstəricini keçmir. Oxşar mənzərə respondentlərin məskunlaşma kriteriyalarına görə cavablarının müqayisəsində də aşkarlanır. Belə ki, kənd, şəhər və qəsəbə respondentlərinin təqdim olunan hər 3 tədbirin qiymətləndirilməsinə olan mövqelərində ciddi statistik fərq yoxdur.
- Pandemiya ilə mübarizə siyasəti çərçivəsində müvafiq dövlət qurumlarının məlumatlarını etibarlı hesab edən respondentlərin 87.5%-i müxtəlif dövlətlərə humanitar yardımın göstərilməsi təşəbbüsünü yaxşı qiymətləndirdikləri halda, dövlət qurumlarının məlumatlarına etimad etməyənlərdə bu göstərici 46.4% olub.
- Hökumətin pandemiya ilə mübarizəsini müsbət qiymətləndirənlərin 85.9%-i müxtəlif dövlətlərə humanitar yardımın göstərilməsini müsbət qiymətləndirib.
- Azərbaycanın Qoşulmama Hərəkatına üzv olan ölkələrin iştirakı ilə pandemiya ilə mübarizə çərçivəsində görüş təşəbbüsünü rəyi öyrənilənlərin əhəmiyyətli hissəsi (60.9%) müsbət qiymətləndirdikləri halda, 36.5%-i bu təşəbbüs barəsində məlumatlarının olmadığı qənaətindən çıxış edib.
- Analoji vəziyyət Şərq Tərəfdaşlığı ölkələrinin pandemiya ilə mübarizə çərçivəsində görüş təşəbbüsünün qiymətləndirilməsində qeydə alınıb. Belə ki, respondentlərin 59.4%-i müsbət mövqedən çıxış etdiyi halda, 38.4%-i məlumatsız olduqlarını bəyan edib.



*“Bu pandemiya və inkişaf etmiş ölkələrin iqtisadiyyatının qismən dayandırılması son illərdə yoxsulluğun qarşısının alınması üzrə nailiyyətləri heçə endirə, 60 milyona yaxın insanı olduqca yoxsul hala sala bilər”. – “DB qrupu 100 ölkədə reaksiya tədbirlərinə tez və qətiyyətlə başlayıb. İqtisadiyyatın yenidən yüksəlməsi üçün təcili olaraq cavab tədbirlərinə başlamalı, səhiyyədəki fövqəladə vəziyyəti tənzimləməli, pul ödəmələri ilə təmin etməliyik ki, kasıb təbəqəni dəstəkləmək, iqtisadiyyatın davamlılığını artırmaq və onun bərpasını təmin etmək mümkün olsun”.*

**Devid Malpass**
***Dünya Bankının prezidenti***

**Pandemiya ilə qlobal mübarizə çərçivəsində Azərbaycanın iştirakının qiymətləndirilməsi**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri




**2.9. Pandemiya ilə mübarizə çərçivəsində aidiyyəti şəxs və qurumların fəaliyyətinin qiymətləndirilməsi**

Qloballaşan dünya sistemində hər hansı ölkədə yaranan böhranlı vəziyyət məhz həmin ölkə ilə məhdudlaşmır, əlaqəli bütün ölkələri də öz təsiri altına salır. Əsasən müəssisə, təşkilat miqyasında istinad olunan antiböhran idarəçiliyi ayrı-ayrı təşkilatlardan daha yuxarı mövqedə dayanan siyasi təşkilatlanma forması kimi dövlət müstəvisində də öz aktuallığını qoruyur. Digər təşkilati formalarda olduğu kimi dövlət miqyasında da müəyyən olunmuş məqsədlər, hədəflər, prioritetlər istiqamətində planlaşdırılan fəaliyyəti əhəmiyyətli dərəcədə dəyişdirən böhranlı vəziyyət siyasi liderin, ayrı-ayrı qurumların və şəxslərin peşəkar idarəçilik bacarıqlarına, liderlik qabiliyyətlərinə, səriştələrinə görə həllini tapır.

Antiböhran idarəçiliyi dövlət tərəfindən böhranın dərinləşməsinin qarşısının alınması, böhranlı vəziyyətin aradan qaldırılması və təsirlərinin minimum səviyyədə saxlanılması mərhələlərində həyata keçirilən bütün tədbirləri əhatə edir. Belə ki, dövlətin böhran təhlükəsini əvvəlcədən görməsi, böhran siqnalına çevik reaksiya verməsi, böhranlı vəziyyətə nəzarəti təmin edən operativ idarəetmə və informasiya-kommunikasiya mexanizmini qurması, neqativ təsirləri minimallaşdırmaq məqsədilə qabaqlayıcı tədbirlər və sosial-iqtisadi dəstək tədbirləri həyata keçirməsi və sonda ümumi nəticələri dəyərləndirməsi böhranlı vəziyyətin idarəolunması istiqamətində ən vacib mərhələlər hesab edilir.

Bu mənada Azərbaycan dövləti koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələn böhranlı vəziyyətin ölkə iqtisadiyyatına mənfi təsirinin azaldılması istiqamətində nümunəvi antiböhran strategiyası hazırlayıb və həyata keçirib. Dövlət başçısının “Biz birlikdə güclüyük!” şüarı ətrafında cəmiyyətin bütün təbəqələri və resursları böhranlı vəziyyətə qarşı səfərbər olunub və milli həmrəylik nümayiş etdirib. I Vitse-prezident tarixin ən çətin sınağı qarşısında xalqla birlik, bərabərlik nümunəsi sərgiləyib.

Epidemiyanın hələ ölkə sərhədlərinə çatmasından bir ay əvvəl (ilk koronavirusa yoluxma halı fevralın 28-də qeydə alınıb) qabaqlayıcı tədbirlər kimi dövlət başçısının tapşırığı ilə yanvar ayının 28-də Nazirlər Kabinetində müşavirə keçirilib, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrini də nəzərə alaraq, pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində fəaliyyət planı təsdiq edilib, müvafiq işçi qrupunun yaradılması, sərhəd-keçid məntəqələrinin gücləndirilməsi, səhiyyə ocaqlarında qaynar xətlərin yaradılması, ictimai maarifləndirmə işlərinin aparılması istiqamətində qərarlar qəbul olunub. Pandemiyanın ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, operativ profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi, çevik informasiya-kommunikasiya sisteminin təmin olunması istiqamətində Nazirlər Kabineti yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət Operativ Qərargah yaradılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tələb və tövsiyələrinin təmin edilməsi, xüsusi karantin rejiminə riayət olunması istiqamətində hüquq-mühafizə orqanlarının əməkdaşları gücləndirilmiş rejimdə fəaliyyət göstəriblər. TƏBİB tərəfindən əhalinin məlumatlandırılması, zəruri metodiki göstərişlər, həmçinin testlərin keçirilməsi istiqamətində mühüm addımlar atılıb. Əhalinin informasiya təminatı, dezinformasiyanın qarşısının alınması və maarifləndirmə istiqamətində KİV fasiləsiz fəaliyyət göstərib. "ASAN xidmət" mərkəzlərində elektron və səyyar xidmət formaları təqdim olunub, xüsusi karantin rejimi dövründə hərəkətin tənzimlənməsi istiqamətində xüsusi portal (icaze.e-gov.az) və SMS icazə sistemi istifadəyə verilib.

**Pandemiya ilə mübarizə çərçivəsində aidiyyəti şəxs və qurumların fəaliyyətinə münasibət**

Pandemiya ilə mübarizə çərçivəsində aidiyyatı şəxs və qurumların fəaliyyətinə münasibət qrafikdə göründüyü kimi qərarlaşıb. Respondent rəyləri əsasında aidiyyatı şəxs və qurumların reytinqi 4 ballıq şkala (1 çox pis və 4 çox yaxşı) ilə qiymətləndirilib. Hesablanmış orta qiymət göstəricisinə əsasən tədqiqatın birinci mərhələsində reytinq sıralaması aşağıdakı ardıcıllıqla xarakterizə edilə bilər: Prezident və I Vitse-prezident 3.81 balla ən yüksək mövqedə qərarlaşdığı halda, 3.61 balla kütləvi informasiya vasitələri son pillədə yer alıb. Məhz bu kontekstdən çıxış edərək sıralama müvafiq olaraq Prezident və I Vitse-prezident (3.81), TƏBİB (3.76), Operativ Qərargah və hüquq mühafizə orqanları (3.73), "ASAN xidmət" (3.71) və nəhayət, kütləvi informasiya vasitələri (3.61) kimi təsbit edilib. Ümumiyyətlə, cəmiyyətin ilkin mərhələdə pandemiya ilə mübarizə çərçivəsində aidiyyəti şəxs və qurumlara münasibəti əhəmiyyətli dərəcədə yüksək olub.

Tədqiqatın sonuncu mərhələsində həyata keçirilmiş sosioloji sorğu nəticələri əhəmiyyətli dəyişikliklərlə xarakterizə olunmaqdadır ki, bunun da obyektiv və subyektiv səbəbləri mövcuddur. Keçirilən sonuncu sorğunun rəylərinə əsaslanaraq aidiyyatı şəxs və qurumların sıralamasını aşağıdakı kimi xarakterizə edə bilərik: Prezidentin sözügedən istiqamətdə fəaliyyəti digərləri ilə müqayisədə daha yüksək qiymətləndirilərək ilk sırada qərarlaşıb (3.70). Digər subyektər üzrə göstəricilərə nəzər salsaq, müvafiq olaraq I Vitse-vrezident (3.68), "ASAN xidmət" (3.45), hüquq-mühafizə orqanları (3.22), DOST mərkəzləri (3.19), Dövlət Vergi Xidməti (3.11), KİV (3.04), Təhsil Nazirliyi (2.92), yerli icra hakimiyyətləri (2.89), Operativ Qərargah (2.83), ƏƏSMN (2.81) TƏBİB (2.69) və nəhayət, Səhiyyə Nazirliyi 2.55 balla sonuncu mövqedə qərarlaşıb.

Göründüyü kimi, Operativ Qərargah, TƏBİB və Səhiyyə Nazirli-




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

yinin cari mərhələdəki fəaliyyəti əhəmiyyətli dərəcədə aşağı qiymətləndirilib ki, bu da aprel ayı ilə müqayisədə ciddi azalma kimi xarakterizə oluna bilər.

- Respondentlərin 67.6%-i pandemiya ilə əlaqədar məlumatların əldə edilməsində aparıcı vasitəsi kimi TV və radionu, 25.5%-i isə sosial medianı qiymətləndirib.

- TV və radiodan məlumat əldə edənlərin 47.7%-i, sosial medianı bu məqsədlə əsas informasiya mənbəyi kimi istifadə edənlərin isə 62.3%-i şəhər respondentlərinin payına düşür ($X^2(10)=46.621$, $p<0.01$).

- Digər tərəfdən respondent rəyləri əsasında yuxarıda qeyd edilən informasiya mənbələrindən əldə edilən məlumatlardan məmnunluq səviyyəsinin təhlili əsasında qeyd edə bilərik ki, respondentlərin 9.6%-i əldə edilən məlumatları faydalı hesab etməyib.

- Bu istiqamətdə müvafiq dövlət qurumlarının məlumatlarına etibar etmədiklərini bildirən 12.4% respondentin 51.7%-i kişi 48.3%-i isə qadınlardan ibarətdir. Etibar etmədiklərini bəyan edən respondentlərin 53.0%-i orta təhsilli və 47.0%-i şəhər respondentlərindən formalaşıb.

- Sözügedən respondent kəsimi ümumilikdə dövlətin pandemiya ilə mübarizə siyasətini 60.1%-lik göstərici ilə müsbət qiymətləndirib. Digər tərəfdən mənfi mövqedən çıxış edən rəyi öyrənilənlərin 73.4%-i Operativ Qərargahın fəaliyyətini mənfi qiymətləndirdiyi halda TƏBİB-in fəaliyyətinə analoji yanaşma isə 76.3% təşkil edib.

- Maraqlı məqam ondan ibarətdir ki, sözügedən 12.4% respondentin 53.6%-i COVID-19 virusuna yoluxmaqdan qorxduğunu bəyan edib.

- Ümumiyyətlə, dövlətin pandemiya ilə mübarizə siyasətinin müsbət qiymətləndirilməsinə bu istiqamətdə fəaliyyət göstərən şəxs və qurumlar içərisində ölkə Prezidentinin fəaliyyəti əhəmiyyətli dərəcədə təsir göstərir. Dolayısı ilə bu iki göstərici arasında statistik əhəmiyyətli korrelyasiya təsbit edilib ($r=0.477$, $p<0.01$).

- Sözügedən istiqamətdə dövlətin antiböhran siyasətinin icrasını müsbət qiymətləndirən respondent qrupunun (88.4%) 71.7%-i COVID-19 virusuna yoluxmaqdan əhəmiyyətli dərəcədə qorxduğunu bəyan edib. Maraqlı məqam ondan ibarətdir ki, əks mövqedən çıxış edən 7.9%-lik respondent kəsiminin tərkibində virusa yoluqmaqdan qorxduğunu bəyan edənlər sadəcə 56.4%-dir.

Dövlətin pandemiya ilə mübarizədə antiböhran siyasətinə və onun icra olunma səviyyəsinə münasibət ayrı-ayrılıqda əhəmiyyət daşıyır. Bu mənada dövlətin qabaqlayıcı və sosial dəstək tədbirləri, eləcə də zəruri məhsul və xidmətlərin təminatı ilə bağlı tədbirlərinə respondent rəyi əsasında ümumilikdə antiböhran siyasətinə ictimai münasibət göstəriciləri müəyyən olunub. Qeyd olunan tədbirlər üzrə əldə olunan orta göstəriciyə əsasən ümumi respondentlərin 93.0%-i dövlətin antiböhran siyasətini müsbət hesab edib. Cəmi 5.0% respondent mənfi münasibət bildirib, 2.0% respondent isə qərarsız mövqe sərgiləyib.

Antiböhran siyasətinin icrası ilə bağlı vətəndaşların rəyində də cüzi azalma ilə yanaşı müsbət tendensiya müşahidə olunub. Belə ki, ümumi respondentlərin 88.4%-i siyasətin icra səviyyəsini müsbət, 7.9%-i isə mənfi qiymətləndirib. 3.8% respondent isə cavab verməkdə çətinlik çəkib.

- Ümumilikdə Azərbaycan hökumətinin pandemiya ilə mübarizə siyasətinin icrasını çox müsbət qiymətləndirən 51.9% respondent kəsiminin 21.1%-i Operativ Qərargahın son dövrlərdəki fəaliyyətini mənfi qiymətləndirib. Sözügedən mənfi mövqedən çıxış edən respondent seqmentində 55.0%-lik göstərici ilə orta təhsilli kəsim xüsusilə ön plana çıxır. Eyni zamanda narazı kəsimin məskunlaşma baxımından qiymətləndirilməsi 42.5%-lik göstərici ilə kənd respon-

**Pandemiya ilə mübarizə çərçivəsində sosial dəstək alətlərini icra edən qurumların fəaliyyətinə münasibət**




**Pandemiya ilə mübarizə çərçivəsində informasiya və kommunikasiya tədbirlərinin qiymətləndirilməsi**




**Qeyd:** 03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

dentlərinin ön planda olduğu qənaətindən çıxış etməyimizə səbəb olur.

- Ümumilikdə pandemiya ilə mübarizə çərçivəsində dövlət siyasətinin icrasını müsbət dəyərləndirən 88.4% respondentin 66.5%-i TƏBİB-in fəaliyyətini yaxşı qiymətləndirir. Bu mənada rəyi öyrənilənlərin 1/3-i sözügedən qurumun fəaliyyətini məqbul hesab etmədiklərini bəyan edib.

- Eyni zamanda pandemiya ilə mübarizə siyasətinin icrasını ümumilikdə müsbət qiymətləndirən 88.4% respondent (51.9%-i çox yaxşı, 36.5%-i əsasən yaxşı) sərtləşdirilmiş karantin rejimindən çıxış strategiyası kimi mərhələli yanaşmanı 72.2%-lik göstərici ilə məqbul hesab edir.

- Dövlətin antiböhran siyasətinə müsbət rəy bildirən respondentlərin 73.9%-i karantin qaydalarını pozan şəxslərə tətbiq edilən cərimə miqdarının artırılmasını müsbət qiymətləndirdikləri halda yalnız 26.1%-i bu təşəbbüsü mənfi qiymətləndirib.

- Ölkə miqyasında pandemiya ilə mübarizə siyasətinin icrasını mənfi qiymətləndirən 7.9% respondentin 60.0%-ə qədəri sərtləşdirilmiş karantin rejimindən mərhələli çıxışın tərəfdarı olduğunu bildirdiyi halda, dövlət siyasətini müsbət qiymətləndirən respondent seqmenti ilə müqayisədə birdəfəlik çıxışı daha çox dəstəkləyib.

- Bu respondent kəsiminin TƏBİB və Operativ Qərargahın fəaliyyətinə münasibəti müvafiq olaraq 22.6% və 22.7%-lik göstəricilərlə müsbət dəyərləndirilə bilər. Buradan belə qənaətə gələ bilərik ki, dövlətin pandemiya ilə mübarizə siyasətinin icrasını mənfi qiymətləndirən respondent qrupunun (7.9%) rəyinə sözügedən qurumların fəaliyyəti əhəmiyyətli dərəcədə təsir göstərib.

- Sözügedən 7.9%-lik respondent qrupunun 72.1%-i karantin qaydalarını pozan şəxslərə tətbiq edilən cərimə miqdarının artırılmasını mənfi qiymətləndirib.

**Azərbaycan dövlətinin pandemiya ilə mübarizə siyasətinə və onun icra səviyyəsinə münasibətin qiymətləndirilməsi**




**Qeyd:** [1]24.04.2020 – 30.04.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri
[2]03.07.2020 – 07.07.2020-ci il tarixlərində keçirilmiş sosioloji sorğunun nəticələri

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Tədqiqat çərçivəsində pandemiya ilə mübarizənin multidisiplinar tədqiqatlara və optimal simulyasiya proqnozlarına əsaslanan qərarlar doğrultusunda dövlət qurumları, biznes sektoru və bütövlükdə cəmiyyətin həmrəyliyinin vacibliyi təsbit edilib. Ayrı-ayrı ölkələrin təcrübəsinə əsaslanaraq qeyd edə bilərik ki, pandemiya ilə effektiv mübarizənin əsas determinantları kimi ictimai həyatın virusun təsirlərini minimumlaşdıracaq şəkildə dizayn edilməsi və yaxud  əgər belə demək mümkündürsə, yeni sosial normalara keçid, səhiyyə xidmətlərinin effektiv planlaşdırılması, logistik ehtiyacların məqsədyönlü qarşılanması, dövlət və özəl sektorda müvafiq əməliyyatların optimallaşdırılması və s. strateji məqamlar çıxış edir.

Həyata keçirilən simulyasiyalar faktiki səhiyyə və eləcə də sosial-iqtisadi datalara əsaslanmaqla yanaşı, ictimai rəy sorğularının nəticələrinin də diqqət mərkəzində saxlanılmasını şərtləndirir. Məhz bu faktor pandemiya ilə mübarizə çərçivəsində ictimai (vətəndaş) gözləntilərin müəyyənləşdirilməsi və istər karantin şərtləri, istərsə də dövlət dəstək alətlərinin tətbiqi ilə bağlı strateji qərarların verilməsində müstəsna rol oynayır.

Sosial Tədqiqatlar Mərkəzi tərəfindən pandemiya ilə mübarizə çərçivəsində dövlətin antiböhran siyasətinin demək olar ki, bütün mərhələlərində verilmiş qərarlara ictimai rəy öyrənilərək müvafiq nəticələr təsbit edilib. Koronavirus (COVID-19) pandemiyasının inkişaf trayektoriyası ilə bağlı fərqli optimist və pessimist ssenarilər əsasında qarşıdakı mərhələlərdə veriləcək strateji qərarlar, həyata keçiriləcək qabaqlayıcı tədbirlər və dövlətin sosial-iqtisadi dəstək təşəbbüsləri sözügedən ictimai rəyin nəticələrinə əsaslanmaqla antiböhran idarəçiliyi üçün xüsusi əhəmiyyət kəsb edə bilər.

Ölkə üzrə keçirilmiş ictimai rəy sorğularının analitik təhlili bizə aşağıdakı nəticələrdən çıxış etməyə imkan verir:

**Ümumi nəticələr:**

- İlkin olaraq Azərbaycan dövlətinin pandemiya ilə mübarizə siyasətinə, istər ölkə miqyasında həyata keçirilən qabaqlayıcı tədbirlərə, istərsə də dövlət dəstək alətlərinə ictimai rəy əsas etibarilə müsbətdir (ümumölkə səviyyəsində keçirilən sorğunun nəticələrinə görə 93.0%-lik göstərici ilə).
- Digər tərəfdən Azərbaycan dövlətinin pandemiya ilə mübarizə siyasətinin icrası ilə bağlı ictimai rəy də müsbət tendensiya ilə xarakterizə olunmaqdadır (ümumi respondentlərin 51.9%-i pandemiya ilə mübarizə siyasətini “çox yaxşı”, 36.5%-i isə “əsasən yaxşı” qiymətləndirib).
- Xüsusi karantin rejimindən çıxış kimi strateji yanaşmada respondentlərin əhəmiyyətli hissəsi arasında bu istiqamətdə azalan tendensiya müşahidə edilsə də, əsasən mərhələli yanaşmaya üstünlük verilir (əgər tədqiqatın birinci mərhələsində ümumi respondentlərin 75.7%-i bu qənaətdən çıxış edirdisə sonuncu mərhələdə bu göstərici 66.6% təşkil edib).
- Digər tərəfdən tədqiqat çərçivəsində rəyi öyrənilənlərin 55.6%-i pandemiya ilə mübarizə çərçivəsində ayrılmış maliyyə vəsaitlərini yetərli hesab etdiklərini bəyan edib (bu istiqamətdə əks mövqedən çıxış edənlər ümumi respondentlərin 24.0%-ni təşkil etdiyi halda, təqribən 20.4% respondent sözügedən istiqamətdə fikir bildirməkdə çətinlik çəkdiyini bildirib).

**Idarəedicilərə yönəlik nəticələr:**

- Sərtləşdirilmiş karantin rejimindən çıxışın zamanlamasını müxtəlif parametrlər əsasında ciddi şəkildə nəzərdən keçirmək və mərhələli çıxış strategiyası çərçivəsində bütün detalları diqqət mərkəzində saxlamaq məqsədəuyğundur.
- Mümkün ikinci dalğanın ilkin simptomları müşahidə edildiyi zaman sərtləşdirilmiş karantin rejiminə keçid və sosial izolyasiya tədbirlərinə hazırlıqlı olmaq, eləcə də tərəddüd etmədən bunu reallaşdırmaq lazımdır.
- Dövlət və həmçinin özəl sektor subyektləri orta və uzunmüddətli fəaliyyət strategiyalarını potensial dalğalanmalara görə planlaşdırmalı, mövcud imkanlar dəyərləndirilməklə karantin rejimlərinə uyğun iş modelləri və texnologiyaları müxtəlif kombinasiyalarda nəzərdən keçirilməlidir.
- Epidemiya ilə mübarizənin ilkin mərhələsində “resursların birgə istifadəsi və yaxud optimal bölüşdürülməsi” ilə bağlı önəmli sosial-iqtisadi və humanitar tənzimləmə mexanizmlərinə yönəlik hüquqi müddəaların zəruriliyi diqqət mərkəzində saxlanılmadır.

**Cəmiyyətə yönəlik nəticələr:**

- Pandemiyanın yeni dalğasının olma ehtimalının yüksək qiymətləndirildiyini nəzərə alaraq gündəlik profilaktik tədbirlərə ciddi nəzarət edilməsi məqsədəuyğundur. Xüsusilə əhalinin sıx olduğu və qapalı məkanlarda tibbi maskadan istifadə diqqət mərkəzində saxlanılmalıdır.
- Dövlət tərəfindən tətbiq edilən karantin qaydalarına riayət olunması zəruridir.
- Müxtəlif ictimai mesajların və çağırışların hazırlanaraq yerli televiziya kanalları və sosial media vasitəsilə yayımlanması arzuolunandır.

Digər tərəfdən tədqiqat çərçivəsində Azərbaycan dövlətinin koronavirus (COVID-19) pandemiyası ilə mübarizə strategiyasında əsas strateji istiqamətlərdən biri kimi səhiyyə şokunun mənfi sosial-iqtisadi təsirlərinin minimumlaşdırılması prioritetləşdirilib. Məhz bu istiqamətdə həyata keçirilən təhlillər bizə onu deməyə əsas verir ki, COVID-19 pandemiyası ilə mübarizə tədbirlərinin sosial-iqtisadi münasibətlər sisteminə təsirləri əsasən iki istiqamət üzərindən formalaşır:

**1.** İqtisadi fəaliyyətlərə yönəlik tətbiq edilən məhdudiyyətlərin təsiri.

**2.** Gözləntilər və sosial davranışlardakı dəyişikliklərdən qaynaqlanan təsirlər.

Ümumiyyətlə, epidemiyalara qarşı preventiv siyasət strategiyaları əsas etibarilə iki mərhələdən ibarətdir. Bunlardan birincisi, hazırlıq mərhələsi, ikincisi isə müdaxilə mərhələsidir. Cari vəziyyətdə ölkəmiz də daxil olmaqla dünyanın əksər ölkələri pandemiya ilə mübarizəyə məhz ikinci mərhələ olan müdaxilə mərhələsindən başlayıb. Hesab edirik ki, bu vəziyyət ciddi təcrübələrin əldə edilməsində müstəsna əhəmiyyətə malikdir. Bütün bu tədqiqat nəticələrindən çıxış edərək aşağıdakı əsas təkliflərdən çıxış etməyi məqsədəuyğun hesab edirik:

- Pandemiyalarla Mübarizə Üzrə Milli Fəaliyyət Plan işlənilməlidir. Təhlillər göstərir ki, sözügedən fəaliyyət plan-

larına malik olan ölkələr cari vəziyyətdə daha az mənfi təsirlə qarşılaşmışdır.

- Hal-hazırda dünya üzrə 85 ölkədə mövcud olan 114 Milli İnfluenza (Qrip) Mərkəzi, Dünya Səhiyyə Təşkilatı ilə koordinasiyalı şəkildə fəaliyyət göstərərərk qlobal influenza (qrip) proqramını həyata keçirməkdədir. Hesab edirik ki, bu istiqamətdə müvafiq tədbirlərin təkmilləşdirilməsinə ehtiyac var.

- Pandemiya ilə mübarizənin ilkin mərhələsində "Resursların birgə istifadəsi və yaxud optimal bölüşdürülməsi" ilə bağlı önəmli sosial-iqtisadi və həmçinin humanitar tənzimləmə mexanizmlərinə yönəlik hüquqi müddəaların zəruriliyi diqqət mərkəzində saxlanılmadır.

- COVID-19 pandemiyasının dağıdıcı təsirlərinin məhdudlaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin nəticələrinin təhlili çərçivəsində əsas problemlərdən biri kimi, qısa müddətli və nəticələri fərqli olan təsirlərin qruplaşdırılması ilə bağlıdır. Hesab edirik ki, tətbiq edilən antiböhran tədbirlərinin təsirləri qruplaşdırıldıqda (iqtisadi və insani) resursların (xərclərin) müəyyənləşdirilməsi və fərqli strateji tətbiqlərin dəyərləndirilməsi ilə bağlı optimal qərar vermək imkanları genişlənir. Pandemiyadan qaynaqlanan mənfi sosial-iqtisadi təsirlərin minimumlaşdırılması istiqamətində həyata keçirilən dövlət dəstək tədbirləri SIR (Susceptible – Infected – Recovered/Removed) modelleri əsasında planlaşdırılmalıdır.

- Həssas əhali qrupuna yönəlik dövlət dəstək alətləri müxtəlif parametrlər nəzərə alınmaqla fərqli kombinasiyalarda təqdim edilməlidir. Bunun üçün dəstək alətlərinin yaratdığı effekt də müşahidə edilməlidir.

- Dünya Bankının proyeksiyalarına əsaslanaraq qeyd edə bilərik ki, COVID-19 pandemiyası cari il üçün ən optimist ssenari üzrə 71 milyon insanın yoxsullaşmasına səbəb ola bilər ki, bu da qlobal yöxsulluq səviyyəsinin 8.9%-lik bir səviyyəyə çatacağı ehtimalını gücləndirir. Məhz bu gözləntiləri nəzərə alaraq Dövlətin sosial siyasətinə yenidən baxmalı sosial yönümlü büdcə planlaması tətbiq edilməlidir. Eyni zamanda əmək bazarı müvafiq dövlət institutları tərəfindən ciddi nəzarət altına götürülməlidir.

- Vəziyyəti tam nəzarət altına almadan daha dəqiq desək yoluxma faktlarını tam nəzarət ediləbilən səviyyəyə endirmədən "iqtisadiyyatın açılması" virusun daha uzun müddətdə davam etməsinə, qeyri-müəyyənliyin artmasına və nəticə etibarilə məhdudlaşdırıcı tədbirlərin yenidən tətbiqinə gətirib çıxara bilər. hansı ki, bu da nəticə etibarilə iqtisadi və insani risk səviyyəsinin yüksəlməsinə səbəb ola bilər. Məhz bu səbəbdən fərqli beyin mərkəzləri tərəfindən spesifik simulyasiyaların reallaşdırılması olduqca vacibdir.

- Ümumiyyətlə şərtlər dəyişdikcə fərqli səviyyələrdə tətbiq edilən tədbirlər ölkə üzrə selektiv şəkildə tətbiq edilməlidir. Koordinasiyalı preventiv siyasətlərin elastikliyi diqqət mərkəzində saxlanılmalıdır.

# İSTİNADLAR


A World at Risk. Annual report on global preparedness for health emergencies. Global Preparedness Monitoring Board. Geneva: World Health Organization 2019. https://apps.who.int/gpmb/assets/annual_report/ GPMB_annualreport_2019.pdf

CDC, WHO, BBC, Encyclopedia Britannica https://www.visualcapitalist.com/history-of-pandemics-deadliest/

Prioritizing diseases for research and development in emergency contexts. https://www.who.int/activities/prioritizing-diseases-for-researchand-development-in-emergency-contexts

Lee J.-W., McKibbin W.J. Estimating the global economic costs of SARS. In: Knobler S, Mahmoud A, Lemon S, Mack A, Sivitz L, Oberholtzer K, editors. Learning from SARS: preparing for the next disease outbreak: workshop summary. Washington (DC) https://www.ncbi.nlm.nih.gov/books/NBK92473/

Fan V.Y., Jamison D.T., Summers L.H. Pandemic risk: how large are the expected losses? Bull. World Health Organ. 2018, 96(2), pp. 129–134.

International Working Group on Financing Preparedness. From panic and neglect to investing in health security: financing pandemic preparedness at a national level. Washington (DC): World Bank Group, 2017 http://documents.worldbank.org/curated/en/979591495652724770

World Bank Group. "Pandemic Preparedness Financing-STATUS UPDATE, June 2019". Commissioned paper by the GPMB

Sanders G.D., Neumann P.J., Basu A., Brock D.W., Feeny D., Krahn M. Recommendations for conduct, methodological practices, and reporting of cost-effectiveness analyses second panel on cost-effectiveness in health and medicine, JAMA. 316, 2016, pp. 1093–1103.

Rose A.Z., et al. A framework for analyzing and estimating the total economic impacts of a terrorist attack and national disaster, J. Homel. Secur. Emerg. Manag. 2009, №. 6 (1) https://www.researchgate.net/publication/250147134_A_Framework_for_Analyzing_the_Total_Economic_Impacts_of_Terrorist_Attacks_and_Natural_Disasters

World Bank, People, Pathogens and our Planet: The Economics of One Health. Washington DC, 2012 https://openknowledge.worldbank.org/handle/10986/11892

Machalaba C., Smith K.M., Awada L., Berry K., Berthe F., Bouley T.A., et al. One health, economics to confront disease threats, Trans. R. Soc. Trop. Med. Hyg. 2017, №.111 (6). pp. 235–237 [Electronic resource]. https://www.ncbi.nlm.nih.gov/pubmed/29044367

Lau K., Hauck K., Miraldo M. Excess influenza hospital admissions and costs due to the 2009 H1N1 pandemic in England. Health Econ. 2019, № 28(2) https://www.ncbi.nlm.nih.gov/pubmed/30338588

HIV Cost-effectiveness https://www.cdc.gov/hiv/

Robert KesslerDisease X: The Next Pandemic. https://www.ecohealthalliance.org/2018/03/disease-x

WHO, Coronavirus disease 2019 (COVID-19) Situation Report - 52, 12 march 2020

Recep Aydın, Tarihten günümüze epidemiler, pandemiler ve covid-19, Göller Bölgesi Aylık Ekonomi ve Kültür Dergisi Ayrıntı, Cilt 8, Sayı 85, Nisan 2020/35

World Bank Education and COVID-19 https://www.worldbank.org/en/data/interactive/2020/03/24/world-bank-education-and-covid-19

Education: From disruption to recovery https://en.unesco.org/covid19/educationresponse

International Labor Organisation (ILO), COVID-19: Guidance for labour statistics data collection, Geneva, 5 june 2020 https://ilo.org/wcmsp5/groups/public/---dgreports/---stat/documents/publication/wcms_747075.pdf

ILO Monitor: COVID-19 and world work, International Labour Organisation (ILO), Geneva, 30 june 2020 https://www.ilo.org/wcmsp5/groups/public/@dgreports/@dcomm/documents/briefingnote/wcms_749399.pdf

https://www.cdc.gov/coronavirus/2019-ncov/community/large-events/considerations-for-events-gatherings.html

https://www.northstarmeetingsgroup.com/coronavirus-countries-cities-reopening-COVID-19-new-cases

https://www.osu.eu/24712/the-latest-covid-19-related-news/

COVID-19 Community Mobility Report https://www.google.com/covid19/mobility/

https://drexel.edu/uhc/about/News/2020/May/How%20Many%20Lives%20Have%20Stay-At-Home%20Orders%20Saved/

https://www.scmp.com/news/china/science/article/3074351/coronavirus-can-travel-twice-far-official-safe-distance-and-stay

https://ehjournal.biomedcentral.com/articles/10.1186/s12940-018-0427-5

Considerations for infection prevention and control measures on public transport in the context of COVID-19, ECDC, 29 april 2020, https://www.ecdc.europa.eu/sites/default/files/documents/COVID-19-public-transport-29-April-2020.pdf

https://www.usatoday.com/story/news/nation/2020/04/14/public-transportation-users-risk-coronavirus-spreads-across-us/2979779001/

https://transitapp.com/coronavirus

Public Transport Authorities and Covid-19, UITP, March, 2020, https://www.lek.com/sites/default/files/insights/pdf-attachments/Public-Transport-Authorities-COVID-19.pdf

More than nine-in-ten people worldwide live in countries with travel restrictions amid COVID-19 https://www.pewresearch.org/fact-tank/2020/04/01/more-than-nine-in-ten-people-worldwide-live-in-countries-with-travel-restrictions-amid-covid-19/

[3]Covid-19 Desease Response, IOM, 20-23 March 2020, https://www.iom.int/sites/default/files/situation_reports/file/iomsitrep_covid19response_no2final.pdf

Covid-19 Desease Response, IOM, 11-17 July 2020, https://www.iom.int/sites/default/files/situation_reports/file/iom_covid-19_sitrep24_11-17july2020_final_0.pdf

Social Protection and Jobs Responses to COVID-19: A Real-Time Review of Country Measures, World Bank, May, 2020, http://documents1.worldbank.org/curated/en/448321588971503966/pdf/Social-Protection-and-Jobs-Responses-to-COVID-19-A-Real-Time-Review-of-Country-Measures-May-8-2020.pdf

COVID-19 to slash global economic output by $8.5 trillion over next two years, 13 may 2020, https://www.un.org/development/desa/en/news/policy/wesp-mid-2020-report.html

"Best Strategies against Coronavirus: Track, Isolate, Communicate", Economic Times, 19 Mart 2020.

The Neglected Dimension of Global Security: A Framework to Counter Infectious Disease Crisis, (The National Academies Press, Washington DC: 2016).

https://www.bsg.ox.ac.uk/research/research-projects/coronavirus-government-response-tracker

# ƏLAVƏLƏR

## DÜNYA ÖLKƏLƏRİ ÜZRƏ HƏR MİN NƏFƏRƏ DÜŞƏN ÇARPAYI SAYI, 2018




## PANDEMİYA DÖVRÜNDƏ İCTİMAİ MƏLUMATLANDIRMA TƏDBİRLƏRİ




## PANDEMİYA DÖVRÜNDƏ TESTLƏRİN TƏTBİQ OLUNMASI



**24.04.2020 – 30.04.2020 tarixlərində keçirilmiş sorğunun demoqrafik göstəriciləri**



**22.05.2020 – 23.05.2020 tarixlərində keçirilən sorğunun demoqrafik göstəriciləri**



## 09.06.2020 – 10.06.2020 tarixlərində keçirilmiş sorğunun demoqrafik göstəriciləri



**03.07.2020 – 07.07.2020 tarixlərində keçirilmiş sorğunun demoqrafik göstəriciləri**



**Birdəfəlik ödəmədən (190 azn) faydalananların demoqrafik göstəriciləri (ƏƏSMN-nin məlumatı)**




| | | Ailə üzvlərim | | |
|---|---|---|---|---|
| | | Bəli | Xeyr | İşləmirdi |
| Özüm | Bəli | (I) 5.9% | (II) 2.4% | (III) 2.7% |
| | Xeyr | (IV) 3.5% | (V) 28.0% | (VI) 5.3% |
| | İşləmirdim | (VII) 12.2% | (VIII) 26.2% | (IX) 13.9% |

# QEYDLƏR

# QEYDLƏR

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69
info@stm.az www.stm.az